# DİNSİZLİYİN KABUSU

Allah kimi doğru yola yönəltmək istəsə, onun köksünü İslam üçün açar, kimi azdırmaq istəsə, onun köksünü, sanki o, göyə çıxırmış kimi daraldar və sıxıntılı edər. Allah iman gətirməyənləri beləcə cəzalandırar. (Ənam surəsi, 125)

HARUN YAHYA

## (ADNAN OKTAR)

# MÜNDƏRİCAT


GİRİŞ

DİN ƏXLAQI İNSANA VƏ CƏMİYYƏTƏ NƏLƏR QAZANDIRAR?

DİNİN GÖNDƏRİLMƏ SƏBƏBLƏRİ

QURAN ƏXLAQININ CƏMİYYƏT HƏYATINA TƏSİRİ

DİNSİZLİYİN İNSAN ÜZƏRİNDƏKİ TƏXRİBATLARI

İCTİMAİ PROBLEMLƏR DİN ƏXLAQININ YAŞANMASIYLA HƏLL OLUNAR

# YAZIÇI VƏ ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya təxəllüsünü istifadə edən müəllif Adnan Oktar, 1956-cı ildə Ankarada doğulub. İlk, orta və lisey təhsilini Ankarada tamamladı. Daha sonra İstanbul Memar Sinan Universiteti Gözəl Sənətlər fakültəsində və İstanbul Universiteti Fəlsəfə bölməsində təhsil aldı. 1980-ci illərdən bu yana, imani, elmi və siyasi mövzularda bir çox əsər hazırladı. Bunlarla yanaşı, müəllifin təkamülçülərin saxtakarlıqlarını, iddialarının etibarsızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri var.

Harun Yəhyanın əsərləri təxminən 30.000 şəkilin yer verildiyi cəmi 45.000 səhifəlik bir külliyyatdır və bu külliyyat 60 fərqli dilə çevrilmişdir.

Müəllifin təxəllüsü, inkarçı düşüncəyə qarşı mübarizə edən iki peyğəmbərin xatirələrinə hörmət olaraq, adlarını yad etmək üçün Harun və Yəhya adlarından yaradılmışdır. Müəllif tərəfindən kitabların üz qabığında Rəsulullahın möhürünün istifadə edilmiş olmasının simvolik mənası isə, kitabların məzmunu ilə əlaqədardır. Bu möhür, Qurani Kərimin Allahın son kitabı və son sözü, Peyğəmbərimiz (səv)-in də hatəm-ül ənbiya olmasını işarə edir. Müəllif də, nəşr etdiyi bütün işlərində, Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu surətlə, inkarçı düşüncə sistemlərinin bütün təməl iddialarını tək-tək çürütməyi və dinə qarşı yönəldilən etirazları tam olaraq susduracaq "son söz"ü deməyi hədəfləyir. Çox böyük bir hikmət və kamal sahibi olan Rəsulullahın möhürü, bu son sözü ifadəyə niyyətinin bir duası olaraq istifadə edilmişdir.

Müəllifin bütün işlərindəki ortaq hədəf, Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin çürük təməllərini və azğın tətbiqlərini gözlər önünə sərməkdir. Necə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniya Hersoqovinaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın daha bir çox ölkəsində bəyənilərək oxunur. İngiliscə, fransızca, almanca, italyanca, ispanca, portuqalca, urduca, ərəbcə, albanca, rusca, boşnakca, uyğurca, indoneziyaca, malayca, benqalca, serbcə, bolqarca, çincə, suahili (Tanzaniyada istifadə edilir), Hausa (Afrikada geniş şəkildə istifadə edilir), dhivelhi (Mauritusda istifadə edilir), danimarkaca və isveçcə kimi bir çox dilə çevrilən əsərlər, xaricdə geniş bir oxucu kütləsi tərəfindən izlənilir.

Dünyanın dörd bir tərəfində fövqəladə təqdir toplayan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanında dərinləşməsinə vəsilə olur. Kitabları oxuyan, araşdıran hər adam, bu əsərlərdəki hikmətli, əsaslı, asan başa düşülən və səmimi üslubun, ağıllı və elmi yanaşmanın fərqinə varır. Bu əsərlər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz edilə bilməzlik, çürüdülə bilməzlik xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən insanların, artıq materialist fəlsəfəni, ateizmi və digər azğın görüş və fəlsəfələrin heç birini səmimi olaraq müdafiə edə bilmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr də ancaq romantik bir inadla müdafiə edəcəklər, çünki fikri dayaqları çürüdülmüşdür. Dövrümüzdəki bütün inkarçı axınlar, Harun Yəhya külliyyatı qarşısında fikirlə məğlub olmuşdurlar.

Şübhəsiz, bu xüsusiyyətlər, Quranın hikmət və izahat təsirindən qaynaqlanır. Müəllifin özü bu əsərlərdən ötəri bir təkəbbür göstərmir, yalnız Allahın hidayətinə vəsilə olmağı niyyət etmişdir. Bundan əlavə, bu əsərlərin çapında və nəşr olunmasında hər hansı bir maddi qazanc hədəflənmir.

Bu həqiqətlər göz qarşısına gətirildikdə, insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etmənin də, çox əhəmiyyətli bir xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri tanıtmaq yerinə, insanların zehinlərini bulandıran, fikir qarışıqlığı meydana gətirən, şübhə və tərəddüdləri dağıtmaqda, imanı qurtarmaqda güclü və iti bir təsiri olmadığı ümumi təcrübə ilə sabit olan kitabları yaymaq isə, əmək və zaman itkisinə səbəb olacaqdır. İmanı qurtarma məqsədindən daha çox, müəllifin ədəbi gücünü vurğulamağa istiqamətli əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi açıqdır. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi çürütmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıqca görüldüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilinməlidir ki, dünya üzərindəki zülm və qarışıqlıqların, müsəlmanların çəkdikləri əziyyətlərin əsas səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmanın yolu isə, dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının, insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın günbəgün daha çox içinə çəkilmək istəndiyi zülm, fəsad və qarışıqlıq mühiti diqqətə alındığında bu xidmətin əldən gəldiyi qədər sürətli və təsirli bir şəkildə edilməsi lazım olduğu açıqdır. Əks halda çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə qabaqcıl rolu boynuna götürmüş olan Harun Yəhya külliyyatı, Allahın icazəsiylə, XXI əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur və sülhə, düzgünlük və ədalətə, gözəllik və xoşbəxtliyə daşımağa bir vəsilə olacaq.

# OXUCUYA

Bu kitabda və digər işlərimizdə təkamül nəzəriyyəsinin tənəzzülünə xüsusi bir yer ayrılmasının səbəbi, bu nəzəriyyənin hər cür din əleyhinə olan fəlsəfənin təməlini meydana gətirməsidir. Yaradılışı və dolayısı ilə Allahın varlığını inkar edən darvinizm, 140 ildir bir çox insanın imanını itirməsinə ya da şübhəyə düşməsinə səbəb olmuşdur. Bu səbəbdən, bu nəzəriyyənin bir yalan olduğunu gözlər önünə sərmək çox əhəmiyyətli bir imani vəzifədir. Bu əhəmiyyətli xidmətin bütün insanlarımıza çatdırıla bilməsi isə zəruridir. Oxucularımızdan kimsə bəlkə tək bir kitabımızı oxuma imkanı tapa bilər. Bu səbəblə, hər kitabımızda bu mövzuya qısa da olsa bir hissə ayrılması uyğun hesab edilmişdir.

İfadə edilməsi lazım olan bir başqa xüsus, bu kitabların məzmunu ilə əlaqədardır. Yazıçının bütün kitablarında imani mövzular, Quran ayələri istiqamətində izah edilir, insanlar Allahın ayələrini öyrənməyə və yaşamağa dəvət edilirlər. Allahın ayələri ilə əlaqədar bütün mövzular, oxuyanın ağlında heç bir şübhə və ya sual işarəsi buraxmayacaq şəkildə açıqlanır.

Bu izahat əsnasında istifadə edilən səmimi, sadə və axıcı üslub isə kitabların yeddidən yetmişə hər kəs tərəfindən rahat şəkildə başa düşülməsini təmin edir. Bu təsirli və sadə izahat sayəsində, kitablar "bir nəfəsdə oxunan kitablar" deyiminə tam olaraq uyğun gəlir. Dini rədd etmə mövzusunda qəti bir rəftar sərgiləyən insanlar belə, bu kitablarda izah edilən həqiqətlərdən təsirlənir və izah edilənlərin doğruluğunu inkar edə bilmirlər.

Bu kitab və müəllifin digər əsərləri, oxucular tərəfindən şəxsən oxuna biləcəyi kimi, qarşılıqlı bir söhbət mühiti şəklində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən bir qrup oxucunun kitabları bir yerdə oxumaları, mövzuyla əlaqədar öz təfəkkür və təcrübələrini də bir-birlərinə ötürmələri baxımından faydalı olacaqdır.

Bununla yanaşı, yalnız Allahın razılığı üçün yazılmış olan bu kitabların tanınmasında və oxunmasında iştirak etmək də böyük bir xidmət olacaqdır. Çünki müəllifin bütün kitablarında isbatlayıcı və razı salıcı istiqamət son dərəcə güclüdür. Bu səbəblə, dini izah etmək istəyənlər üçün ən təsirli üsul, bu kitabların digər insanlar tərəfindən də oxunmasının təşviq edilməsidir.

Kitabların arxasına müəllifin digər əsərlərinin təqdimatlarının əlavə olunmasının isə əhəmiyyətli səbəbləri vardır. Bunun sayəsində kitabı əlinə alan adam, yuxarıda danışdığımız xüsusiyyətləri daşıyan və oxumaqdan xoşlandığını ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə sahib daha bir çox əsər olduğunu görəcəkdir. İmani və siyasi mövzularda faydalana biləcəyi zəngin bir qaynaq təcrübəsinin olmasına şahid olacaqdır.

Bu əsərlərdə, digər bəzi əsərlərdə görülən, müəllifin şəxsi qənaətlərinə, şübhəli qaynaqlara söykənən izahlara, qüdsi olana qarşı lazım olan ədəbə və hörmətə diqqət yetirilməyən üslublara, burxuntu verən ümidsiz, şübhəli və ümidsizliyə aparan izahatlara rast gələ bilməzsiniz.

# GİRİŞ

Pislik, haqsızlıq, kədər, pessimizm, sıxıntı, təklik, qorxu, stress, etibarsızlıq, vicdansızlıq, narahatlıq, qəzəb, qısqanclıq, kin, narkotik asılılığı, əxlaqsızlıq, qumar, fahişəlik, aclıq, kasıblıq, korrupsiya, oğurluq, dava, düşmənçilik, cinayət, müharibə, qarşıdurma, zülm, ölüm qorxusu... Bütün bunlar demək olar ki, hər gün qəzet və televiziya verilişlərində gördüyünüz, gündəlik həyatda qarşılaşdığınız, hətta şəxsən yaşadığınız problemlərdəndir.

İnsanların və cəmiyyətlərin xilas olmağa çalışdığı, hər sahədə mübarizə apardıqları bu cür mənfi hallar, qarşıdurmalar və gizli ictimai quruluşlar, dünyada əsrlərdən bəri hakimdir. Bunun üçün, qədim Yunanıstana və ya Böyük Roma İmperatorluğuna, Çar Rusiyasına ya da intibah dövrünə, hətta istəsəniz iki böyük dünya müharibəsinə və böyük ictimai hadisələrə səhnə olan 20-ci əsrə nəzər sala bilərsiniz. Hansı əsrə və dünyanın harasına gedirsinizsə gedin, ümumiyyətlə, mənzərə dəyişməz.

Bəs insanlar bu mənfi hallarla indiyə qədər mübarizə aparıblarmı ya da aparmaq üçün bir səy göstəribdirlərmi?

Əlbəttə ki, dünyanın demək olar ki, hər dövründə insanlar bu qeyd olunan mənfi hallarla üz-üzə gəlmiş, bunlarla mübarizə aparmışlar, ancaq çarəni həmişə səhv üsullarda axtardıqları üçün həll yolu tapa bilməmişlər. Çıxış yolunu bəzən müxtəlif idarəetmə formalarını sınaqdan keçirməkdə, bəzən azğın cərəyanların təsirinə düşməkdə, çevrilişlər etməkdə, çox vaxt da biganə yanaşmaq yolunu mənimsəməkdə, bütün bu mənfi halları qəbul etməkdə görmüşlər.

Hal-hazırda insanlar, ümumiyyətlə, belə bir həyat tərzinə elə vərdiş etmişdirlər ki, yuxarıda saydığımız problemləri həyatın həqiqəti olaraq qəbul edər, bunların yaşanmadığı bir cəmiyyətin olmayacağını sanki qeyri-mümkün olaraq görərlər. Belə bir həyatdan məmnun olmadıqlarını həmişə dilə gətirərlər, amma yaşadıqları şərtlərdə başqa bir variantlarının olmadığını düşünərək, bu həyatı tezliklə qəbul edərlər.

Halbuki, dünyada yuxarıda yalnız çox kiçik bir hissəsini qeyd etdiyimiz bu mənfi halların heç birini nə ruhən, nə də bədənlə yaşamayan, həmişə bolluq, bərəkət, xoşbəxtlik, sevgi, hörmət, hüzur, əmin-amanlıq, gözəl əxlaq, sülh və dostluq kimi saysız-hesabsız nemət və gözəlliklərin sahibi olan insanlar da vardır. Məhz bu insanlar Allah rizası üçün yaşayan, Quran hökmlərinə tabe olan, Allahın rəhmətini və cənnətini qazanmağa ümid edən həqiqi dindarlar, yəni möminlərdir.

Digər bir sözlə, bu mənfi halların yeganə həlli “din əxlaqı”nın yaşanmasına əsaslanır. Din əxlaqı tam olaraq yaşandığı təqdirdə cəmiyyətlərdə hakim olan bu neqativ mühit öz yerini işıqlı bir üfüqə verəcək. Bütün insanların və cəmiyyətlərin əsrlər boyu arzuladıqları, yaxşılıq və gözəlliyin hakim olduğu belə gözəl bir mühit, ancaq Quran əxlaqının yaşanmasıyla mümkündür.

İlk başda təsvir etdiyimiz mühit isə Quran əxlaqı yaşanmadığı təqdirdə, Allahın hökmlərinə əməl olunmadıqda qaçınılmaz olaraq meydana gələr. Digər bir sözlə, din əxlaqı yaşanmadığı müddətcə insanlar bu mənfi halların hökm sürdüyü şəraitdə yaşamağa məhkumdurlar. Çünki bu, “**dinsizliyin kabusu”** dur.

Bu kitabda Allahın insanlara endirdiyi Quranda təsvir edilən “gözəl əxlaq” modeli yaşandığı təqdirdə “dinsizliyin kabusu”nun, yəni pisliklərin, pessimizmin, ictimai narahatlıqların qarşısının necə alınacağını, mənfi halların necə ortadan qalxacağı, ideal mühitə necə nail olunacağı, insanların maddi-mənəvi nə kimi qazanclar əldə edəcəkləri və bütün bu mənfi hallardan xilas ola bilmək üçün Quran əxlaqının tək alternativ həll yolu olduğu izah edilir.

Bu günə qədər bəlkə də bir çox kitabda cəmiyyətlərin və insanların içində olduqları pessimist vəziyyət haqqında yazılmış, sosioloji və psixoloji təhlillər edilmiş, problemlər tez-tez bütün təfərrüatlarıyla dilə gətirilmişdir. Lakin əlinizdəki kitabın fərqi, bu təhlil və diaqnozlar qarşısında insanlara ən həqiqi həll yolunu təklif etmək və bu həll yoluna müraciət etmədikləri təqdirdə onları necə bir gələcəyin gözlədiyini təsvir edərək səmimiyyətlə xəbərdar etməkdir.

Beləliklə, ümid edirik ki, kitabı oxuyan vicdan sahibi hər insan hüzurun, əmin-amanlığın və ideal cəmiyyət həyatının yalnız Quran əxlaqının yaşanmasıyla mümkün olduğunu başa düşəcək və həqiqi dinə, yəni “İslam”a yönələcək.

## AĞILLI DİZAYN, YƏNİ YARADILIŞ

Kitabda vaxtaşırı qarşınıza Allahın yaratmasındakı mükəmməlliyi vurğulamaq üçün istifadə etdiyimiz "dizayn" sözü çıxacaq. Bu sözün hansı məqsədlə istifadə edildiyinin doğru başa düşülməsi çox əhəmiyyətlidir. Allahın bütün kainatda qüsursuz bir dizayn yaratmış olması, Rəbbimizin əvvəlcə plan qurduğu daha sonra yaratdığı mənasını verməz. Bilinməlidir ki, göylərin və yerin Rəbbi olan Allahın yaratmaq üçün hər hansı bir "dizayn" etməyə ehtiyacı yoxdur. Allahın dizayn etməsi və yaratması eyni anda baş verir. Allah bu cür nöqsanlardan uzaqdır. Allahın, bir şeyin və ya bir işin olmasını dilədikdə onun olması üçün yalnız: "Ol!" deməsi kifayətdir.

Ayələrdə belə buyrulur:

**Bir şeyi yaratmaq istədikdə ona təkcə: "Ol!" deyər, o da olar. (Yasin surəsi, 82)**

**Göyləri və yeri icad edən Odur. O, bir işi yaratmaq istədikdə ona ancaq: "Ol!" – deyər, o da olar. (Bəqərə surəsi, 117)**

# DİN ƏXLAQI İNSANA VƏ CƏMİYYƏTƏ NƏLƏR QAZANDIRAR?

İnsan necə yaranmışdır? İnsanın dünyada olmağının məqsədi nədir? Ölüm nədir? Ölümdən sonrakı həyatda insanı necə bir həyat gözləyir? Dünyadakı həyatın mənbəyi nədir? İnsan bədəni, heyvanlar, bitkilər, kainatdakı mükəmməl nizam necə var olmuşdur? Yaxşı, pis, doğru, səhv nələrdir? Bu sualların cavablarını haradan öyrənə bilərik?

İnsanlar əsrlər boyu bu kimi sualların cavablarını axtarmış, bunlar haqqında düşünmüş və müzakirələr aparmışlar. Halbuki, bu suallara hər dövrdə ən doğru cavabı filosoflar deyil, Allah Qatından endirilmiş "həqiqi din" vermişdir.

Tarix boyunca insanlar tərəfindən ortaya atılmış bir çox batil din olmuşdur: Sintoizm, buddizm, şamanizm, bütpərəstlik bunlardan bəziləridir. Batil olan bu dinlər ancaq bir fəlsəfə və ya fikir cərəyanı olaraq qalmışdırlar. Bu dinləri ortaya atan kəslər də bir qədər əvvəlki suallara cavablar axtarmışlar, öz aləmlərində cavablar tapmışlar, lakin bunların heç biri qəti və əsaslı bir həll təmin edə bilməmişdir.

Haqq dinləri digərlərindən (batil dinlərdən) ayıran ən əhəmiyyətli fərq; ilahi mənbəli olmalarıdır. Allah haqq dinin insanlar tərəfindən uydurulmuş digər dinlərdən, fəlsəfi və ya sosioloji sistemlərdən üstün olduğunu Quranda belə bildirir:

**İslamı bütün dinlərdən üstün etsin deyə Öz Elçisini hidayətlə və həqiqi dinlə göndərən Odur. Şahid kimi Allah kifayətdir. (Fəth surəsi, 28)**

**Müşriklərin xoşuna gəlməsə də, İslam dinini bütün dinlərdən üstün etmək məqsədilə Öz Elçisini hidayət və haqq dinlə göndərən Odur. (Saff surəsi, 9)**

İlahi mənbəli dinlərdən bu gün mənsubu olanlar yəhudilik, xristianlıq və islamdır. Başlanğıcda hər üçü də Allah Qatından endirilmişdir, lakin xristianlıq və yəhudilik bu dinləri təbliğ edən peyğəmbərlərdən sonra təhrif olunmuşdurlar.

Xristianlıq və yəhudilikdəki təhrif, ilk növbədə bu dinlərin kitablarında, yəni incil və tövratda baş vermiş, bu ilahi kitablara əlavə və çıxarışlar edilmiş, bunlar saysız-hesabsız təhrifə məruz qalmış, nəticədə bir-birindən fərqli bir çox incil və tövratlar ortaya çıxmışdır. Bu ilahi kitabların orijinalları isə zamanla itmiş və unudulmuşdur. Bu dinlərin təhrif olunmasından sonra Allah qiyamətə qədər məqbul olacaq ən son ilahi kitab Quranı göndərmiş və onu hər cür təhrifdən qoruyacağını bildirmişdir:

**Şübhəsiz ki, Zikri Biz nazil etdik, əlbəttə, Biz də onu qoruyacağıq. (Hicr surəsi, 9)**

Quran, Allahın qorumasıyla 14 əsrdən bəri heç bir təhrifə məruz qalmadan dövrümüzə qədər gəlib çıxmışdır. Quranın ilk yazılı nüsxələriylə bu gün əlimizdə olan vəziyyəti arasında heç bir fərqin olmaması, tək bir hərfinin belə dəyişməmiş olması, dünyanın dörd bir tərəfindəki oxunan Quran kitablarının hamısının eyni olması, Allahın bu son ilahi kitabı xüsusi olaraq qoruduğunun dəlillərindəndir.

Allah daha əvvəl də müxtəlif dövrlərdə qatından bir elçi göndərərək, bəzən də kitab endirərək insanları xəbərdar etmişdir. İlk insan olan hz. Adəmi də, Allah elçi olaraq yer üzünə göndərmişdir. Bundan sonra da Allah yer üzünə bir çox elçi göndərmiş, kitablar endirmişdir. Bu həqiqət Quranda belə xəbər verilir:

**İnsanlar tək bir ümmət idi. Allah onlara müjdə verən və qorxudan peyğəmbərlər göndərdi, onlarla birlikdə haqq olan kitab nazil etdi ki, insanlar arasında onların ixtilafa düşdükləri şeylərə dair hökm versin... (Bəqərə surəsi, 213)**

Yuxarıdakı ayədə də bildirildiyi kimi, Allah dinini insanlara kitabları və elçiləri vasitəsilə bildirir. Elçilər insanları bir tərəfdən haqq-hesab günü və sonsuz cəhənnəm əzabıyla xəbərdar edib qorxutmalarıyla bərabər, digər tərəfdən də sonsuz cənnət həyatıyla müjdələyirlər. İnsanı yaradan Allah, şübhəsiz ki, onun dünyada necə bir sistemdə, mühitdə rahat olacağını da ən yaxşı biləndir. Buna görə də qullarından istədiyi həyat tərzi və əxlaq modeli əslində onların həm dünyada ən gözəl şəkildə yaşamalarını təmin edər, həm də axirət həyatlarını qazanmalarına vəsilə olar. Bir sözlə, din əxlaqı, istər ictimai, istərsə də fərdi olaraq insanların ən ideal quruluşa nail olmaları üçün Allahın rəhmətinin bir təcəllisi olaraq göndərilmiş bir sistemdir.

Haqq dinlər göndərildikləri dövrlərin mühit və tələblərinə görə fərqli hökmlər ehtiva etmiş olsalar da, əsasən eyni inanc və əxlaqi modeli insanlara təqdim etmişlər. Hamısı, Allahın varlığı, birliyi, sifətləri, insanın və bütün varlıqların yaradılış məqsədləri, Allaha necə qul olmalı olduğu, Allahın bəyəndiyi ideal rəftar, davranış və həyat forması, yaxşı, pis, doğru, səhv anlayışlarının nə olduqlarını, insanın dünyadakı həyatını necə qurması, sonsuz həyatı üçün nə etməli olduğu və bunlar kimi həyati mövzularda eyni əsas həqiqətləri insanlara çatdırmışlar.

Allah qatında haqq olan din təkdir. Hz. Adəmdən etibarən insanlara göndərilən haqq dinlərin hamısının əsası İslam, yəni "Allaha təslim olmaq"dır. Bu həqiqət Quranda belə bildirilir:

**Həqiqətən, Allah yanında qəbul olunan din, İslamdır!... (Ali İmran surəsi, 19)**

Müsəlmanlar və kitab əhli -yəhudilər və xristianlar- fərqli şəriətlərə sahibdir. Ancaq istər yəhudi və xristianlardan, istərsə də müsəlmanlardan səmimi olaraq iman edənlər, eyni təməl dəyərlərə görə yaşayarlar: Allaha qəti olaraq iman etmək; Allaha heç bir şeyi şərik qoşmamaq; Allahın rizası, rəhməti və cənnəti üçün yaşamaq. Bütün cəmiyyətlər Allahın əmrlərini əskiksiz olaraq yerinə yetirməklə və Allah rizası üçün Rəbbimizə könüllü surətdə təslim olub xeyirxah işlərdə yarışmaqla məsuldurlar. Allahın varlığına və birliyinə inanan, qəti olaraq axirətə iman edən və saleh əməllər edən hər üç ilahi dinin mənsubları da, əslində Rəbbimizin hz. İbrahimə endirmiş olduğu haqq dinə tabe olurlar.

**...O, sizi seçdi və atanız İbrahimin dinində olduğu kimi, bu dində də sizin üçün heç bir çətinlik yaratmadı. Peyğəmbər sizə, siz də insanlara şahid olasınız deyə, Allah həm əvvəl nazil etdiyi kitablarda, həm də bu Kitabda sizi müsəlman adlandırdı... (Həcc surəsi, 78)**

Tarix boyu bütün peyğəmbərlər Allah qatında haqq olan tək bir din əxlaqını insanlara təbliğ etmişlər. Hz. İbrahim, hz. Yaqub, hz. Yusif, hz. Musa, hz. İsa, hz. Nuh, hz. Şüeyb və digər peyğəmbərlərin hamısı, insanları bir və tək olan Allaha şərik qoşmaqdan iman etməyə, yalnız Onun rizası üçün yaşamağa və Onun əmrlərini yerinə yetirməyə dəvət etmişlər. Bir ayədə belə bildirilir:

**Allah Nuha tövsiyə etdiyini, sənə vəhy etdiyimizi, İbrahimə, Musaya və İsaya tövsiyə etdiyimizi sizin üçün də dində qanun etdi: "Dinə doğru-düzgün etiqad edin və onda bölünüb firqə-firqə olmayın!" Sənin dəvət etdiyin tövhid müşriklərə ağır gəldi. Allah istədiyi kəsi Özü üçün seçər və Ona üz tutanı Özünə tərəf yönəldər. (Şura surəsi, 13)**

Göründüyü kimi, yəhudilərə və xristianlara -bəzi hökm fərqləri olmaqla birlikdə- endirilən din əslində eynidir. Hər üç dinin mənsubları da, əslində hz. İbrahimin nəvələridir. Yəhudi və xristianlar da eynilə müsəlmanlar kimi, heç şərik qoşmadan hz. İbrahimin hənif (Tövhid; tək Allaha inanıb, yalnız Ona qulluq etmək) olan dininə tabe olmaqla məsuldurlar. Bir Quran ayəsində Rəbbimiz, bütün iman edənlərə hz. İbrahimin dininə tabe olmaqla məsul olduqlarını belə bildirir:

**Onlar dedilər: "Yəhudi və ya xaçpərəst olun ki, doğru yola yönələsiniz!" De: "Əksinə, biz hənif İbrahimin dinindəyik. O, müşriklərdən deyildi". (Bəqərə surəsi, 135)**

Quranda, peyğəmbərlərin hər dövrdə eyni əsas ibadət və inanc sistemini təbliğ etdikləri bildirilmişdir:

- Hz. Zəkəriyya üçün, **"O, mehrabda durub namaz qılarkən..." (Ali İmran surəsi, 39)**

- Hz Şüeyb üçün, **"Onlar dedilər: "Ey Şueyb! Atalarımızın ibadət etdikləri məbudlardan, yaxud mallarımızı istədiyimiz kimi istifadə etməkdən vaz keçməyimizi sənə namazınmı əmr edir?..." (Hud surəsi, 87)**

- İsmayıl peyğəmbər üçün, **"O öz ailəsinə namaz qılmağı, zəkat verməyi əmr edirdi..." (Məryəm surəsi, 55)**,

- İshaq və Yaqub peyğəmbərlər üçünsə **"...Onlara xeyirli işlər görməyi, namaz qılmağı və zəkat verməyi vəhy etdik..." (Ənbiya surəsi, 73)** deyə bəhs edilir.

- Başqa bir ayədə, **"Biz Musaya və onun qardaşına: "Camaatınız üçün Misirdə evlər hazırlayın, evlərinizi namazgah edin və namaz qılın... - deyə vəhy etdik" (Yunis surəsi, 87)** şəklində bir ifadə yer alır.

- İsa peyğəmbər Allahın ona olan əmrlərini sayarkən isə belə deyir: **"...mənə namaz qılıb zəkat verməyi əmr etdi" (Məryəm surəsi, 31)**.

- Yenə Quranda hz. Loğman oğluna, **"Oğlum! Namaz qıl, yaxşı işlər görməyi əmr et, pis işləri qadağan elə..." (Loğman surəsi, 17)** və **"...Oğlum! Allaha şərik qoşma. Həqiqətən, Allaha şərik qoşmaq böyük zülmdür!" (Loğman surəsi, 13)** deyə öyüd-nəsihət verir.

- Hz. Məryəm üçün də, **"ey Məryəm! Rəbbinə itaət et, səcdə et və rükuya gedənlərlə birlikdə rükuya get!" (Ali İmran surəsi, 43)** deyə buyrulur.

Bunlar yalnız müəyyən əsas ibadətlər və inanclar mövzusunda Quranda olan bəzi nümunələrdir və bu nümunələr çoxaldıla bilər. Bunun səbəbi bütün peyğəmbərlərə

əslində eyni haqq dinin vəhy olunmasıdır. Bu haqq dinin əsas və dəyişməz hökmləri bir ayədə belə təkrarlanır:

**Halbuki onlara, dini məhz Allaha məxsus edərək, həniflər kimi ibadət etmək, namaz qılmaq və zəkat vermək əmr olunmuşdu. Doğru din də elə budur! (Beyyinə surəsi, 5)**

# DİNİN GÖNDƏRİLMƏ SƏBƏBLƏRİ

Hər insan yaradıldığı andan etibarən, özünü və ətrafındakı bütün varlıqları yaradan Allahın varlığını, ağlıyla və vicdanıyla qavraya biləcək fitrətdədir.

Kainatı və içindəki hər şeyi ən kiçik təfərrüatlarına qədər sonsuz güc və elm sahibi Allahın yaratdığı açıq bir həqiqətdir. Ətrafımızda gördüyümüz hər şey Allahın varlığının qəti bir dəlilidir. Göydə uçan quşdan okean dibindəki balığa, səhradakı dəvədən qütbdəki pinqvinlərə, gözlə görülməyən bir bakteriyadan bədənimizdəki hüceyrələrə, meyvələrdən bitkilərə, buludlardan planetlərə, qalaktikalara qədər hər şey həssaslıqla yaradılmış və möhtəşəm sistemlərlə təchiz edilmişdir.

Eynilə, dünyada həyatın mövcud olmasına imkan verən bütün sistemlər də mükəmməl tarazlıqlar əsasında qurulmuşdur. Bu tarazlıqlarda ən kiçik bir hərəkət və ya dəyişmə baş versə, həyatın məhv olmasının qarşısı alına bilməz. Bunlar elə həssas tarazlıqdırlar ki, bu tarazlıqları bir az araşdırdıqda hamısında fövqəladə bir hesab və dizayn olduğu dərhal görülər. Məsələn, dünya öz ətrafında bir az daha yavaş fırlansa, gecə ilə gündüz arasında kəskin temperatur fərqləri meydana gələr, bir az daha sürətli fırlansa bu dəfə də qasırğalar və tufanlar üzündən həyat məhv olardı.

Bunun kimi, dünyadakı həyatın mövcudluğuna imkan verən daha bir çox həssas tarazlıq var və bunların təkcə birinin belə təsadüflər nəticəsində, öz-özünə meydana gəlmiş olması ehtimaldan kənardır. Buna görə də, ağıllı bir insanın belə kritik tarazlıqlar və həssas hesablar üzərində qurulmuş bir nizamı görüb və bunu təsadüflərlə əlaqələndirməsi qeyri-mümkündür. Necə ki, insan bir avtomobil və ya hər hansı bir texnoloji avadanlıq görsə bunu hazırlayan, meydana gətirən şüurlu insanların varlığından heç bir şübhə duymursa, bunlardan xeyli üstün, bir-birinə bağlı mürəkkəb sistemlərdən, olduqca həssas tarazlıqlardan əmələ gələn kainatın da öz-özünə yarana bilməyəcəyinə şübhə yoxdur. Kainatdakı hər incəlik, sonsuz qüdrət və elm sahibi Allahın varlığını göstərən aydın bir dəlildir. Quranda yaradılışın bu dəlillərinə tez-tez diqqət çəkilir:

**Göydən suyu endirən Odur. Bu, həm sizin içməyiniz, həm də içində mal-qaranızı otardığınız otların bitməsi üçündür. Allah onunla sizin üçün dənli bitkilər, zeytun, xurma, üzüm və başqa meyvələrin hamısından yetişdirir. Həqiqətən, bunda anlayan adamlar üçün dəlillər vardır. O, gecəni və gündüzü, günəşi və ayı sizə xidmət etməyə yönəltdi. Ulduzlar da Onun əmri ilə ram edilmişdir. Sözsüz ki, bunlarda anlayan insanlar üçün əlamətlər vardır. Yer üzündə sizin üçün yaratdığı müxtəlif rəngli şeyləri**

**də sizə ram etdi. Şübhəsiz ki, bunda düşünüb ibrət alan insanlar üçün dəlillər vardır. (Nəhl surəsi, 10-13)**

**Heç yaradan da yarada bilməyən kimi ola bilərmi? Düşünüb ibrət götürməyəcəksinizmi? (Nəhl surəsi, 17)**

Din haqqında heç bir şey bilməyən bir insanın belə, ayədə diqqət çəkilən mövzular üzərində düşünməsi, Allahın varlığını başa düşə bilməsi, Onun gücünü və elmini təqdir edə bilməsi üçün kifayətdir. Ağıl və vicdan sahibi bir insanın, yalnız öz bədəni haqqında düşünməsi belə çox üstün bir yaradılışın əsəri olduğunu ona göstərər. Bədənimizin içində olduqca mütəşəkkil, bir-birinə bağlı mürəkkəb sistemlər vardır. Bu da bütün kainat kimi insan bədəninin də üstün bir ağıl tərəfindən dizayn olunduğunu göstərir.

Nəticədə insan, bir elçi və ya göndərilmiş kitabdan xəbərdar olmasa belə, düşünərək, ətrafını müşahidə edərək, bunlardakı fövqəladəliyi araşdıraraq Allahın varlığın görə bilər. Ağıl sahibi insanlar üçün hər yerdə Allahın dəlillərinin olduğu ayələrdə belə bildirilir:

**Doğrusu, göylərin və yerin xəlq edilməsində, gecə ilə gündüzün bir-birini əvəz etməsində ağıllı adamlar üçün dəlillər vardır. O kəslər ki, ayaq üstə olanda da, oturanda da, uzananda da Allahı yad edir, göylərin və yerin yaradılması haqqında düşünür və deyirlər: "Ey Rəbbimiz! Sən bunları əbəs yerə xəlq etməmisən. Sən pak və müqəddəssən. Bizi Odun əzabından qoru! (Ali İmran surəsi, 190-191)**

Məhz bu məqamda din əxlaqına niyə ehtiyac olduğu daha yaxşı aydın olar. Çünki Allahın varlığını dərk edən insan, Onu daha çox tanımaq və özündən nələr istədiyini öyrənmək istəyəcək, Rəbbimizin sevgisini və rizasını qazanmaq üçün nələr etməsinin, necə davranması lazım olduğu haqqında maraqlanacaq.

### Quranda, ən əsas mövzular izah edilmişdir

Allah Özünü qullarına tanıtmaq, istəklərini onlara bəyan etmək, Özünün bəyəndiyi rəftar, davranış, əxlaq və həyat formasının necə olduğunu, yaxşı, pis, doğru, səhv, gözəl və çirkin anlayışlarının həqiqi mənada nə olduqlarını, ölümdən sonra özlərini nələrin gözlədiyini bildirmək, Öz istəklərini yerinə yetirib rizasını qazananları necə bir

mükafatın gözlədiyi ilə müjdələmək, Özünə üsyan edənlərin necə bir aqibətlə qarşılaşacaqlarını xəbər vermək üçün hər dövrdə elçilərini və kitablarını haqq dinlə göndərmişdir.

Beləliklə də, haqq dinlər vasitəsiylə insanların ehtiyac duyacaqları hər cür mövzunu Allah ən hikmətli şəkildə insanlara izah etmişdir. Onların dünyada və axirətdə ən gözəl həyatı yaşaya bilmək, ən xoşbəxt və ən dinc sistemə qovuşa bilmələri üçün lazım olan hər cür məlumatı vermişdir. Kitab və elçi vasitəsiylə göndərilən haqq dinin bu əsas məqsədi Quranın bir çox ayəsində də göstərilir. Bunlardan bəziləri belədir:

**...Biz Kitabı sənə hər şey üçün bir izah, müsəlmanlara da doğru yol göstəricisi, mərhəmət və müjdə olaraq nazil etdik. (Nəhl surəsi, 89)**

**Biz Quranı haqq olaraq nazil etdik, o da haqq olaraq nazil oldu. Səni də ancaq müjdə verən və xəbərdar edən bir elçi kimi göndərdik. (İsra surəsi, 105)**

**Sonra Biz Musaya – yaxşı iş görən kimsəyə nemətimizi tamamlamaq məqsədilə, hər şeyi müfəssəl izah edən, doğru yol göstəricisi və mərhəmət olaraq Kitab verdik ki, bəlkə onlar öz Rəbbi ilə qarşılaşacaqlarına iman gətirələr. (Ənam surəsi, 154)**

### Din ilə həyatın həqiqi məqsədi izah edilmişdir

Tarix boyu milyardlarla insan doğulmuş, yaşamış və ölmüşdür. Bu insanların arasından ancaq çox az bir hissəsi həyatın həqiqi məqsədini başa düşməyə çalışmışdır. Böyük bir hissəsi isə özlərini zamanın axışına buraxmış və müəyyən ehtiyaclarını ödəmək, nəfslərinin müxtəlif istək və ehtiraslarını təmin etməkdən başqa bir məqsəd güdmədən ömürlərini sona çatdırmışlar. Bu şüursuz və məsuliyyətsiz təbəqə hər dövrdə insan cəmiyyətlərinin böyük bir topluluğunu meydana gətirmişdir. Hər gələn yeni nəsil də bəzi istisnalar olmaqla çoxluğun getdiyi bu yola tabe olmuş, çoxluğun doğrularını, məqsədlərini və dəyərlərini mənimsəmiş, bunları özlərindən sonrakılara miras buraxmışdır. Bu ənənə bu gün də eynilə davam edir.

Bu çoxluğun hər dövrdə "dəyişməz" fəlsəfə və prinsipləri olmuşdur: Doğularlar, böyüyərlər, yaşlanarlar və ölərlər. Dünyaya bir dəfə gəlmək olar, ölüm isə hər şeyin sonudur. Hər kəsin müəyyən bir ömür müddəti var və bunu əlindən gəldiyi qədər

nəfsini ən çox təmin edə biləcək, həyatdan öz aləmində ən böyük zövqü ala biləcək şəkildə dəyərləndirməlidir.

Məhz insanlar, əllərinə bir daha keçməyəcəyini düşündükləri bu fürsəti atalarından miras aldıqları həyat tərzi və davranış formalarını eynilə tətbiq edərək dəyərləndirərlər. Özlərinə verilən ömür müddətini dünyadakı zövqlərin arxasınca gedərək, ölümü tamamilə unudaraq, dünyaya istiqamətli planlar quraraq və heç bir qayda-qanuna tabe olmadan keçirərlər. Dünyanın harasında və hansı dövrdə yaşayırlarsa yaşasınlar, hansı mədəniyyətə, hansı irqə mənsub olurlarsa olsunlar bu vəziyyət dəyişməz. Olduqları cəmiyyətdə nüfuzlu bir mövqeyə gəlmək, yaxşı bir təhsil almaq, zəngin olub rifah içində bir həyat sürmək, xoşbəxt bir ailə qurmaq, müxtəlif məqam və vəzifələrə çatmaq və bunlar kimi saysız-hesabsız irili-xırdalı məqsədlərə çata bilmək üçün çalışırlar.

Bu məqsədlər daha yüzlərlə maddə halında qeyd oluna bilər. Lakin həqiqət budur ki, bütün bu insanlar dünyaya gəlmələrinin tək və ən əhəmiyyətli məqsədini unudarlar. Və bu məqsəd üçün özlərinə verilmiş və bir daha qaytarılma imkanı olmayacaq yeganə ömür müddətini boşa keçirərlər. Bu məqsəd, Allaha qul olmaqdır. Quranda bu məqsəd belə bildirilir:

**Mən cinləri və insanları ancaq Mənə ibadət etmək üçün yaratdım. (Zəriyət surəsi, 56)**

Allaha necə ibadət etməyimizin lazım olduğunu bizə yenə haqq dinlə öyrədirlər. Allaha qul olmaq, Onun varlığını və birliyini qəbul etmək, Rəbbimizi lazım olduğu kimi tanıyıb təqdir etmək, Allahdan başqa ilah qəbul etməmək və bütün həyatını Onun istədiyi şəkildə keçirmək deməkdir. Quranda bizə Allahın insanlar üçün bəyəndiyi əxlaq və həyat tərzi də təfərrüatlı olaraq təsvir edilir. İnsanlar bu modeli tətbiq etməyə dəvət edilərlər.

Artıq bu məqsədə uyğun, Allahın razı olduğu şəkildə ömür sürən insan, dünyadakı həyatı üçün də, ölümündən sonrakı həyatı üçün də müjdələnmişdir. Lakin bu məqsəddən azan, boş məqsədlər arxasınca düşən və Allahın istədiyi şəkildə davranıb yaşamayan, Ona layiqincə qul olmayan kimsəni də pis bir aqibət gözləyir. Bütün bunlar bizə yenə Quranla xəbər verilir.

Sonsuz həyatını təyin edəcək meyar adamın dünya həyatını necə keçirdiyidir. Öldükdən sonra bir daha səhvlərini düzəltmə imkanı yoxdur. Bu baxımdan sanki dünyaya təsadüfən gəlmiş, özbaşına buraxılmış və etdiklərindən ötrü haqq-hesaba

çəkilməyəcəkmiş kimi bir məntiqlə hərəkət etmək, adamın öz gələcəyi üçün çox böyük bir itki olacaq. Yaradılış məqsədini unudaraq məsuliyyətsizcə bir həyat yaşayan və bunun nəticəsindən də narahatlıq hissi keçirməyən bu cür kəslər isə axirətdə belə qarşılanarlar:

**Yoxsa elə hesab edirdiniz ki, sizi əbəs yerə yaratmışıq və siz heç vaxt Bizə qaytarılmayacaqsınız?" (Muminun surəsi, 115)**

Yaradılış məqsədlərini unudan bu kəslər əslində bu məqsəddən xəbərsiz deyildirlər. Allah kitabları və elçiləri vasitəsiylə onları bu həqiqətlə xəbərdar etmiş və onlara getmələri olduğu doğru yolu göstərmişdir. Onlara bir ömür boyu da öyüd-nəsihət almaları üçün müddət vermişdir. Artıq özlərinə verilmiş bu qədər fürsəti görməzlikdən gəlib, yalnız nəfslərinin istək və ehtiraslarını təmin etməyi qarşılarına məqsəd qoyaraq, həqiqi məqsədlərindən azanların isə əbədi sürəcək peşmançılıqları özlərinə fayda verməyəcək:

**Onlar orada fəryad qoparıb yalvaracaqlar: "Ey Rəbbimiz! Bizi buradan çıxart ki, əvvəllər etdiyimiz əməlləri deyil, yaxşı əməllər edək". Onlara deyiləcək: "Məgər orada sizə düşünəcək kimsənin düşünə biləcəyi qədər uzun ömür vermədikmi? Sizə qorxudub xəbərdar edən də gəlmişdi. Elə isə dadın əzabı! Zalımlara kömək edən olmaz". (Fatir surəsi, 37)**

## Allah Quranla insanlara özünə necə qulluq edilməli olduğunu bildirmişdir

Madam ki, insanlar Allaha ibadət etmələri üçün yaradılmışlar, elə isə necə ibadət edəcəklərini də öyrənməlidirlər. Məhz Allah insanlara necə ibadət etmələrinin lazım olduğunu da Quran vasitəsiylə bildirmişdir. Ayədə belə buyurulur:

**Biz hər ümmət üçün onun yerinə yetirə biləcəyi bir şəriət müəyyən etdik. Qoy onlar bu işdə səninlə höcətləşməsinlər. Sən onları Rəbbinə ibadət etməyə dəvət et. Həqiqətən, sən ən doğru bir yoldasan. (Həcc surəsi, 67)**

Quranda möminlərə Allaha necə dua etmələri, Onu necə zikr etmələrinin lazım olduğu, namazı, zəkatı və Allahın özlərindən istədiyi hər cür ibadət formasını necə yerinə yetirəcəkləri təfərrüatlı olaraq izah edilir. Bunlarla yanaşı, yenə Allaha qul olmağın tələb etdiyi gözəl əxlaq quruluşunun necə olmasının lazım olduğu, möminin nə cür xüsusiyyətləri qazanması, nə cür xüsusiyyətlərdən çəkinməli olduğu da Quranda təfərrüatlı olaraq təsvir edilir. Təvazökarlıq, fədakarlıq, doğruluq, ədalət, mərhəmət, tolerantlıq, qətiyyətlilik və bunlar kimi bir çox üstün əxlaq xüsusiyyəti Allaha qulluq etməyin əsas xüsusiyyəti olaraq Quranda göstərilir. Pis əxlaq xüsusiyyətləri, pis rəftar, pis davranış və danışıq formaları yenə Quranda tanıdılmış, möminlər bu cür mənfi şeylərdən çəkindirilmişdirlər.

Allah bütün kainatı və insanları yoxdan var etmişdir. Bu varlıqlar arasında insana saysız-hesabsız nemətlər vermiş, ən əhəmiyyətlisi də onu digər canlılardan fərqləndirən və üstün tutan bir ruhla yaratmışdır. İnsan bunun sayəsində şüurlu bir varlıqdır. İnsana verilən nemətlər o qədər çoxdur ki, Allah bunların saymaqla belə qurtarmayacağını bildirir. (Nəhl surəsi, 18) Bu vəziyyətdə insan özünə bu qədər nemətin nə məqsədlə verildiyini, bunların qarşılığında özündən nə istəndiyini düşünməlidir.

İnsan özünü yoxdan var edənin və sahib olduğu bütün nemətləri ona verənin Allah olduğunu öz-özlüyündə düşünərək tapa biləcək imkana sahibdir. Bunun nəticəsində də bu nemətlərə qarşılıq özünün də Allaha şükür etməli olduğunu asanlıqla dərk edə bilər. Ancaq Allaha olan şükrünü necə ifadə etməli olduğunu bilməyə bilər. Məhz bir insanın Allaha necə şükür edəcəyi, Ona necə qulluq edəcəyi Quranla bildirilmişdir. İnsan Quran əxlaqı sayəsində Yaradıcımızın qarşısında necə bir davranış göstərməli olduğunu çox təfərrüatlı olaraq öyrənər.

Allahın qulundan ən birinci istədiyi onun bütün həyatı boyu Özünü razı salmağı qarşısına məqsəd qoyması və həmişə bunu dərk etməsidir. Bunun üçün də, adam hər hadisə qarşısında nəfsinin istəklərini deyil, Allahın rizasını üstün tutmalıdır. Əks təqdirdə, Allahı deyil nəfsini ilahlaşdırmış olar ki, ayədə bu vəziyyət belə ifadə edilir:

**Nəfsinin istəyini ilahiləşdirən kimsəni gördünmü? Sən ona vəkillikmi edəcəksən? (Furqan surəsi, 43)**

Buna görə də mömin həyatı boyu qarşısına çıxan hər hadisədə, hər düşüncədə, hər rəftarda, hər hərəkətdə bu alternativləri qiymətləndirir və ayədəki kimi nəfsinin istəyinə deyil, Allahın rizasına tabe olar.

Nəticədə bu dünyada Allaha lazım olduğu kimi qulluq etmiş olan bir mömin Allahın rizasını qazanmış və Allahın rəhmətiylə cənnətinə layiq gördüyü seçilmiş bir adam halına gəlmiş olaraq sonsuz xoşbəxtlik və mükafata qovuşmağı ümid edə bilər. Bu nəticədən də aydın olacağı kimi adamın Allaha qulluq etməsinin yalnız özünə faydası vardır. Allahın heç kimin ibadətlərinə, yaxşılıqlarına, gözəl əxlaqlı olmasına ehtiyacı yoxdur. Ayənin ifadəsiylə **"...Allahın aləmlərə qətiyyən ehtiyacı yoxdur". (Ənkəbut surəsi, 6)**

## Quranla yaxşı və pisin, doğru və səhvin nə olduğu bildirilir

İnsanlar yaşadıqları hadisələri Qurana görə qiymətləndirmədikləri təqdirdə, çox fərqli meyarlara sahib olarlar. Hadisələri qiymətləndirmədikləri bu fərqli meyarlar isə insanları olduqca səhv və zərərli nəticələrə gətirib çıxarar. Məsələn, ilk dəfə cinayət törətmiş biri digərlərinə görə günahsızdır. Bir oğruya görə bir qatil pisdir, amma özü yaxşıdır, bir qatildən soruşduqda isə o bunu həyatında bir dəfə etmişdir, buna görə də o qədər pis niyyətli deyil. Ona görə bunu peşə halına gətirənlər pisdir, professional bir qatildən soruşsanız o da öz gördüyü işi bəlkə də başqa bir pis işlə müqayisə edəcək və günahsız görəcək. Bu meyar xalq arasında da eynilə belədir. Dedi-qodu edən biri bəlkə də yalnız tək mənfi cəhətinin bu olduğunu, amma onu da pis məqsədlə etmədiyini, kinli biri yalnız haqlı olduğu məqamlarda kin saxladığını, əslində yaxşı ürəkli olduğunu iddia edəcək. Bu cür daha bir çox nümunəyə rast gəlmək mümkündür. Nəticədə bu insanlar özlərindəki pis əxlaq xüsusiyyətlərini qəbul etmədikləri kimi, özlərini olduqca yaxşı və günahsız görərlər. Halbuki, bu sayılan bəhanələrin hamısı boş şeydir və bəhsi keçən insanların hamısı əhəmiyyətli bir yanılma içindədirlər. Çünki bir insanın haqlı olduğunu göstərən şey, yalnız Allahın endirdiyi kitaba uyğun davranmasıdır. Bunun əksinə, yəni Quran əxlaqına zidd bir rəftar göstərdikdə isə, bu insan nə bəhanə ortaya atarsa atsın günahkardır, xətalıdır.

Məlum olduğu kimi insanın içində vicdan və nəfs deyilən iki şey vardır. Vicdan, insana həmişə yaxşı və doğru olanı ilham edər, nəfs isə pis və Allahın razı olmadığı

rəftarları təlqin edər. Vicdanı tam istifadə edə bilmək də ancaq güclü bir iman və Allah qorxusu ilə mümkündür.

Məhz din əxlaqı, insanın doğrunu səhvdən fərqləndirə bilməsinə imkan verəcək şüur və vicdanı qazanmasını təmin edər. İnsan ancaq Allahın dinində bildirdiklərinə iman etdiyi və lazım olduğu kimi tabe olduğu təqdirdə sağlam bir düşünmə, mühakimə yürütmə və ağlını işlətmə qabiliyyətlərindən tam mənasıyla istifadə edə bilər. Məsələn, Quranda təsvir edildiyi kimi Allah qorxusuna sahib olan bir möminə doğrunu səhvdən ayırd etmə qabiliyyəti verilir:

**Ey iman gətirənlər! Əgər Allahdan qorxsanız, O sizə haqla nahaqqı ayırd etmə bacarığı verər, günahlarınızdan keçər və sizi bağışlayar. Allah böyük lütf sahibidir. (Ənfal surəsi, 29)**

Bütün insanların həqiqi yaxşı və həqiqi pis əməli öyrənə biləcəyi yeganə mənbə Qurandır:

**Aləmləri xəbərdar etməsindən ötrü Öz quluna Furqanı (Quranı) nazil edən Allah necə də xeyirxahdır! (Furqan surəsi, 1)**

Quranda yaxşı və pis əməllərin nə olduğu və vicdanımızdan necə istifadə etməli olduğumuz ayrı ayrılıqda təsvir edilir. Məsələn, bir ayədə həqiqi yaxşı əməl anlayışının çox geniş bir tərifi verilir:

**Yaxşı əməl üzünüzü məşriqə və məğribə tərəf çevirməyiniz deyildir. Lakin yaxşı əməl sahibləri Allaha, Axirət gününə, mələklərə, kitablara, peyğəmbərlərə iman gətirən, sevdiyi malı qohum-əqrəbaya, yetimlərə, kasıblara, müsafirlərə, dilənənlərə və kölələrin azad edilməsinə sərf edən, namaz qılıb zəkat verən, əhd bağladıqda əhdlərini yerinə yetirən, sıxıntı və xəstəlik üz verdikdə, habelə döyüşdə səbir edən şəxslərdir. Onlar imanlarında doğru olanlardır. Müttəqi olanlar da elə məhz onlardır. (Bəqərə surəsi, 177)**

İnsanların atalarından, ailələrindən, ətraflarından eşitdikləri, gətirdikləri hər cür inanc Qurana uyğun olmadığı müddətcə səhvdir. Məsələn, xalq arasında bəzi ifadələr vardır ki, bunlarla o insanın nə qədər yaxşı olduğu ifadə edilir. “Qarışqanı belə əzməz”

cümləsi bunlardan biridir. Halbuki, bir insan qarışqa əzməyəcək qədər həssas olub Qurana tabe olmursa, o həqiqətdə yaxşı bir insan deyil. Əhəmiyyətli olan Quranda yaxşı əməl olaraq təsvir edilən davranışları etmək, yenə Quranda təsvir edilən pis əməllərdən çəkinməkdir. Xalq arasında dilənçiyə pul vermək, uşaqlara kömək etmək, xəstə bir insan gördükdə canı yanmaq dindar olmaq üçün kifayət edər. Halbuki, Quranda bizə bunların tək başına həqiqi bir mömin olmaq üçün kifayət etmədiyi təsvir edilir. Həqiqi mömin Qurana əskiksiz olaraq tabe olan, bütün həyatını Allahın razı olacağı şəkildə keçirən adamdır.

## Quranla bizə bu dünyanın həqiqi mahiyyəti öyrədilir

Quran əxlaqıyla bizə məqsədimizin yalnız Allaha qulluq etmək olduğu bildirilməklə yanaşı, bu məqsəd üçün imtahan olunacağımız da xəbər verilir. Dünyanın bu "imtahan" üçün xüsusi olaraq hazırlanmış bir sınaq mühiti olduğu bütün incəlikləriylə təsvir edilir. Buna görə də bu imtahanın tələbi olaraq, dünyada imtahan məqsədiylə yaradılmış şeylərə bağlanıb azmamaq mövzusunda insanlar xəbərdar edilir və dünya həyatı **"aldadıcı ləzzətdən başqa bir şey deyildir" (Ali İmran surəsi, 185)** deyə bildirilir. Quranda dünya həyatının həqiqi mahiyyətini izah edən bir çox ayə vardır. Bunlardan bəziləri belədir:

**Həqiqətən, var-dövlətiniz və övladlarınız ancaq bir sınaqdır. Böyük mükafat isə Allah yanındadır. (Təğabun surəsi, 15)**

**Qadınların, uşaqların, yığın-yığın qızıl-gümüşün, yaxşı cins atların, mal-qaranın və əkin yerlərinin verdiyi zövqlərə olan istək insanların gözünə gözəl göstərilmişdir. Bunlar, dünya həyatının keçici zövqüdür, gözəl qayıdış yeri isə Allah yanındadır. (Ali İmran surəsi, 14)**

**Sizə verilən hər şey ancaq dünya həyatının keçici zövqü və onun bərbəzəyidir. Allah yanında olanlar isə daha xeyirli və daha sürəklidir. Məgər başa düşmürsünüz? (Qəsas surəsi, 60)**

İnsanlara dünyada fərqli dərəcələrdə verilən hər cür vəzifə, məqam, sosial statuslar, maddi imkan, zənginlik, kasıblıq kimi mövqelərin də yalnız insanları imtahan vasitəsi olaraq verildiyi Quranda izah olunur. Bu mövzudakı ayələrdən biri belədir:

**Verdiyi nemətlərlə sınamaq üçün sizi yer üzünün xələfləri təyin edən, birinizi digərinizin fövqünə dərəcə-dərəcə qaldıran Odur. Həqiqətən, sənin Rəbbin tezliklə cəza verəndir. Həqiqətən, O, Bağışlayandır, Rəhmlidir. (Ənam surəsi, 165)**

Ölümün və həyatın yaradılış hikmətinin insanların imtahan olunması olduğu, yenə bizə Quranda belə bildirilir:

**Əməl baxımından hansınızın daha yaxşı olduğunuzu sınamaq üçün ölümü və həyatı yaradan Odur. O, Qüdrətlidir, Bağışlayandır. (Mülk surəsi, 2)**

Bu dünyada insanın başına gələn hər cür yaxşılıq və pislik onun imtahan edilməsi üçündür. (Ənbiya surəsi, 35). İnsana verilən ya da özündən alınan nemətlərin də hamısı bu imtahanın bir hissəsidir:

> **İnsana gəlincə, Rəbbi onu sınayıb ehtiram göstərəndə və ona nemət verəndə: "Rəbbim mənə ehtiram göstərdi!" - deyər. Amma onu sınamaq üçün ruzisini azaldanda: "Rəbbim məni alçaltdı!" - deyər. (Fəcr surəsi, 15-16)**

Göründüyü kimi yuxarıdakı ayədə başına gələn hadisələrdə gizlənən hikmətləri qavraya bilməyən, imtahan olunduğunu dərk etməyən, dünyanın həqiqi mahiyyətindən xəbərsiz, şüursuz bir kimsənin dünyagörüşü xəbər verilir.

Möminlər isə şüursuz kəslərlə eyni mövqeyə düşməmələri mövzusunda Quranın bir çox yerində xəbərdar edilər və həmişə həqiqi məqsədləri özlərinə xatırladılar:

**Kafirlərdən bəzisini sınamaq üçün onlara dünya həyatının bərbəzəyi kimi verdiyimiz şeylərə gözünü dikmə. Rəbbinin ruzisi daha xeyirli və daha davamlıdır. (Taha surəsi, 131)**

Lakin din əxlaqıyla bildirilən bu həqiqətlərdən xəbəri olmayan, ya da bu həqiqətləri qavraya bilməyən cahil təbəqə özünə imtahan üçün verilən nemətlər

qarşısında qürrələnər və ehtirasa qapılarlar. Bu nemətlərdən əllərindən gəldiyi qədər faydalanmağa və həyatları boyu bunların arxasınca getməyə çalışırlar. Başlarına gələn bəla və çətinliklər qarşısında isə ümidsizliyə qapılıb, ziyana düşməklə fəryad edərlər. Allah inkar edənlərin bu vəziyyətini Quranda belə təsvir edir:

**Əgər insana Özümüzdən bir mərhəmət daddırsaq, sonra da ondan onu geri alsaq, o, naümid və nankor olar. Əgər başına gələn müsibətdən sonra, ona firavanlıq daddırsaq: "Bəlalar məndən sovuşdu!" – deyər və sevinib lovğalıq edər. (Hud surəsi, 9-10)**

Hər şeyi və hər hadisəni Allahın özlərinə izah etdiyi, təsvir etdiyi şəkildə qiymətləndirən möminlər isə hər vəziyyətdə Allaha üz tutarlar və həmişə axirət yurdunu xatırlayar, həqiqi yurdlarına qovuşmağın həsrətini çəkər və bunun üçün səy göstərərlər. Buna görə də nə nemət qarşısında qürrələnib azar, nə Allahın hüdudlarını aşar, nə də bir çətinlik ya da məhrumiyyət vəziyyətində kədərlənib, ümidsizliyə qapılarlar. Özlərinə verilən hər nemətin və ya hər çətinliyin, Allahın bəyəndiyi rəftarları göstərib-göstərməmələri mövzusunda imtahan olduğunu bilirlər və Quranda özlərinə öyrədildiyi kimi davranırlar. Başlarına gələn hər bir hadisəni Quranın bu ayəsini dərk etməklə qiymətləndirərlər:

**Hər kəs ölümü dadacaqdır. Biz sizi sınamaq üçün şər və xeyirlə imtahana çəkirik. Siz ancaq Bizə qaytarılacaqsınız! (Ənbiya surəsi, 35)**

Məhz bu məqamda Quranın insanlara göndərilmiş nə qədər böyük bir rəhmət olduğu aydın olur. Çünki insanlar bəhs edilən həqiqətləri, Allah Qatından gələn Quran vasitəsiylə ən doğru şəkildə öyrənmiş olarlar.

## Əsl həyatın axirət yurdu olduğunu Qurandan öyrənərik

İnsanların hisslərindən uzaq mövzular haqqında öz başlarına məlumat sahibi olmaq imkanları yoxdur. "Gələcək" də bunlardan biridir. Heç kim sabah nə edəcəyini, harada olacağını, başına nələr gələcəyini heç vaxt qəti olaraq bilməyəcəyi kimi, gecə

yatdığı vaxt səhər oyana biləcəyindən, hətta bir dəqiqə sonra həyatda olub-olmayacağından əmin ola bilməz. Məhz insanlar bu məhdud məlumatlardan ötrü hər dövrdə gələcəklə maraqlanmışlar. Bu marağın ən böyük hissəsi, ölümdən sonrakı həyatda özlərini nələrin gözlədiyi olmuşdur.

Əlbəttə ki, bu sualların hamısının ən doğru cavabını, dünyanı, insanları, ölümü, qiyamət gününü, cənnəti, cəhənnəmi, keçmişi və gələcəyi, sonsuz axirət həyatını yaradan Allah Quranda bildirir. Allah, kainatı və içindəki bütün varlıqları yoxdan var etmiş və hər an da mövcudluğunu qoruyur. Kainatın meyarlarından biri olan zamanı da yaratmış və yaratdıqlarını ondan asılı etmişdir. Allah, yaratmış olduğu zamandan münəzzəhdir; zaman və məkan anlayışlarından uzaqdır. Allah hər şeyi zamansızlıq ölçüsündə diləmiş və müəyyən bir tale ilə yaratmışdır. Bizim üçün keçmiş ya da gələcək olan hər şeyi Allah tək bir an olaraq bilir və yaradır. Gələcək də daxil olmaqla insanın hissləriylə qəbul edə bilmədiyi hər şey Quranda "qeyb" (gizli, örtülü) olaraq adlanar. (Tale mövzusunda geniş məlumat toplamaq üçün yazıçının *"Zamansızlık ve Kader Gerçeği"* adlı kitabına müraciət edə bilərsiniz.)

Məhz axirət də insanlar üçün bu dünyada olduqları müddətcə bir qeybdir. Quranla insanlara axirətin varlığı bildirildiyi kimi, axirət haqqında da ətraflı məlumatlar verilir. Ölümdən sonra nələr olduğu mövzusunda hər dövrdə filosoflar, mütəfəkkirlər bir çox fərziyyələr irəli sürmüşlər. Həmçinin hər cəmiyyətin mədəniyyətində bu mövzuda çox sayda əfsanələr, xurafatlar mövcuddur. Amma bu mövzuda ən doğru və qəti məlumat insanlara yenə haqq dinlər vasitəsiylə bildirilmişdir.

Bu dünyanın keçici bir imtahan yeri olduğu, həqiqi həyatın isə əbədi olaraq axirətdə yaşanacağı insanlara haqq dinlərlə xəbər verilmişdir. İnsanların bu dünyada etdikləri əməllərin əvəzini axirətdə alacaqları, edilən heç bir yaxşı və ya pis əməlin əvəzsiz qalmayacağını Quranla öyrənirik. Bu dünyada haqq dinin tələb etdiyi kimi yaşayan, Allahın istədiyi, bəyəndiyi kimi davrananların axirətdə mükafatlandırılacaqlarını, din əxlaqının tələblərini yerinə yetirməyənlərin isə sonsuz bir cəhənnəm əzabına məruz qalacaqlarını da Quranla öyrənərik.

Quranla bizə ölüm anından, qiyamət saatına, hesab günündən cənnət və cəhənnəm həyatının ən incə təfərrüatlarına qədər axirət mövzusunda lazımlı hər cür məlumat verilir. Ən son ilahi kitab olan Quranda bizə axirət həyatı müxtəlif formalarda təsvir edilir və həqiqi yurdun axirət yurdu olduğu belə xatırladılır:

Dünya həyatı oyun və əyləncədən başqa bir şey deyildir. Müttəqilər üçün isə axirət yurdu daha xeyirlidir. Məgər anlamırsınız? (Ənam surəsi, 32)

# QURAN ƏXLAQININ CƏMİYYƏT HƏYATINA TƏSİRİ

Cəmiyyətlərdə Quran əxlaqının yaşanmamasından ötrü bir çox mənfi hallar müşahidə olunar. Məsələn, dindən uzaq bir cəmiyyətdə insanların əksəriyyətinin eqoist, ədalətsiz və pis əxlaqlı olmaları qaçınılmazdır. Çünki insanların həqiqi mənada gözəl əxlaqlı olmalarının arxasındakı tək səbəb din əxlaqının yaşanmasıdır. Allaha iman edən, axirətə yəqinliklə inanan insanlar, Allahı razı salmağı istədikləri və etdiklərinin hesabını verəcəklərini dərk etdikləri üçün Allah qorxusu əsasında hərəkət edirlər. Allahın qadağan etdiyi pis hal, rəftar və davranışlardan, mənfi əxlaq xüsusiyyətlərindən çəkinirlər. Bu insanların yaşadığı bir cəmiyyətdə isə hər cür ictimai problem aradan qaldırılır.

Lakin din əxlaqından uzaq bir insan, etdiyi pis əməllərin əvəzini nə vaxtsa alacağına, etdiklərinin hesabını verəcəyinə inanmadığı üçün hərəkətlərində sərhəd gözləməz. Etdiyi şeylərdən ötrü heç kimə hesab verməyəcəyini düşünən bir insan üçün pis əməldən çəkiniləcək heç bir hədd yoxdur. Prinsip etibarilə bəzi pis hərəkətləri etməsə belə əlverişli mühit tapdıqda, məcbur qaldıqda, ətrafındakı kəslər tərəfindən sövq edildikdə, ya da bir fürsət tapdıqda bunları etməkdən çəkinməz.

Belə bir həyatı seçən adam üçün dinsizliyin maddi-mənəvi qarşılığı elə dünyada olarkən başlayır. Bunun səbəbi əslində hər insanın vicdanla din əxlaqını yaşamalı olduğunu bilməsidir. Daha əvvəl də ifadə edildiyi kimi hər insanda vicdan mexanizmi vardır. Ancaq möminlərdə çox inkişaf etmiş olan bu xüsusiyyət, din əxlaqını yaşamayanlarda korlaşmışdır. Yəni, din əxlaqından uzaq insanlar vicdanlarına tabe olmayaraq özlərini mənəvi bir çətinliyə salarlar. Nəticə etibarilə, hər kəs əslində bir yaradıcısı olduğunu, Ona qarşı məsul olduğunu və gözəl əxlaqlı olmalı olduğunu bilir. Amma bunları yerinə yetirmək dünyəvi mənfəətləriylə zidd düşdüyü üçün tətbiq etmir.

Buna görə də ya din əxlaqının tələblərini tamamilə rədd edərək belə bir məsuliyyətdən çəkinər ya da həmişə özünün "yaxşı ürəkli, təmiz və dürüst bir insan" olduğu kimi müdafiələrlə dini Quranda təsvir edildiyi kimi yaşamamaq üçün bəhanələr tapar. Ancaq hər iki halda da insanlar şüuraltında Allahın istədiyi şəkildə yaşamalı olduqlarını bilirlər. Vicdanlarının bu səsinə görə hərəkət etmədikləri üçün də hələ dünyada olarkən bunun mənəvi əzabını çəkməyə başlayarlar. Məhz din əxlaqından uzaq cəmiyyətlərdə yaşanan depressiyaların, psixoloji problemlərin, ruhi sarsıntıların əsas mənbəyi "vicdan əzabı" adı verilən bu mənəvi sıxıntıdır. Hələ axirətə getmədən

əvvəl etdiklərinin əzabını bu dünyada çəkməyə başlayanların vəziyyəti ayədə belə təsvir edilir:

**Onlar: "Əgər doğru deyirsinizsə, bu vəd nə vaxt olacaq?" – deyirlər.**

**De: "Ola bilsin ki, tələsik istədiyiniz şeyin bir qismi, artıq sizə yaxınlaşmışdır". (Nəml surəsi, 71-72)**

Axirətdəki sonsuz və dözülməz mənəvi əzabın kiçik bir parçası olan dünyadakı vicdan əzabı bir qədər əvvəl ifadə etdiyimiz kimi adamın yaradılışına və yaradılış məqsədinə zidd bir münasibət, dünyagörüşü və həyatı seçməsiylə başlayar. Adamın bu səhv, din əxlaqından kənar münasibət və zehniyyətini dəyişdirmədiyi müddətcə də bu mənəvi əzabdan xilas olması qeyri-mümkündür. Ancaq müxtəlif üsullarla özünə təsəlli edərək vicdanının səsini eşitməməyə, əzabını sakitləşdirməyə çalışar.

İnsan həm fiziki, həm də ruhən din əxlaqını yaşamağa uyğun olaraq yaradılmışdır. İnsanı da ona ən uyğun həyat modelini də yaradan Allahdır. İnsanlar bundan kənara çıxdıqları vaxt normal olaraq fərdi və ictimai səviyyədə çatışmazlıqlar özünü göstərər. Bu çatışmazlıqlar isə, kitabın əvvəlində bəhs edildiyi kimi tarix boyu bütün insanların içindən çıxmağa çalışdıqları, indiki vaxtda da təsiri demək olar ki, hər cəmiyyətdə müşahidə olunan ictimai və fərdi xəstəliklər və yaralardır. Bunlardan xilas olmağın yeganə yolu isə din əxlaqının yaşanmasıdır. Allah Quran əxlaqıyla bunların hər birinə həqiqi mənada həll gətirmişdir.

### Din əxlaqı insanların günah işləmələrinə mane olar

Din əxlaqını yaşamayan bir kimsə, öz səhv məntiqinə görə, etdiklərindən ötrü hər hansı bir haqq-hesab verməyəcəyinə, cəzalandırılmayacağına və nəticədə də bir ziyana uğramayacağına inanar. Belə bir insanın öz mənfəətləri üçün hər hansı bir sərhəd bilməsi, başqalarının haqqını, yaxşılığını, mənfəətini qorumaq üçün heç bir səbəb yoxdur. Çünki, səhv məntiqinə görə bir dəfə gəldiyi bu dünyada ən rahat şərtlərdə yaşamalı, istədiyi hər şeyi əldə etməli, ağlına gələn hər şeyi edə bilməlidir. Quranda din əxlaqını yaşamayan insanların bu məntiqləri belə izah edilir:

**Onlar dedilər: “Həyat ancaq bizim dünya həyatımızdır. Kimimiz ölür, kimimiz də doğulur. Bizi öldürən ancaq zamandır”. Bu haqda onların heç bir biliyi yoxdur. Onlar ancaq zənnə qapılırlar. (Casiyə surəsi, 24)**

Məhz bu məntiqə sahib olan bir insan, həddini aşaraq hər cür pis əməli və ya əxlaqsızlığı edə bilər, saxtakarlıq edə bilər, yalan danışa bilər, işlədiyi yerdə rahatlıqla hesabına pul keçirə bilər, oğurlaya bilər, fırıldaqçılıq edə bilər, mənfəətlərindən söhbət getdikdə yalançı şahidlik edə bilər, verdiyi sözü poza bilər, əlinə pul, güc və ya imkan keçdikdə digər insanları əzə bilər... Pis işlərdə daha da irəli getmək üçün heç bir maneə görməz.

Bir müddət sonra vicdanı elə korlaşar ki, artıq bu insan tamamilə nəfsinin hakimiyyəti altına düşər. Nəfsi nə desə, nə əmr etsə dərhal yerinə yetirər. Heç bir məhdudlaşdırıcı, maneə törədici güc tanımaz. Mənfəətinə uyğun gəldikdə adam öldürməyə belə cəhd edə bilər. Hər gün qəzetlərdə bu cür saysız-hesabsız xəbərə rast gəlinir. Bilərziklərindən ötrü qonşusunu, qısqanclıqdan ötrü ərini, qəzəbləndiyindən ötrü yoldaşını, ağlı başından çıxdığından ötrü uşaqlarını, puldan ötrü anasını-atasını öldürən insanların xəbərləriylə qəzetlər dolub daşar. Əslində bunlar da yalnız hadisənin görünən tərəfidir, qəzetlərə əks olunmayan daha bir çox bu cür xəbər vardır. Bütün bunlar bu insanlarda vicdanın tamamilə yox olduğunu, hakimiyyətin nəfsin əlinə keçdiyini göstərər. Bu kəslər din əxlaqını və Allah qorxusunu yaşamadıqları üçün bu hala gəlmişlər və mənəvi olaraq insanlıqdan çıxmışlar. Ayədə bu cür insanlar “...**həddini aşan günahkardan başqa...” (Mutaffifin surəsi, 12)** kimi sifətlərlə adlandırılar.

Hər an hər şeyi edə biləcək insanlarla dolu bir mühitdə, küçədə, avtobusda, marketdə, bir əyləncə yerində və ya hər hansı bir yerdə yanınızda olan adi bir adam, əslində potensial bir təhlükə ola bilər, oğru, pozğun, qatil və s. hər şey çıxa bilər. Hətta bu, yaxşı görünüşlü, təhsilli bir adam belə ola bilər. Bunun olduqca həqiqi bir şərh olduğunu, məşhur bir jurnalda çıxan bir reportajdan bir hissəylə müəyyənləşdirmək mümkündür:

- Jurnal: “Cinayətə maraq saldığınıza görə işləmək istərdinizmi?

- Qonaq: “...Cinayət işləmək istədiyim vaxtlar da olmuşdur, yalnız konkret bir adama qarşı deyil. Gündə səkkiz on adamı öldürmək istəyə bilərəm. İnsanların içində belə bir vəhşilik var. Mənim də vəhşiliyə bir yaxınlığım var. Amma konkret bir cinayət mənə çirkin gələ bilər, qanlar töküləcək, adam yıxılacaq, düdüklər çalacaq, polis gələcək... Uzun iş... Amma nəticədə cinayət mənim üçün cazibədar bir işdir. “

- Jurnal: “Bəs, necə bir cinayət işlərdiniz?”

- Qonaq: “Əlbəttə ki, silahı seçərəm. Zəhərdən istifadə etmək işin dəhşətinə çox uyğun gəlmir, çox hiyləgər metoddur.”

Göründüyü kimi, xalq arasında ziyalı olaraq bilinən bir adamın belə, içində belə bir dəhşəti saxlaması və bunu heç çəkinmədən asanlıqla dilə gətirməsi din əxlaqını yaşamayan bir cəmiyyətin ortaq zehniyyəti haqqında gözəl bir fikir meydana gətirir. İfadələrindən, tənbəllik etməsə, hüzuru pozulmasa, başına problem gəlməyəcəyindən əmin olsa belə dəhşətverici bir hərəkəti böyük bir zövqlə işləməkdən çəkinməyəcəyi aydın şəkildə görünən bu adamın nümunəsi, insanlarda Allah inancı və Allah qorxusu olmadığı, Quran əxlaqı yaşanmadığı təqdirdə cəmiyyətin çatacağı qorxunc ölçüləri göstərir. Cahil bir insanın rahatlıqla və gözünü belə qırpmadan işləyə biləcəyi cinayət kimi böyük bir günah haqqında Quranda verilən hökm belədir:

**...kim bir adamı öldürməyən və ya yer üzündə fəsad törətməyən bir şəxsi öldürərsə, sanki bütün insanları öldürmüşdür... (Maidə surəsi, 32)**

Şübhəsiz ki, ayədə verilən nümunə olduqca əhəmiyyətlidir, Allah belə bir günahı bütün insanları öldürməklə bərabər tutmuş, digər ayələrdə də bunun cəzasının cəhənnəm olduğunu bildirmişdir. (Nisa surəsi, 93) Bu vəziyyətdə, Allahdan qorxan bir insanın, nəinki belə bir günaha yaxınlaşması, ağlından belə keçirməsi qeyri-mümkündür. Bunun ən gözəl nümunələrindən birini Quranda Adəm peyğəmbərin oğullarından bəhs edilən hekayədə görmək mümkündür. Hz. Adəmin oğullarından biri qardaşını haqsız yerə, yalnız paxıllıqdan ötrü öldürmək istədikdə digəri belə rəftar göstərmişdir:

**Sən məni öldürmək üçün mənə əl qaldırsan da, mən səni öldürmək üçün sənə əl qaldıran deyiləm. Həqiqətən, mən aləmlərin Rəbbi Allahdan qorxuram. (Maidə surəsi, 28)**

Məhz möminlərlə digər insanlar arasındakı fərq buradadır. İnananlar hər nə olursa olsun haram olan bir şeyə yaxınlaşmadığı halda, digərləri rahatlıqla hər cür günahı işləyə bilir ya da işləməkdə bir problem görmürlər.

Din əxlaqının yaşandığı bir cəmiyyətdə insanlar Allahdan çox qorxduqları üçün oğurluq, yalan, rüşvət, cinayət kimi əxlaqsızlıqların heç biri baş verməz. Din əxlaqını

yaşayan insan, həyatını Allahın hüdudları daxilində vicdanına tabe olaraq davam etdirər, içindəki mənfi səs olan nəfsinin əmr etdiyi bütün pis əməlləri tərk edər.

Amma din əxlaqı yaşanmadıqda adam nəfsinin əmrinə tabe olub, iradəsini bir kənara buraxdığı üçün həmişə öz mənfəətlərinə uyğun hərəkət edər. Beləcə, hər cür pis əxlaqa qapı açılmış olar. Məsələn, oğurluq etmək adamın mənfəətlərinə uyğun gələ bilər, amma din əxlaqı bunu qadağan etmişdir və həmçinin bu qarşı tərəfə zərər verəcək bir hərəkətdir. Qarşı tərəfin illər boyu işləyib qazandığı pul, bütün zəhməti bir gecədə yox olar ki, bu da mal sahibinin canını yandırar. Əslində oğurlayan adam da vicdan əzabı çəkər. Buna görə də Quran əxlaqı bu cür pis əməlləri qadağan edən, haram buyuran insanlara dünyada da çox gözəl, dinc bir mühit hazırlamış olar.

Dinsiz bir adam bu izah edilənlərə qarşı çıxıb, "mən dinsizəm, amma rüşvət almıram" deyə bilər. Həqiqətən, bu insan ömrü boyu heç rüşvət almamış da ola bilər, prinsiplərinə əsasən rüşvət almağı səhv bir hərəkət kimi də görə bilər. Amma elə tələblər meydana gələr ki, almaqda bir problem görməyə bilər. Məsələn, maddi baxımdan çox çətin vəziyyətdə qala bilər, həyat yoldaşı ya da ailəsi rüşvət alması mövzusunda təzyiq göstərə bilər, hər kəsin rüşvət almağı qanuni olaraq gördüyü bir mühitə düşə bilər və ya ona zəif və romantik bir yerindən yaxınlaşa bilərlər. Bunun kimi bir çox müxtəlif vəziyyət ola bilər, adam üçün öz ağlına görə normal səbəblər meydana gələ bilər və o adam nəticədə heç düşünmədən rüşvət ala bilər.

Halbuki, Quran əxlaqında rüşvət mövzusu həm alan, həm də verən baxımından qadağan edilmiş və belə geniş yayılmış ictimai bir problemin hər iki tərəf baxımından da tədbirləri alınmışdır. Beləliklə də din əxlaqını yaşayan bir kimsə, bir çox ayədə haram buyrulan haqsızlıq və ədalətsizliyin bir forması olan rüşvət almağa yanaşmayacağı kimi, rüşvət verməyə, rüşvət almağa təşviq etməyə də aşağıdakı ayənin tələbiylə təşəbbüs belə edə bilməz:

**Mallarınızı öz aranızda haqsızlıqla yeməyin və camaatın malının bir qismini bilə-bilə günah yolu ilə yeyəsiniz deyə hakimləri ələ almağa çalışmayın. (Bəqərə surəsi, 188)**

### Quranda məsuliyyətlərin həmin mövzuda məlumatlı və təcrübəli insanlara verilməsi əmr edilir

Dövrümüzdəki cəmiyyətlərdə qarşılaşılan problemlərin, həlli mümkün olmayan məsələlərin ən əhəmiyyətli səbəbi bu mövzularla əlaqədar insanların bu problemləri həll edə biləcək qabiliyyətə və məlumata sahib olmamalarıdır. Din əxlaqından uzaq

cəmiyyətlərdə, olduqları vəzifələrin, boyunlarına götürdükləri məsuliyyətlərin haqqını verə bilməyən insanlar çoxdur. Çünki bu kəslərin insanlar üçün fayda verəcək işlər görmək, xidmət etmək mövzusunda şövqləri yoxdur, buna görə də, özlərini faydalı olacaq istiqamətdə yetişdirə bilməmişdirlər. Olduqları vəzifələrə gəlmələrinin səbəbi də, o vəzifənin tələb etdiyi məsuliyyətlərə güclərinin çatmaları, həmin işə bələd olmaları deyil. Onların bu vəzifəyə gətirilmələri müxtəlif imtiyaz, yaltaqlıq və qarşılıqlı mənfəət əlaqələrinin bir nəticəsidir.

Məsələn, bir fabrikin başına çox vaxt o fabrik sahibinin oğlu keçər. Burada bəhsi keçən adamın bu iş mövzusunda qabiliyyətli olub-olmadığı, bu mövzuda lazımi təhsili alıb-almadığı elə də bir əhəmiyyət daşımaz. Hətta vəzifəyə gələn adam bəlkə də bu işi görmək istəmir, amma başqa bir işdə istədiyi mənfəətləri əldə etməsi qeyri-mümkün olduğu üçün məcburi surətdə bu işi görür. Bu məcburiyyət və məlumatsızlıqdan ötrü də faydalı işlər görməsi qeyri-mümkün olur. Bundan ötrü, vaxt gəldikdə ən sadə problemlərin belə öhdəsindən gələ bilmir, sadə insanların ağıllarını işlətməklə tapa biləcəkləri tədbirləri vaxtında görə bilmədiyinə, işə başlamasından hələ çox az vaxt keçdiyinə görə həlli mümkün olmayan problemlərlə üz-üzə gəlir.

Halbuki, Quran əxlaqının yaşandığı bir cəmiyyətdə belə bir mənzərəylə qarşılaşmaq qeyri-mümkündür. Çünki vəzifələri, məsuliyyətləri işə bələd olan kəslərə əmanət vermək Allahın Quranda bildirdiyi qəti bir əmridir:

**Həqiqətən, Allah sizə əmanətləri sahiblərinə qaytarmanızı və insanlar arasında hökm verərkən ədalətlə hökm verməniz əmr edir. Allahın sizə verdiyi bu öyüd-nəsihət necə də gözəldir! Şübhəsiz ki, Allah Eşidəndir, Görəndir. (Nisa surəsi, 58)**

Allahdan qorxan və din əxlaqını yaşayan kəslər də Allahın əmrlərini olduqca dəqiqliklə yerinə yetirirlər. Eynilə dindar bir cəmiyyətdə özlərinə müxtəlif vəzifələr, məsuliyyətlər əmanət edilən kəslər də Allahdan qorxan kimsələr olacaqları üçün verilən vəzifələri ən yaxşı şəkildə yerinə yetirməyə səy göstərərlər:

**O kəslər ki, əmanəti danmır və əhdlərini pozmurlar. (Məaric surəsi, 32)**

## Din əxlaqı insanlar arasındakı vəfasızlığı və sədaqətsizliyi aradan qaldırar

Etibarlılıq, vəfa və sədaqət kimi anlayışlar din əxlaqıyla insanlara öyrədilən dəyərlər olub, ancaq dinin yaşandığı bir mühitdə tətbiq oluna bilər. Quran əxlaqının yaşanmadığı bir yerdə isə bu dəyərlərin yaşadılmasına ümid etmək böyük bir səhv olar. Çünki insanların bir-birlərinə hər cür şərait və vəziyyətdə, xəstəlikdə, sağlamlıqda, çətinlik və sıxıntı vaxtlarında vəfalı davrana bilmələri ancaq, Allahın razı olacağını bilmələri və axirətdə əvəzini alacaqlarını ümid etmələriylə mümkün olar. Əks halda, yəni adam əgər etdiklərindən ötrü haqq-hesaba çəkilməyəcəyini və etdiyi pis əməllərdən ötrü də cəzalandırılmayacağını düşünürsə, bu vəziyyətdə ilk növbədə öz mənfəətlərini düşünəcək və eqoist davranacaq.

Cəmiyyət bunun müxtəlif nümunələriylə doludur, maddi vəziyyəti yaxşı olan bir adam müflisləşdikdə, yaxşı vəzifədə olan biri vəzifəsini itirdikdə, yüksək rütbəli bir adam təqaüdçü olduqda, məşhur biri şöhrətini itirdikdə ətrafında heç kim qalmaz. Eynilə bir adam amansız bir xəstəliyə tutulduğu vaxt da çox vaxt ətrafında onunla maraqlanan dostu qalmaz. Yenə tez-tez rast gəlinən bir nümunə də biznes tərəfdaşlarının bir-birlərini dolandırmasıdır. Xüsusilə də bu cür maddi mənfəət əlaqələrində hər cür əxlaqsızlıq asanlıqla edilə bilər. Çünki pul, din əxlaqını yaşamayan insanların ən dəyər verdikləri anlayışdır. Bu qeyd olunanlar gündəlik həyatda insanların eşitməyə vərdiş etdikləri, hətta şəxsən şahid olduqları nümunələrdir.

Dost əlaqələri də vəfasızlığın konkret olaraq müşahidə olunduğu bir sahədir. Başqa birindən daha çox mənfəət əldə edəcəklərini başa düşdükləri vaxt ən yaxın dostlarını belə rahatlıqla tərk edərlər, belə ki, insanların böyük hissəsi bu vəziyyətə məruz qalmış, bunun çətinliyini çəkmişdir. Bu qanun nişanlı, sözlü ya da evlənməyə hazırlaşan insanlar üçün də məqbuldur. Maddi imkanları daha çox, fiziki baxımdan daha gözəl ya da kariyerası daha yaxşı olan biriylə qarşılaşdıqları vaxt dərhal sevdikləri şəxslərə sədaqətsizlik göstərərlər. Evlilik əlaqələrində də vəziyyət belədir. Yoldaşlar bir-birlərini rahatlıqla aldada bilər və ya tərk edə bilərlər. Onların batil düşüncələrinə əsasən onsuzda özlərini heç kim görmür, etdikləri gizli qalacaq, buna görə də çəkinəcəkləri bir vəziyyət yoxdur. Nəticə etibarilə, cahiliyyə cəmiyyətində hər cür insan əlaqəsində qarşılıqlı sədaqətsizlik və buna görə də etibarsızlıq geniş yayılmışdır. İnsanların bir-birlərinə qarşı olan bu etibarsızlıqları hər an narahat bir həyat yaşamalarına səbəb olar.

Cəmiyyətdəki sədaqətsizlik nümunələri yalnız bunlarla məhdudlaşmır. Gənc vaxtlarında hər hansı bir sahədə tanınan kəslər o dövrlərində hər kəsin diqqqət mərkəzində olarkən, onların böyük hissəsi yaşlandıqları vaxt ümumiyyətlə, tək

başlarına qalarlar. Çox vaxt bir çoxları aclıq və səfalət içində, evlərində ya da 3-cü kateqoriyalı yataqxanalarda, böyük bir tənhalıq içində ölümü gözləyərlər. Artıq ətraflarında nə pərəstişkarları, nə jurnalistlər, nə də dostları vardır. Özləriylə maraqlanan kəslər də qalmamışdır. Tam tərs bir həyat yaşayarkən yaşlanmalarıyla birlikdə tərk edilib tənha qalmaları onları da təəccübləndirər və din əxlaqının yaşanmamasının bir nəticəsi olaraq da, əlbəttə ki, canları yanar. Ancaq bu əxlaq Quran əxlaqının yaşanmadığı mühitlərin dəyişməz qanunudur.

Dini inkar edənlər arasında hakim olan inanca əsasən insanlar təsadüflər nəticəsində təkamül keçirərək, meymundan törəyən canlılardır. Ancaq zahiri görünüşləri və zənginliklərindən ötrü dəyər görərlər, bunları itirdikdə isə artıq heç bir dəyəri qalmaz. Əlbəttə ki, bu fəlsəfəyə görə meymundan gəlib, torpağa gedəcək bir varlığa dəyər verilməz. Onsuz da artıq daha gənc, daha gözəl, daha məşhur kəslər onların yerlərini almışdır, bu vəziyyətdə onlara ehtiyac olmadığı aydındır. Cəmiyyətin digər fərdləri də axırda torpağa girib, yox olacaqlarını düşünən insanlardır. Dinə inanmadıqlarına görə bu kəslərin vəfayla, sədaqətlə vaxt itirmələri öz fəlsəfələri baxımından mənasızdır. Oxşar şəkildə qocalar evi və kimsəsizlər evi də uşaqları tərəfindən istənməyən ya da xalq arasındakı ifadəylə “qapıya qoyulan” ana-atalarla dolub daşar. Onlar da min bir zəhmət və fədakarlıqla yetişdirdikləri uşaqları tərəfindən tərk edilərlər. Üstəlik pis rəftar da görərlər.

Göründüyü kimi din əxlaqı yaşanmadıqda insan ən yaxını olan ana və atasına qarşı da belə zalımca rəftar göstərə bilər. Qaldı ki, bu əxlaqsızlıq, vəfasızlıq hər növ insan əlaqəsində yaşanır. Əslində hər kəsə çətinlik verən və canını yandıran bu ictimai xəstəliyin yeganə həlli yalnız din əxlaqının yaşanmasıdır. Din əxlaqı yaşandığı təqdirdə insan dəyərsiz bir varlıq olaraq görülməkdən xilas olar, Allahın ruh verdiyi dəyərli bir varlıq halına gələr. Bu dəyərli varlığın ən əhəmiyyətli xüsusiyyəti, əlbəttə ki, xarici görünüşü, sahib olduğu mallar ya da statusu deyil, təqvası və ya digər bir sözlə, Allaha olan yaxınlığı və gözəl əxlaqıdır. Çünki insanın bu dünyada istifadə etdiyi bədəni, sahib olduğu digər hər şey kimi keçicidir. İnsan bu dünyaya imtahan olunmaq üçün gəlmişdir, qısa bir müddət qalıb, axirət yurduna gedəcək və dünyada göstərdiyi əxlaqından ötrü orada sorğu-suala çəkiləcək. Bu vəziyyətdə insan üçün ən əhəmiyyətli şey göstərdiyi əxlaqı olacaqdır. Din əxlaqında vəfalı və sadiq olmaq vacibdir, çünki Allah qullarından bunu istəyər, dindarlar da normal olaraq Allahın bəyəndiyi bu əxlaqdan zövq alarlar.

Quran əxlaqı yaşandıqda vəfanın, sədaqətin ən gözəl nümunələrinə şahid olunur. Ana-ata baş tacı olar, dəyərli ifaçılar, alimlər, vətənə millətə xidmət etmiş, əməyi keçmiş kəslər, yaşları nə qədər irəliyəyirsə irəliləsin cəmiyyətdə həmişə sevgi, hörmət görərlər. Gənclər və sevənləri tərəfindən tez-tez ziyarət edilir, hər cür ehtiyacları nəzərə alınır. Dostluqlar öz qardaşlarından daha çox bir bağlılıqla olar və ömür boyu davam edər. Üstəlik xəstəlik, çətinlik, maddi sıxıntı kimi vəziyyətlərdə kömək etmək və beləcə, gözəl əxlaq göstərərək Allahın razılığını qazanmaq üçün bütün ətrafı bir-biriylə yarışar. Yoldaşlar, evlənəcək kəslər Allahın razılığını güdmək və bunun sonsuza qədər davam etməsi niyyətiylə bərabərliklərini davam etdirərlər. Ölümdən sonra sonsuza qədər davam edəcək bir həyatın varlığını bildikləri və iman etdikləri üçün bir-birlərinə çox bağlı, sadiq və vəfalıdırlar. Bu elə bir sədaqət anlayışıdır ki, iki tərəfdən biri şikəst qalsa da, aciz bir vəziyyətə düşsə də, sağlamlığını və ya fiziki gözəlliyini itirsə də eyni bağlılıq və vəfa davam edər. Məsələn, gözəl bir insanın üzü yansa və tanınmayacaq vəziyyətə gəlsə mömin olan həyat yoldaşı buna şəfqət duyar və səbir edər, dünya həyatının çox tez keçəcəyini, əsl yurdun axirət olduğunu bildiyi üçün həyat yoldaşına sevgisindən, hörmətindən, mərhəmətindən heç bir şey əsirgəməz. Çünki qarşısındakı insanda dəyər verdiyi şey ruhudur. Hətta belə bir vəziyyətdə sədaqət göstərmək mömin üçün daha da zövqlü olur.

Möminlərin bu sədaqət anlayışı iş ortaqlıqlarında və digər hər cür əlaqələrində etibarlıdır. Verdikləri sözü yerinə yetirmək, əhdlərini yerinə yetirmək, ortaqlıqlarını etibarla davam etdirmək sadiq və etibarlı xarakterlərinin göstəricisidir. Verilən sözə sadiq olmaq əhəmiyyətli bir mömin əlamətidir. Quran əxlaqının yaşanmadığı bir mühitdə isə insanlardan sözlərinə və bir-birlərinə vəfalı olmalarını gözləmək əbəsdir.

Bu nöqtə də əhəmiyyətlidir ki, din əxlaqını yaşamayan hətta dinsiz olduğunu söyləyən bir adam bu verilən nümunələri oxuyub, özünün dindar olmadığı halda bunlardan heç birini əsla etməyəcəyini iddia edə bilər. Həqiqətən də bu günə qədər heç etməmiş da ola bilər. Lakin daha əvvəl də ifadə etdiyimiz kimi, şərtlər elə dəyişər və bəlkə elə böyük mənfəətlərdən bəhsi keçər ki, bir nöqtədə sədaqətsizlik edə bilər. Bəlkə bundan ötəri özünə görə qınanmayacağı bir mühitə gedə bilər ya da özünə çox cazibədar görünən variantlarla qarşılaşa bilər. Bunlar kimi, dünyəvi əxlaqından, prinsiplərindən vaz keçəcəyi bir çox ehtimal meydana gələ bilər. Halbuki, şərtlər nə olursa olsun, mömin olan bir adam Allahın məmnun olmayacağı bir əxlaqı ya da Allahın qadağan etdiyi bir rəftarı əsla etməz. Bu adam üçün belə bir mövzunun istisnası da olmaz.

## Din əxlaqının yaşandığı mühitdə sülh

## və əmin-amanlıq hakim olar

Allah, Quranda möminlərə əmin-amanlığın və gözəl əxlaqın hakim olduğu bir sistem tövsiyə etmişdir. Bu sistemdə qəzəblənmək, kin saxlamaq kimi pis əxlaq xüsusiyyətləri yoxdur. Çünki Allah Quranda möminlərə bu cür rəftarları qadağan etmişdir:

**O müttəqilər ki, bolluq zamanı da, qıtlıq zamanı da mallarından Allah yolunda xərcləyir, qəzəblərini boğur və insanları bağışlayırlar. Allah yaxşı iş görənləri sevir. (Ali İmran surəsi, 134)**

**O kəslər üçün ki, böyük günahlardan və çirkin əməllərdən çəkinir, qəzəbləndikləri zaman xətanı bağışlayırlar. (Şura surəsi, 37)**

Allah möminlərə yuxarıdakı ayələrdə göründüyü şəkildə tərif verir. Möminlər də bundan kənar bir əxlaq nümayiş etdirməkdən çəkinərlər. Çünki bütün həyatlarını Allahın sevgisi və Onun rizası əsasında qurmuşlar. Həyatları boyu atdıqları hər addımda, göstərdikləri hər əxlaqda, etdikləri hər rəftarda, dedikləri hər sözdə ən doğrusunu, ən gözəlini seçərək davranar, Allahın ən bəyənəcəyi əxlaqa sahib olmağa çalışarlar. Allah onlardan gözəl əxlaqdan da üstün bir əxlaq istəyir, bunu da “ən gözəl” olaraq ifadə edir. Bir çox ayədə bu incəliyə diqqət çəkilmişdir:

**Qullarıma de ki, ən gözəl sözləri danışsınlar... (İsra surəsi, 53)**

**...Biz yaxşı işlər görənlərin mükafatını puç etmərik. (Kəhf surəsi, 30)**

**Sən pisliyi yaxşılıqla dəf et... (Muminun surəsi, 96)**

**Yaxşılıqla pislik eyni ola bilməz. Sən pisliyi yaxşılıqla dəf et! O zaman səninlə ədavət aparan kimsə sanki yaxın bir dost olar. (Fussilət surəsi, 34)**

İslam əxlaqının yaşandığı mühit hər kəsin "ən gözəl" rəftara meyl etdiyi, bunu etməyə cəhd etdiyi bir mühitdir. Hər kəsin "ən gözəl" olanı axtardığı bir mühitdə normal olaraq hüzur, əmin-amanlıq və gözəllik hakim olar. Əsəbləşmə, qəzəblənmə, döyüş, səs-küy, mübahisə və bunlara bənzər pis əxlaq xüsusiyyətlərinin heç biri müşahidə olunmaz. Ailə mühitlərində, dost əlaqələrində, ticarət məsələlərində, nəqliyyatda, hər cür əməkdaşlıqlarda və bölgülərdə, gündəlik həyatın heç bir parçasında möminlər bu cür alçaldıcı rəftarlara və sadəliklərə tənəzzül etməzlər. Digər insanlar tərəfindən normal qarşılana bilən bu cür rəftarlar bir mömin üçün xəcalətdir.

İslam əxlaqı əsl mənada yaşandığı təqdirdə cəmiyyətdə normal olaraq dinc bir mühit meydana gələr. Din əxlaqı yaşanmadığı müddətdə də insanlar narahatlıqlara və sıxıntılara məhkumdurlar. Din əxlaqını yaşamayan və ya dinə inanmayan bir insanı dayandıracaq bir mexanizm yoxdur, bu adam tamamilə nəfsinin nəzarəti altındadır. Belə bir insanın bir anı digər anına uyğun gəlməz. Öz-özlüyündə qəzəblənər, incidici ola bilər, səsini çirkin bir tərzdə yüksəldər, qışqırar, hiddətlənər hətta şiddət belə tətbiq edə bilər. Əslində qəzəblənmək fərdi və ictimai narahatlığın xaricə əks olunan bir formasıdır, daha əvvəl də ifadə edildiyi kimi bu, ər-arvad və dostlar arasında, ticarət əlaqələrdə olduğu kimi nəqliyyat tıxaclarında belə sıxlıqla rast gəlinən bir vəziyyətdir. Xüsusilə darda qaldıqları vaxtlarda, işlər yolunda getmədikdə, ani vəziyyətlərdə, mənfəətləri təhlükə altında olduğu vaxtlarda əsəbləşməyən insan çox nadirdir. Məhz bu cür insanlarla dolu bir cəmiyyət də hər cəhətdən xoşagəlməz bir hal alır. Qarşıdakı insanın yorğun, dalğın, kədərli, yuxusuz ola biləcəyini və özü kimi bir insan olduğunu düşünmədən ən kiçik axsaqlığa, özünə toxunan ən kiçik bir hadisəyə həddindən artıq reaksiya verər, qışqırıb-bağırar, təhqir edər, hətta davaya girişər. Yeməyin duzunun çox olmasına, köynəyində ləkə qalmasına və ya qapıçının zibili bir az gec gəlib aparmasına və bunlara bənzər bir çox mövzuda eyni dərəcədə hiddətlənə bilər. Həqiqətən həssaslıq göstərməsi, reaksiya verməsi, müdaxilə etməsi lazım olan bir mövzuda, haqsızlıq, ədalətsizlik vəziyyətində isə özünə zərər toxunmursa laqeydlik, etinasızlıq göstərə bilər.

### Din əxlaqı insanların stabil bir ruh halına sahib olmalarını təmin edər

Din əxlaqını yaşayan insanlar tam mənasıyla Allaha təslim olduqları, hər şeyin Allahın nəzarəti altında baş verdiyini bildikləri üçün olduqca stabil və etidallı bir ruh halına sahibdirlər. Yaxşı ya da pis heç bir hadisə qarşısında özündən çıxmaz, ani

reaksiyalar verməz, tamamilə ağıllı olaraq hərəkət edərlər. Buna görə də olduqca etibarlı insanlardır. Ən pis şərtlərdə belə həm özlərinin, həm də ətraflarının ən az zərər görəcəkləri şəkildə, ən ağıllı tədbirlər görərlər. Çünki möminlər Allahın kitabı olan Quranla öyrədilmiş insanlardır və bütün davranış, hərəkət və reaksiyaları da Qurandan öyrəndikləri üstün əxlaq və xarakter quruluşu çərçivəsində baş verər. Allahın hökmlərinə olduqca həssas bir şəkildə tabe olduqlarından və Allahdan qorxub çəkindiklərindən ötrü ağıl və şüur cəhətdən çox inkişaf etmişlər. Hadisələr qarşısında ən doğru və ən gözəl davranış tərzini göstərə bilmələrini təmin edən bir qavrayış, fərasət və mühakimə yürütmək qabiliyyətinə sahibdirlər.

Əlbəttə ki, bu xüsusiyyətlərə sahib olan mömin heç bir hadisə qarşısında təşvişə, ümidsizliyə, narahatlıq və ya kədərə qapılmaz, həmişə stabil, təvəkküllü, sağlam bir ruh halına sahib olar. Çətinliklər qarşısında ruhdan düşməz, qərarsızlığa düşməz və səbirli davranar. İnsanlara, tolerant və mərhəmətli davranar. Sözün ən gözəlini danışar, rəftarın ən gözəlini göstərər. Güclü, etibarlı, yetkin bir şəxsiyyət nümayiş etdirər. Hər şeyin Allahın nəzarəti altında olduğunu yaddan çıxartmaz və qarşılaşdığı heç bir hadisədə aşağıdakı ayələri ağlından çıxarmaz:

**Yer üzündə baş verən və sizin başınıza gələn elə bir müsibət yoxdur ki, Biz onu yaratmamışdan əvvəl o, Yazıda müəyyən edilmiş olmasın. Şübhəsiz ki, bu, Allah üçün çox asandır. Allah bunu əlinizdən çıxana kədərlənməyəsiniz və Onun sizə verdiyinə həddindən artıq sevinməyəsiniz deyə belə izah edir. Allah heç bir özündən razını, özünü öyəni sevmir. (Hədid surəsi, 22-23)**

Quran əxlaqını yaşamayan insanlar isə Allahı tanıyıb, bütün hadisələrin Allahın nəzarəti altında olduğunu düşünmədikləri üçün həyatları həmişə qorxular, narahatlıqlar, hüzursuzluqlar içərisində keçər. Bundan ötrü də qeyri-stabil və neqativ bir şəxsiyyət nümayiş etdirərlər. Kənardan baxan biri üçün bu kəslərin ruh halı olduqca narahatvericidir. Bu tip kəslər həmişə qeyri-sabit ruh halında yaşayarlar. Çox xoşbəxt kimi görünərkən bir anda kədərlənib ağlamaya başlaya bilərlər. Niyə kədərlənəcəkləri ya da hansı səbəbə görə ağlayacaqları da qeyri-müəyyəndir. Bəzən köhnə bir xatirələri ağıllarına gələr, doluxarlar. Çox asanlıqla depressiyaya düşər və bunu rahatlıqla, normal bir hərəkətmiş kimi "depressiyadayam" deyərək dilə gətirərlər. İntihar etməyi belə düşünər, hətta cəhd edə bilərlər. Belə insanların hərəkətlərində heç bir hədd yoxdur. Nəyin doğru nəyin səhv, nəyin yaxşı, nəyin pis, nəyin gözəl nəyin çirkin olduğu

mövzusunda qəti bir fikirləri də yoxdur, nəyin yerində nəyin yersiz, nəyin lazımi, nəyin lazımsız, nəyin mənalı nəyin mənasız, nəyin ağıllı nəyin dəlilik olduğuna sağlam düşüncəylə qərar verə bilməzlər. Çünki bütün bu anlayışlar haqqında ən doğru hədləri bildirən haqq dindən xəbərsizdirlər.

Dindən xəbərsiz olduqları üçün Allaha təvəkkül etməzlər. Allahın hər şeyi bir qədər ilə yaratdığından, hər şeyin Allahın diləməsiylə baş verdiyindən və bu dünyada başlarına gələn yaxşı ya da pis hər şeyin özlərinin imtahan edilməsi üçün yaradıldığından xəbərləri yoxdur. Dindən xəbərsiz olduqları üçün başlarına gələn hadisələrin hikmətlərini və mahiyyətini başa düşə bilməz və bu hadisələr qarşısında ən yaxşı reaksiya və davranışın necə olmalı olduğunu bilə bilməzlər. Hər şeyin təsadüflər nəticəsində olduğunu düşündükləri üçün bütün həyatları etibarsızlıq, narahatlıq və stress içində keçər. Buna görə də daim tərəddüd edər, səhv qərarlar və səhv reaksiyalar verərlər. Etdikləri bütün işlərdən peşmançılıq çəkərlər.

Heç bir mövzuda sağlam bir düşüncələri yoxdur, yaxşı bir hadisə qarşısında dərhal qürrələnib sevinər, hədlərini aşar, azğıncasına hərəkətlər edə bilərlər. Azğınlıqları, həyasızlıqları və qürurlanmaları artar. Sevindikdə özlərini itirər, alçaldıcı, sadə hərəkətlər göstərə bilərlər. Pis bir hadisə qarşısında da eynilə nəzarətsiz davranar, birdən-birə hər cür acizlik və çirkin davranışı göstərə bilərlər. Hövsələdən çıxıb özlərini yerdən yerə atar, qışqırıb bağırar və hönkürə-hönkürə ağlaya bilər. Qəzəbləndikləri vaxt şüursuz hərəkətlər edə bilər, pis sözlər deyə bilərlər.

Bu cür rəftarların yalnız müəyyən bir mədəniyyət səviyyəsinin aşağı insan təbəqlərinə xas olduğu zənn edilməməlidir. Din əxlaqını yaşamayan cəmiyyətlərdə ən yetkin, ən mədəni, ən ağlı başında görünən, “sözünü kəlamını bilən” deyə ifadə edilən kəslər belə gözlənilməz bir hadisə qarşısında özünü itirib sadə, səviyyəsiz rəftarlar göstərə bilərlər. Nəfslərinə ağır gələn, mənfəətlərinə zidd düşən hallarda bu cür kəslərin necə çirkin, təcavüzkar ya da aciz bir xarakterə büründükləri çox tez şahid olunan bir həqiqətdir.

## Din əxlaqını yaşayan insanlar güclü və qətiyyətli bir şəxsiyyətə sahib olurlar

Cahiliyyə mühitində insan, şəxsiyyət olaraq güclü görünsə belə mütləq bəzi hüdudları vardır. Din əxlaqını yaşamayan bir insan müəyyən bir məqamdan sonra zəifliklərinin öhdəsindən gələ bilməz. Müxtəlif pis rəftar və davranışlara prinsip etibarilə qarşı çıxanlar, belə əhəmiyyətli bir mənfəətləri olduqda prinsiplərindən imtina

edə bilərlər. Həyat yoldaşlarından, yaxınlarından gördükləri bir təzyiq, xəstəlik, ehtiyac və ya bunlara bənzər bir vəziyyət meydana gəldikdə və bu tələblərdən ötrü qınanılmayacaqları bir mühit tapdıqları vaxt heç bir qanun və ya prinsipə əhəmiyyət verməzlər. Cəlbedici mənfəətlər qarşısında güzəştə getmələrinin qarşısını alacaq heç bir ciddi səbəbləri yoxdur.

**... Allah Öz Elçisinə və möminlərə mənəvi rahatlıq nazil etdi və onlara təqva sözünü vacib buyurdu. Onların buna daha çox haqqı var idi və ona layiq idilər. Allah hər şeyi bilir. (Fəth surəsi, 26)**

Yalnız daha əvvəl də ifadə etdiyimiz kimi din əxlaqını yaşamayan bir insanın bu günə qədər belə bir şey etməmiş olması əhəmiyyətli deyil.

Əhəmiyyətli olan bu güzəştlərə getməsinə mane olacaq heç bir hüdud, çəkinəcək səbəbinin olmamasıdır. Bəhsi keçən insanlar Allahdan qorxmadıqları üçün iradələrini qoruyacaq bir gücə sahib deyildirlər.

Halbuki, din əxlaqını yaşayan biri üçün vəziyyət çox fərqlidir. Dünyada mövcud olan heç bir səbəb onları doğru bildiklərini etməkdən və bu mövzuda qətiyyətli olmaqdan yayındırmaz. Bunun əsas səbəbi isə sahib olduqları Allah qorxusudur. Allahın qüdrətini qavraya bildikləri üçün Allahın əzabından və cəzalandırmasından şiddətlə qorxarlar. Allahın özlərini hər an eşitdiyini, gördüyünü və gizlətdikləri hər şeyi Allahın bildiyini bilir, hər an Allahın hüzurunda olduqlarını hiss edərək yaşayarlar. Din əxlaqına həqiqi mənada bağlanmış insanlar güclü və iradəli olurlar, hər nə olursa olsun Quranla qadağan edilən, Allahın xoşuna gəlməyəcək bir şeyi etməzlər. Möminlərin, qarşılaşdıqları heç bir hadisə qarşısında Allaha yaxınlaşmaqdan güzəştə getməyən münasibətləri ayələrdə belə xəbər verilmişdir:

**O kişilər ki, nə ticarət, nə də alış-veriş onları Allahı zikr etməkdən, namaz qılmaqdan və zəkat verməkdən yayındırmır. Onlar qəlblərin və gözlərin çevriləcəyi bir gündən qorxurlar. Bu ona görədir ki, Allah onları, etdikləri əməllərin ən gözəli ilə mükafatlandırsın, onlara olan lütfünü artırsın. Allah istədiyinə hesabsız ruzi verir. (Nur surəsi, 37-38)**

### Quran əxlaqı eqoizmi aradan qaldırır

Din əxlaqını yaşamayan insanların yalnız özlərini düşünmələri qaçınılmazdır. Bu əslində fəlsəfi bir zərurətdir, çünki yaşadıqları sistem bunu tələb edir. Fədakarlıq,

mərhəmət, gözəl əxlaq kimi dəyərlər din əxlaqının gətirdiyi və ancaq dinlə birlikdə tam mənasıyla yaşana biləcək dəyərlərdir. Ancaq Allaha və axirətə iman edən, haqq-hesaba çəkiləcəyini bilən kəslər Allahın razı olduğu və bəyəndiyi bu əxlaqı heç nəyə güzəştə getmədən yaşayarlar. Buna görə də dindar olmayan bir insanın belə bir əxlaqı tam mənasıyla yaşaması qeyri-mümkündür. Lakin bunu, "cəmiyyətdə eqoist insanlar da vardır, mən onlardan deyiləm" şəklində düşünmək, öz boynuna heç götürməmək səhv olar. Çünki əgər din əxlaqı yaşanmırsa, eqoizmin başqa bir alternativi yoxdur. Digər pis əxlaq xüsusiyyətlərində olduğu kimi bunun da səbəbi eynidir: Bu sonsuz bir həyatın varlığına, haqq-hesaba çəkiləcəyinə, cəzalandırılacağına inanmamaq və Allahdan qorxmamaqdır.

Buna görə də din əxlaqını yaşamayan insanlar öz ifadələriylə "gəmisini xilas edən kapitan" tərzində bir həyat yaşayarkən, ətraflarındakı insanlara biganə yanaşarlar. Həyatdan gözlədikləri daha zəngin olmaq, daha yaxşı bir kariyeraya sahib olmaq, daha yaxşı yaşamaq və bunlara bənzər məqsədlərdir. Ətraflarındakı kəsləri, dostlarını, ehtiyac sahiblərini düşünmək hətta bütün insanlara faydalı olmaq ağıllarına belə gəlməz. Çünki özlərinə görə, bu fədakarlıqları göstərmələrini, bu cür bir əxlaqı yaşamalarını tələb edəcək heç bir səbəb yoxdur. Ətraflarında da daha fərqli bir sistemə rast gəlməzlər, onsuz da bütün cəmiyyət bu vəziyyətdədir. Bu vəziyyət də onlara vicdani bir rahatlıq verər.

Bir sözlə, din əxlaqının yaşanmadığı bir cəmiyyətdə eqoizm qaçınılmazdır. Belə bir cəmiyyətdə az ya da çox hər kəs mütləq eqoistdir. Halbuki, eqoizm insanın nəfsinə, ondan çəkinməsi üçün imtahan məqsədiylə verilmiş bir xüsusiyyətdir. Bu vəziyyət ayədə belə ifadə edilir:

**...Doğrusu, nəfslər xəsislik etməyə hazırdır. Əgər qadınlarla yaxşı davranıb Allahdan qorxsanız, bilin ki, Allah nə etdiklərinizdən xəbərdardır. (Nisa surəsi, 128)**

Ümumiyyətlə, eqoist insanlar ən kiçik bir təfərrüatdan ən əhəmiyyətli mövzulara qədər hər şeydə öz istəklərinin yerinə yetirilməsini istəyərlər. Qarşı tərəfin istəyi ya da razılığı onlar üçün əhəmiyyətli deyil. Məsələn, yorulsa dərhal oturmaq istəyər, amma özündən daha yorğun, yaşlı və ya xəstə olan insanların oturmasına əhəmiyyət verməz. Dostlarıyla bir yerdə olarkən ən yaxşı yemək, ən yaxşı yer, ən yaxşı yataq, ən yaxşı paltar həmişə özünün olmalıdır. Öz rahatlığı üçün başqaları narahat və hüzursuz olacaqsa, bu da əhəmiyyətli deyil. Özü dincələrkən səssizliyin yaranmasını istəyər,

amma əylənmək istədikdə narahat olan insanlara əhəmiyyət verməz; bunu ən normal haqqı olaraq görər. İş yerində, məktəbdə, dostlarıyla olan əlaqələrində, evliliyində demək olar ki, hər yerdə eqoizmin müxtəlif növləri ortaya çıxar.

Vaxtaşırı din əxlaqının yaşanmadığı mühitlərdən də istisna olan kəslər çıxa bilər. Məsələn, "yaxşı" insan kimi tanınan şəxslər vardır. Həyat yoldaşına, dostuna qarşı comərd, fədakar olaraq tanınan bu kəslər, həmçinin bir çox sosial yardım fəaliyyətlərində də tez-tez iştirak edərlər. Lakin bu cür kəslər çox vaxt, etdikləri yaxşılıqları Allahın rizasını qazanmaq üçün deyil, yaltaqlıq, yaxşı və fədakar bir insan kimi tanınmaq, təriflənmək, təqdir toplamaq üçün edərlər. Həmçinin, bu kəslərin verdikləri hədiyyə və etdikləri yardımlar da öz maliyyə vəziyyətlərinə təsir edəcək bir külfət deyil.

İdealist olaraq tanınan insanlar da eyni zehniyyətdə bir liderlik etmək, məsuliyyət götürmək istəyinə sahibdirlər. Məqsədləri heç vaxt Allahın rizasını qazanmaq, insanlara, cəmiyyətə faydalı olmaq, xidmət etmək deyil. Bu kəslər alnız eqoist duyğularını təmin etmək, şöhrət, tərif, nüfuz qazanmaq məqsədiylə boyunlarına belə məsuliyyətlər götürər, vəzifə və məqam əldə etməyə çalışarlar. Ciddi mənada bir mənfəətləri olduqda isə həqiqi əxlaqlarını büruzə verərlər.

Din əxlaqını yaşamayan cəmiyyətlərdə, "fədakar" olduğunu düşünən bir adamı möminlərin əxlaqlarıyla və fədakarlıqlarıyla müqayisə etdikdə, həmin adam olduqca eqoist görsənər. Çünki möminlərin fədakarlıq anlayışı onların qavradıqlarından xeyli üstündür. Möminlər, qardaşlarının ehtiyacını öz ehtiyaclarından üstün tutarlar. Özləri üçün istədiklərinin daha çoxusunu səmimi olaraq qardaşları üçün istəyərlər. Çünki Qurana tabe olmaq onlara elə bir əxlaq qazandırmışdır ki, **"Onlar özlərinin istədikləri şeylərdən kasıba, yetimə və əsirə də verərlər" (İnsan surəsi, 8)** Bu əxlaqdan ötrü möminlər ayənin ifadəsiylə "...**zəif kişilər, qadınlar və uşaqlar uğrunda... " (Nisa surəsi, 75)** mübarizə aparalar, yalnız özlərini düşünmək əvəzinə hər kəsin məsuliyyətini öz üzərinə götürüb, böyük düşünərlər.

Məhz din əxlaqı tam mənasıyla yaşandığı təqdirdə ictimai əlaqələr də fədakarlığa əsaslanacaq, bir çox problem aradan qalxacaq.

## Din əxlaqını yaşamaq dünya həyatına hərisliklə bağlanmağın və tamahkar olmağın qarşısını alar

İnsanlar sevgi, qardaşlıq, köməkləşmə, dostluq və paylaşma kimi anlayışları həqiqi mənada din əxlaqı sayəsində öyrənmişlər. Bu dəyərlər də yalnız din əxlaqı yaşandığı müddətcə qoruna bilər. Çünki insanların nəfsləri daha əvvəl də bəhs etdiyimiz kimi, dünyəvi hərisliklərə, eqoist ehtiraslara əlverişli yaradılmışdır. Din əxlaqından uzaq insanlar da axirət yurdunu qazanmağı qarşılarına məqsəd qoymadıqlarından ötrü, bütün ömürləri boyu bitib tükənmək bilməyən ehtiraslarını təmin etmək istəyərlər. Allah bu cür insan modelini Quranda belə təsvir edir:

**Mən ona bolluca var-dövlət bağışladım, qayğısına qalan oğullar verdim və onu hər cür imkanlarla təmin etdim. Bunlara baxmayaraq, o, yenə də əlavə etməyimi arzulayır. (Müddəssir surəsi, 12-15)**

Din əxlaqının yaşanmadığı mühitlərdə insanlarda həmişə mal və pul hərisliyi olar, bunların daha çoxuna tamah salarlar. Belə bir cəmiyyətdəki insanlar arasında rəqabət duyğusu da çox güclü olar. Ən zəngin, ən müvəffəqiyyətli, ən gözəl, ən məşhur, ən sevilən həmişə özləri olmalıdır. Başqalarında bu xüsusiyyətlərin olmasına heç dözə bilməzlər. Həqiqətən də başqalarının yaxşılığı, gözəlliyi və ya sahib olduqları şeylər, içlərini dünya ehtirası bürümüş kəsləri çox narahat edir. Üstəlik həsəd aparar, onların sahib olduqlarının daha çoxunu əldə etməyi istəyərlər. Hətta elə ki, özlərinin istəyib də çata bilmədikləri bir şeyə digər insanlar sahib olarsa, onların bu sahib olduqlarını itirmələri çox xoşlarına gələr.

Həris və tamahkar insanların bir-birlərinə qarşı olan bu dünyagörüşlərinin əsasında həyat fəlsəfələri durar. Çünki bu kəslər digər insanlara Allahın yaradıb ruh verdiyi dəyərli insanlar kimi deyil, meymundan təkamül keçirən və bir müddət sonra torpaq olub, bir daha əsla dirilməyəcək adi məxluqlar olaraq baxarlar. Özləri də "bu dünyaya bir dəfə gələcəklər"inə görə hər şeyin ən çoxuna sahib olmaq, nəfslərinin istəyini sərhəd bilmədən təmin etməkdən başqa bir məqsədləri olmamalıdır. Bu azğın məntiqlərinə görə, daha aza qane olmaq, başqalarının istək, mənfəət və ehtiyaclarını güdmək isə onlara görə tamamilə məntiqsizdir. Şübhəsiz ki, bəhs edilən insanların aralarında daşıdıqları bu düşüncələr olduqca səhvdir və sahiblərini sıxıntılı bir ruh halına salar.

Belə bir həyat ilk baxışda din əxlaqından xəbərsiz bir adam üçün çox cazibədar görünsə də əslində çox stressli, maddi və mənəvi cəhətdən çox bezdiricidir. Buna görə də əsla xoşbəxt və dinc ola bilməzlər. İnsanın istək və arzularının qanuni də olsa bir

həddi-hüdudu yoxdur. Çünki insan sonsuz axirət həyatına görə yaradılmışdır. Bu dünya isə, bu istək və arzuları təmin edə bilməkdən çox uzaq, hər cür maneə, əskiklik və qüsurla dolu müvəqqəti bir imtahan yeridir. Məhz din əxlaqından xəbərsiz olduqları üçün bu imtahanın sirrini bilməyən kəslər hər cür arzularını bu dünyada həyata keçirməyə çalışır, həmişə bir qeyri-kafilik, narazılıq və əskiklik hissinə sahib olurlar. Heç vaxt əldə edə bilməyəcəkləri şeylərə hərislik edib, hər istədiklərini əldə etməyə çalışmaq onlara həyatı zəhər edər. Zənginlik içində yoxsulluq çəkərlər. Sahib olduqlarından heç bir zövq ala bilməz, sahib olmadıqlarından ötrü isə iztirab çəkərlər. Bu mənəvi əzab əslində sonsuz əzablarının bu dünyadakı bir başlanğıcıdır.

Din əxlaqı isə insanların özləri üçün istədikləri hər şeyi mömin qardaşları üçün də istəmələrinə və onların sahib olduqları xüsusiyyətlərdən ötrü xoşbəxt olmaları haqda öyüd-nəsihət verər. İnananlar bir-birlərinin qardaşı və himayədarıdırlar. (Tövbə surəsi, 71) Buna görə də bir-birlərinin sahib olduqları hər yaxşılıq və gözəllik onları çox xoşbəxt edər. Hər kəs sahib olduğu xüsusiyyətləri Allahın rizası üçün istifadə etdiyindən aralarında böyük bir paylaşma və yardımlaşma vardır. İnsanlar bir-birlərinə hər şeydən əvvəl Allahın yaratdığı, ruh verdiyi dəyərli insanlar gözüylə baxarlar. Bu da bir-birlərinə dəyər vermələrinə, comərd və fədakar davranmalarına səbəb olar. Belə bir cəmiyyətdə insanların çox dinc və xoşbəxt bir həyatları olar.

### Din əxlaqı yaşansa həsəd və qısqanclıqlar da yox olar

Əvvəlki hissədə də toxunulduğu kimi din əxlaqında, qısqanclıq və həsəd pis və çirkin bir əxlaq anlayışıdır, buna görə də möminlər gözəl əxlaqlı ola bilmək, Allahın xoşuna gələcək rəftarlar edə bilmək üçün bunun tam əksi olan bir münasibət nümayiş etdirirlər. Din əxlaqını yaşamayan bir insanda isə həsəd duyğusunun olmaması çox çətindir, çünki həsəd aparmasının qarşısında bir maneə yoxdur. Hərisliklərin, ehtirasların, eqoizmin hakim olduğu bir rəqabət mühiti vardır və bu vəziyyətdə cahiliyyə insanı üçün həsəd qaçınılmazdır. Gənc bir qız özündən daha gözəl olan ya da daha gözəl geyinmiş birini qısqanar, gənc bir oğlan daha məşhur olan dostunu qısqanar. Məktəb və iş yerində əldə olunan müvəffəqiyyətlərdə də bu belədir. Yaş, cins, peşə, vəzifə kimi xüsusiyyətlər də bir şey dəyişdirməz, hər təbəqədən olan insanda həsədin bir növünü görmək mümkündür. Xüsusilə də bir-birlərinin mallarını qısqanarlar. Evə aldıqları əşya, evin yerləşdiyi məkan, mənzərəsi, avtomobil markası, bağ evi, səyahət kimi mövzular həsəd səbəbidir. Sevindiklərini, xoşbəxt olduqlarını

desələr belə həqiqətdə çox qısqanarlar. Hətta elə qısqanarlar ki, bəziləri diliylə belə sevindiyini deyə bilməz. Xüsusilə iş yerlərində həsəddən qaynaqlanan bir rəqabət çox diqqətə çarpan dərəcədə görünər. Vəzifə və məqam ehtirası və bundan qaynaqlanan qısqanclıqlar gündəlik həyatda görməyə vərdiş etdiyimiz hallardır.

Amma Quran daha əvvəl də ifadə etdiyimiz kimi, insanları özləri üçün istədikləri hər şeyi qardaşları üçün də istəməyə və onların sahib olduqları hər şeydən böyük sevinc hissi keçirməyə çağırır. Quran ayələrində möminlərin bu rəftarları belə təsvir edilir:

**...onlara verdiklərinə görə qəlblərində peşmançılıq hissi duymurlar. Hətta özləri ehtiyac içində olsalar belə, onları özlərindən üstün tuturlar. Nəfsinin tamahından qorunan kimsələr nicat tapanlardır. Səhabələrdən sonra gələnlər deyirlər: "Ey Rəbbimiz! Bizi və bizdən əvvəl iman gətirmiş qardaşlarımızı bağışla. Bizim qəlbimizdə iman gətirənlərə qarşı nifrət və həsədə yer vermə. Ey Rəbbimiz! Həqiqətən də, Sən Şəfqətlisən, Rəhmlisən!" (Həşr surəsi, 9-10)**

### İnsanlar arasında sevgi və hörmətin yaşanması din əxlaqının yaşanmasıyla mümkün olar

Dinin əslində ən əhəmiyyətli istiqaməti sevgi və gözəl əxlaqa əsaslanmasıdır. Qurana baxdıqda Allahın Öz qullarından çox üstün bir əxlaq istədiyi, onları sevgi və fədakarlığa dəvət etdiyi görülər. Allah qullarına qarşı bağışlayıcı və mərhəmətlidir. Quranda Allahın qullarına olan sevgisindən belə bəhs edilir:

**Bağışlayan da, Sevən də Odur! (Büruc surəsi, 14)**

Allah möminlərə yönəltdiyi bu sevginin eynisini onların da bir-birlərinə göstərməsini istəyər. Buna görə də möminlər bir-birlərinə çox dəyər verər, sevgi və hörmətdə heç bir səhv etməməyə diqqət edərlər. Belə davrandıqları təqdirdə Allahın özlərindən razı qalacağını bilmələri də bu sevgi və hörmətin meydana gəlməsindəki ən əhəmiyyətli amildir. Həmçinin, Allahın yaradıb, ruh verdiyi, iman sahibi etdiyi bir insanın dəyərli olduğunu da bilirlər. Bundan başqa, dünyanın bir imtahan yeri olduğunu bilmələri onları digər insanlara qarşı həmişə gözəl əxlaqlı olmağa sövq edər. Çünki bunun əvəzini axirətdə alacaqlarını, bundan ötrü mükafatlandırılacaqlarını bilirlər.

İçlərindəki güclü Allah qorxusu da eynilə onları digər insanlara qarşı yaxşı və gözəl davranma mövzusunda motivasiya edər. Baxdıqları hər varlıqda Allahın əks olunan gözəlliklərini görərlər, bu da sevgi dolu olmalarını təmin edər. Bununla birlikdə özlərini axirət həyatının gözlədiyini, digər inananlarla sonsuza qədər birlikdə olacaqlarını bilmələri də bu sevgi və hörməti xeyli güclü və əsaslı bir hala gətirər.

Buna görə də insanlar arasında din əxlaqının ruhu hakim olduqda çox gözəl, çox mehriban və çox dinc bir həyat yaşanır. Ailə münasibətləri çox fərqli olar. Uşaqlar ana-atalarına və digər böyüklərinə qarşı olduqca hörmət və sevgi dolu olarlar. Allahın bu mövzuda Quranda olan hökmü də möminlərin bu şəkildə davranmalarını tələb edir:

**Rəbbin yalnız Ona ibadət etməyi və ata-ana ilə yaxşı davranmağı buyurmuşdur. Əgər onların biri və ya hər ikisi sənin yanında qocalıq yaşına dolarsa, onlara: "Uf!" belə demə, üstlərinə qışqırma və onlara xoş söz söylə! (İsra surəsi, 23)**

Başqa bir ayədə də möminlərə belə öyüd-nəsihət verilir:

**Allaha ibadət edin və heç bir şeyi Ona şərik qoşmayın! Valideynlərə, qohum-əqrəbaya, yetimlərə, kasıblara, yaxın və uzaq qonum-qonşuya, yol yoldaşına, müsafirə və sahib olduğunuz kölə və kənizlərə yaxşılıq edin! Həqiqətən, Allah lovğalıq edənləri və özünü öyənləri sevmir. (Nisa surəsi, 36)**

Din əxlaqı yaşandıqda hər kəs bir-birinə ən gözəl sözü demək və ən gözəl rəftarı göstərmək mövzusunda bir-biriylə yarışar. Bu da yenə Quran əxlaqı sayəsində mümkün olur:

**Allahın necə məsəl çəkdiyini görmürsənmi? Gözəl söz (lə ilahə illəllah) kökü yerdə möhkəm olan, budaqları isə göyə yüksələn gözəl bir ağac kimidir. O ağac Rəbbinin izni ilə öz bəhrəsini hər zaman verir. Allah insanlar üçün misallar çəkir ki, bəlkə, düşünüb ibrət alsınlar. (İbrahim surəsi, 24-25)**

Məhz ayələrdə təsvir edilən bu əxlaqı yaşamağa diqqət göstərən insanlar sevginin, hörmətin və dostluğun ən gözəl nümunələrini yaşayarlar. Bu, heç bir mənfəətə əsaslanmayan, yalnız Allah rizası üçün yaşanan bir sevgidir. Quranda möminlərin bir-birlərinə olan yaxınlıq dərəcələri belə ifadə edilmişdir:

**Mömin kişilərlə mömin qadınlar bir-birinin dostlarıdır. Onlar insanlara yaxşı işlər görməyi buyurur, pis əməllərə qadağa qoyur, namaz qılır, zəkat verir, Allaha və Onun Elçisinə itaət edirlər. Allah onlara rəhm edəcəkdir... (Tövbə surəsi, 71)**

Yuxarıdakı ayədə ifadə edildiyi kimi inananlar bir-birlərinin dostudurlar. Belə olduqda da həmişə qardaşlarının yaxşılığını və xoşbəxt olmalarını istəyərlər. Din əxlaqı tam mənasıyla bir cəmiyyətdə yaşandıqda isə hər kəs bu şəkildə bir-birini özünə dost tutar. Cəmiyyətə böyük bir sevgi və həmrəylik hakim olar.

Din əxlaqının yaşanmadığı bir mühitdə isə insanlar həqiqi sevgini və hörməti heç vaxt yaşaya bilməzlər. Çünki sevgi və hörmət duymalarına vəsilə olacaq səbəblər gözəllik, zənginlik, vəzifə, məqam kimi anlayışlardır.

Yaxın dostlarını xarici görünüşlərinə, geyinib-keçinmələrinə görə seçən bir adamın dostluq əlaqələri də ətrafındakıların sahib olduğu bu xüsusiyyətlərlə eyni olacaqdır. Evlənəcəyi adamı mal-dövlətinə, peşəsinə görə seçən bir adamın sevgisi həmişə bu meyarlara bağlı olaraq azalıb, artacaq. Məsələn, evlənməyi düşündüyü adam ya da həyat yoldaşı gözəl və nüfuzlu bir insan olduğu halda, qəflətən ölümcül bir xəstəliyə tutulsa ya da iflic olsa bir müddət sonra, onun xəstəliyindən qaynaqlanan əskikliklərini, acizliklərini görüb, ondan soyuyacaqdır. Xüsusilə özü maraqlanmaq və baxımını boynuna götürmək vəziyyətində qalsa, qısa bir müddət sonra səbri tükənəcək və bezəcəkdir. Qısa ömrünü xəstə birinə baxaraq keçirmək istəməyəcək. Cəmiyyət bunun nümunələriylə doludur.

Hörmət də eyni sevgi kimi çox əhəmiyyətlidir, qarşıdakı insana verilən dəyəri göstərər. Amma din əxlaqı yaşanmadığı vaxt adamın hörmət göstərməsi üçün müəyyən şərtlər meydana gəlməlidir, bunlara pul, vəzifə, rütbə, güc kimi şeylər misal ola bilər. Bu şərtlər meydana gəlmədiyi vaxt hörmət qoymaq üçün bir səbəb görmürlər. Ya da bunlardan ötrü əhəmiyyət verdikləri bir insan bu xüsusiyyətlərdən birini itirdikdə artıq hörmət edilən bir insan olmaz.

### Həqiqi dostluq din əxlaqıyla öyrənilər

Din əxlaqından uzaq yaşayan kəslərin öz aralarında bu cür şikayətlərinə şahid olmusunuz: "Çox dostum var, amma bir nəfər belə həqiqi dostum yoxdur", "heç bir dostuma həqiqi mənada etibar etmirəm". Bu kəslər çox səmimi dost kimi görünsələr də daxildə həqiqi dost olmadıqlarını bilirlər. Ancaq daha yaxşı bir dost tapa bilməyəcəkləri

və ətraflarındakı hər kəs bu əxlaqda olduğu üçün dostluqlarını davam etdirərlər. Çünki həqiqi dostluq, fədakarlıq və səy tələb edər. Yeri gəldikdə insan dostu üçün vaxtından, rahatlığından, pulundan, mənfəətlərindən heç düşünmədən güzəştə gedərək fədakarlıq göstərə bilməlidir. Lakin din əxlaqı yaşanmadığı təqdirdə bütün digər gözəl əxlaq xüsusiyyətləri kimi fədakarlıq etməyin də bir mənası yoxdur.

Məsələn, bir insanın dostu xəstələnsə, xəstəxanalarını gəzib həkim axtarsa, bəlkə benzinin pulunu, həkimin pulunu ödəməsi, üstəlik də yanında gözləyib baxımıyla maraqlanması lazımdırsa və bu əsnada işinə, məktəbinə, ailəsinin yanına ya da dostlarıyla əylənməyə getmək əvəzinə bunları etmək vəziyyətində qalsa, böyük ehtimalla bir çox bəhanə irəli sürəcək. Hətta bu bəhanələrin əhəmiyyətli olduğuna özünü də inandıracaqdır. İşin qəribə tərəfi, bu şəkildə davranan ya da bu şəkildə düşünən bir insanın bu davranışı din əxlaqının yaşanmadığı bir cəmiyyətdə heç kim tərəfindən qəribə qarşılanmayacaqdır.

Buna görə də din əxlaqını yaşamayan insanların həqiqi dostları yoxdur, həyat yoldaşları belə onlara həqiqi mənada dost deyil. Evliliklərində sevgiləri və hörmətləri qısa müddətdə tükənər, amma maddi asılılıq ya da ictimai səbəblərlə bunu davam etdirməyə çalışarlar. Buna görə də əslində evli olsalar belə tənhadırlar. Ailələri də yaşlandığı üçün hər an onları itirmə ehtimalı vardır, buna görə də həyatda tək qalmamaq mövzusunda onlara da etibar edə bilməzlər. Xüsusilə bu səbəbdən ötrü uşaq sahibi olarlar, gələcəkdə onların özlərinə baxacağını, beləcə tək qalmayacaqlarını düşünərlər. Amma cəmiyyətin ümumi vəziyyətinə baxanda bunun belə olmadığı aydın olar. Uşaqları da özləri kimi olacaq, böyüdükdə yanlarından ayrılacaq və müvəqqəti olan bu dünyanın haqqını vermək üçün cəmiyyətinin digər üzvləri kimi dünya həyatının ehtiraslarına aludə olacaq, yəni eqoizm və mənfəət mübarizəsinə girəcəklər. Nəticə etibarilə, din əxlaqını yaşamayan insanlar, içində yaşadıqları cəmiyyətin strukturu və göstərdikləri bu pis əxlaq xüsusiyyətlərindən ötrü həmişə təkliyə məhkumdurlar.

### Din əxlaqı insanların hər cür dünyəvi qorxusunu aradan qaldırar

Din əxlaqını yaşamayan insanların, Allahı tam tanımadıqları, Onun dostu olmadıqları və Rəbbimizə təvəkkül və etibar etmədikləri üçün çox müxtəlif qorxuları vardır. Gələcəkdən qorxarlar, təklikdən qorxarlar, uşaqlarının başına bir şey gəlməsindən, mallarına zərər gəlməsindən, sağlamlıqlarını itirməkdən, qəza keçirməkdən və ən əhəmiyyətlisi də ölümdən çox qorxarlar:

**De: “Qaçdığınız ölüm sizi mütləq haqlayacaqdır. Sonra siz qeybi və aşkarı Bilənin hüzuruna qaytarılacaqsınız. O da sizə nə etdiklərinizi xəbər verəcəkdir”. (Cümə surəsi, 8)**

Ölüm onlar üçün bir naməlumluqdur. Ölümdən sonrasını düşünməsələr belə necə öləcəklərini düşünər və bundan ötrü qorxarlar. Hər cür ölüm növü başlarına gələ bilər və bu ehtimalların qorxusu çox şiddətlidir. Ölümdən sonra həyat olduğu həqiqətinə ciddi mənada inanmadıqları üçün ölüm onlar üçün başlı-başına ürküdücü bir hadisədir. Yox olacaqlarını, torpağa qarışacaqlarını və bir daha əsla həyata qayıtma ehtimallarının olmadığını düşünərlər. Göründüyü kimi bu kəslərin ölüm qorxuları axirətdə necə haqq-hesab verəcəkləriylə əlaqədar bir qorxu deyil, dünyanı əbədi olaraq itirmə, yox olma düşüncəsinə əsaslanan bir qorxudur.

Bu yox olma narahatlıqlarını da çox vaxt oğlan uşağına sahibi olmaqla soyadlarını davam etdirməsiylə yatırda biləcəklərini zənn edərlər. Bir hissəsi oğlan uşağı doğana qədər lazım gəlsə 5-6 uşaq sahibi olar, hətta davamlı qız uşağı olur deyə yoldaşını boşayıb başqasıyla evlənənlər belə vardır. Maddi vəziyyəti yaxşı olanlar da soyadlarını davam etdirəcək abidələr, binalar, məktəblər inşa etdirərlər. Onların bu münasibətlərinə bir ayədə belə diqqət çəkilir:

**Sanki əbədi qalacaqsınız deyə qalalarmı tikirsiniz? (Şuəra surəsi, 129)**

Öz aralarında ölüm haqqında söhbət açılması belə keflərinin qaçması üçün kifayətdir. Nə qədər düşünməməyə çalışsalar da hər gün qəzetlərdən, televiziyadan, ətraflarından ölüm xəbərləri alarlar. Ətraflarında tez-tez ölümlərlə qarşılaşmaları, qəzaların, xəstəliklərin olması və ən əhəmiyyətlisi hər keçən gün yaşlanmaları istər-istəməz ölümü düşünmələrinə səbəb olar. Lakin hər mövzuda olduğu kimi bu mövzuda da, belə ki, ölümü düşünməmək üçün vicdanlarını ört-basdır etməyə çalışarlar. Olduqları mühitdə ölümlə əlaqədar bir söhbət olduqda dərhal söhbəti dəyişdirər, mümkün olduğu qədər dünya həyatına istiqamətli söhbətlər edərək hər insan üçün yaxınlaşmaqda olan sonu unutmağa çalışırlar.

Dünyada müxtəlif ölüm formalarının olması da onlar üçün çox qorxuludur. Mümkün olduğu qədər qəbiristanlıqların qarşısından keçməmələri, qəbiristanlıqların yaxınlığında ev tikməmələri də həmişə ölümü xatırlamamaq üçün görülən tədbirlərdir.

Ancaq ölüm, harada olurlarsa olsunlar, əlbəttə ki, bir gün onları haqlayacaqdır. Bu qaçınılmaz həqiqət Quranda belə xatırladılar:

**Harada olursunuzsa olun, ölüm sizi haqlayacaq. Hətta yüksək qalalarda olsanız belə... (Nisa surəsi, 78)**

Ölüm və axirət onsuz da möminlərin mahiyyətini bildikləri, gözlədikləri, qovuşmaq istədikləri həqiqətlərdir. Bu, əslində onlar üçün Allaha və əsl yurdlarına qovuşmağın sevincidir. Bütün ömürlərini həqiqi yurdun həsrətiylə və haqq-hesab verəcəklərini düşünməklə keçirərlər və ölümün bir son olmadığını da bilirlər. Buna görə də bu insanların, ölümdən və ya başqa bir şeydən qorxmalarından söhbət gedə bilməz.

### Din əxlaqı insanlarındakı gələcək qorxusunu aradan qaldırır

Möminlər istisna olmaqla demək olar ki, bütün insanlar həyatlarının sonrakı dövrlərində özlərini nələrin gözlədiyiylə maraqlanar, bir çox mənfi ehtimalı da düşünüb narahat olarlar. Bu onları ciddi şəkildə kədərləndirər və narahat edər. Bundan başqa insanların əksəriyyətinin yaşadığı gündəlik narahatlıqlar da vardır ki, bunları da gələcək qorxusuna daxil etmək mümkündür. Kiçik yaşlarda bu vəziyyət dərs tapşırıqlarından, dostluq əlaqələrindən, şifahi imtahan vermək kimi sadə problemlərdən ibarətdir. Ancaq yaşın artmasıyla insanların problem halına gətirib, qorxduqları mövzular da artar.

Orta məktəb dövrlərində adamın geyəcəyi paltar, yeyəcəyi yemək, dostlarıyla yaşadığı problemlər, qrup daxilindəki etibarı, məktəbdəki müvəffəqiyyəti və ailə münasibətləri onun üçün sanki dünyanın ən böyük və ən əhəmiyyətli problemləridir. Bu mövzulardakı hər hansı bir problem əhval-ruhiyyəsinə güclü təsir edər, hətta stressə və depressiyaya girməsinə səbəb olar. Bu problemlər, mütləq keçilməsi lazım olan universitet imtahanıyla ən pik nöqtəsinə çatar. Çünki bu imtahandan keçilmədiyi təqdirdə ailəyə necə hesab veriləcəyi, bu vəziyyətin qohumlara və ətrafdakı insanlara necə izah ediləcəyi, liseydəki müəllimlərə və dostlara nə kimi bir bəhanə uydurulub deyiləcəyi, həyatın bundan sonrakı mərhələsində nə ediləcəyi kimi narahatlıqlar gənc bir insanın mənəvi cəhətdən olduqca çökməsinə səbəb olar. Bu cür hallara indiki vaxtda o qədər çox rast gəlinir ki, universitet və ya kollec imtahanlarının nəticələrinin bəyan edilməsindən sonra qəzetlərdə çıxan intihar xəbərlərinə sanki vərdiş edilmişdir. Ancaq unutmamaq lazımdır ki, bunlar olduqca yersiz narahatlıqlardır. İnsan, əlbəttə ki, bir

imtahanda müvəffəqiyyət əldə etmək, yaxşı bir təhsil almaq istəyə bilər. Ancaq əlindən gələni etdiyi halda bir müvəffəqiyyət qazana bilmirsə, bu vəziyyətdə Allaha təvəkkül edib, Rəbbimizin özünə daha gözəl bir nəticə verməsi üçün dua etməlidir. Nəticə etibarilə burada əldə etdiyi və ya etməyə çalışdığı hər cür müvəffəqiyyət, qısa bir həyatdan sonra ölümlə birlikdə öz mənasını itirəcək. Geriyə qalan isə insanın Allaha olan etibarı, təvəkkülü və imanı olacaq.

Ancaq bu əhəmiyyətli həqiqətləri görə bilməyən, din əxlaqından uzaq kəslər üçün yaşın artmasıyla birlikdə gələcəyə bağlı qorxu və narahatlıqlar da artır. Bu insanlar gələcəyə dair planların xaricində, gün ərzində edəcəkləri və ya sonrakı həftələrdə etməyi planlaşdırdıqları bir çox təfərrüatı da düşünüb, narahat olar və hətta stressə girərlər. İş yerindəki vəzifələri, tətilə gedib gedə bilməyəcəkləri, əgər gedəcəklərsə hara gedəcəkləri, uşaqlarını xaricdə təhsil almağa göndərib göndərə bilməyəcəkləri, daha yaxşı bir evə köçüb köçə bilməyəcəkləri, yığıncağa vaxtında çatıb çata bilməyəcəkləri kimi saysız-hesabsız narahatlıqları vardır. Pul mövzuları da din əxlaqını yaşamayan insanların ağıllarını ən çox məşğul edən, onları ən çox narahat edən mövzuların başında gəlir. Pullarının çatıb çatmayacağı narahatlığı həm gündəlik həyatlarında, həm də gələcəklə əlaqədar planlarında böyük yer tutur. Çünki həm dünyaya istiqamətli böyük ehtiraslar içindədir, həm də pul yığıb xərcləmək istəməzlər. Bu da gələcəyə istiqamətli qorxu hissi keçirmələrinə səbəb olar. Bundan ötrü imkanları olsa belə pullarını xeyirxah işlərə xərcləməkdən çəkinərlər, insanlara kömək etməzlər. Maddi vəziyyəti yaxşı olan da, pis olan da eyni narahatlığı keçirər və xəsislik edər. Halbuki, insanlara ruzini verib, onları bəsləyən Allahdır. Allaha tam mənasıyla etibar etsələr onsuz da heç bir çətinlik çəkməzlər. Lakin bu etibarı yaşamadıqları üçün belə bir asanlıqdan da məhrum qalarlar. Allah insanlara verdiyi mallarla onları imtahan edir və bu mallardan Öz rizası istiqamətində istifadə etmələrini istəyir. Amma gələcəyə istiqamətli cahilcə qorxular üzündən çox insan eqoist bir münasibət nümayiş etdirər. Allah ayədə onların bu vəziyyətinə belə diqqət çəkmişdir:

**Şeytan sizi yoxsulluqla qorxudur və yaramaz işlər görməyi əmr edir. Allah isə sizə Öz tərəfindən bağışlanma və mərhəmət olunacağını vəd edir. Allah hər şeyi Əhatə edəndir, Biləndir. (Bəqərə surəsi, 268)**

Bundan başqa bütün insanlarda gələcəklə əlaqədar olan qorxulardan biri də yaşlanmadır. Görülən hər cür tədbirə baxmayaraq bədəndə qarşısı alınmaz yaşlılıq

əlamətlərinin qırışların, sallanmaların əmələ gəlməsi, saçın tökülməsi, ağarması, görmə, eşitmə qüsurları kimi yeni-yeni xəstəliklərin ortaya çıxması qaçınılmazdır. Bu ehtimalların hər biri din əxlaqından uzaq yaşayan bu insanlarda ciddi narahatlıqlara səbəb olar. Bundan başqa hər hansı ciddi bir xəstəlik vəziyyətində uşaqları özlərinə baxıb-baxmayacaq deyə düşünüb narahatlıq hissi keçirərlər. Necə və harada öləcəklərini düşünüb qorxarlar. Yaşlılarda ən çox müşahidə olunan qorxulardan biri də həyat yoldaşlarının öləcəyi təqdirdə tək qalma qorxusudur. İki tərəf də daxilən, "əgər o ölsə, mən necə tək başıma yaşayaram" deyə bir narahatlıq hissi keçirər.

Burada qeyd olunanların hər biri din əxlaqını yaşamayan insanların gələcəyə istiqamətli ciddi narahatlıq və qorxularıdır. Din yaşanmadığı təqdirdə bu narahatlıq hisslərinin baş verməsi qaçınılmazdır. Möminlər üçünsə vəziyyət daha fərqlidir, onlar bu cür qorxuların heç birini yaşamazlar. Hər şeyin Allahın nəzarəti altında olduğunu bilər, başlarına gələn hər şeyə yaxşı gözlə baxar, Allahı özlərinə dost tutduqları üçün köməyi də yalnız Allahdan gözləyərlər. Həmçinin, dünyada qorxulacaq heç bir mövzu olmadığını da bilərlər. Gələcəklərinə istiqamətli mövzularda Allahın ən çox razı qalacağı seçimləri edib, əllərindən gələn səyi göstərib, Allahın müəyyənləşdirdiyi taleyə təslim olarlar. Ayədə onların bu dünyagörüşü belə təsvir edilir:

**De: "Allahın bizim üçün yazdığından başqa bizim başımıza heç nə gəlməz. O bizim Himayədarımızdır. Qoy möminlər yalnız Allaha təvəkkül etsinlər!" (Tövbə surəsi, 51)**

Din əxlaqı səmimi olaraq yaşandıqda insanların üzərindən bir çox narahatlıq və qayğı normal olaraq aradan qalxar, hər kəs dinc və rahat bir həyat yaşayar. Quran əxlaqı bütün bu qayğılar üçün çıxış yolu olar. İnsanlar rahatlayar, üstlərindən böyük bir yük qalxar. Çünki bu insanlar qarşılarına çıxan hər hadisənin Allahın bir imtahanı olduğunu bilər, bunun rahatlığıyla hərəkət edərlər. Bir çətinliklə qarşılaşdıqları vaxt təvəkkül edərək savab qazanacaqlarını, bir nemətlə qarşılaşdıqlarında da Allaha şükür edərək yenə axirətləri üçün xeyir qazanacaqlarını yaddan çıxarmazlar. Məhz bu qane olmuş ruh halı, din əxlaqının iman edənlərə bəxş etdiyi bir imtiyazdır. Lakin bu imtiyaza sahib ola bilmək üçün hər şeydən əvvəl Allaha güclü bir iman, tam bir etibar və təslimiyyət vacibdir. Ancaq bu xüsusiyyətlərə sahib olan insanlar bu narahatlıqlardan xilas ola bilərlər. Digərləri isə yaşadıqları bu cür narahatlıq və qorxularla iman etməmələrinin cəzasını hələ dünyada olarkən almağa başlayırlar.

## Din əxlaqı insanların təkəbbürlü olmalarına mane olar

Quranın bir çox ayəsində Allah təvazökarlığı əmr edir, lovğalığı və təkəbbürlülüyü sevmədiyini bildirir. Buna görə də bir mömin üçün təvazökar olmaqdan başqa variant yoxdur.

Ancaq din əxlaqını yaşamayan bir insandan təvazökarlıq gözləmək də mənasızdır. Bu cür insanlar biliklərindən, mallarından, vəzifələrindən, zəkalarından, mədəniyyətlərindən və sahib olduqları hər şeydən ötrü lovğalanar və digər insanları aciz görərlər. Olduqları mühitdə həmişə ən seçilən, ən fərqli, ən ağıllı, ən güclü, ən üstün və ən diqqət çəkən adam olmaq istəyərlər. Bir gün ölümün mütləq gələcəyini və sahib olduqları hər şeyi bu dünyada qoyub gedəcəklərini, öyündükləri bədənlərinin, gözəlliklərinin torpaq altında çürüyəcəyini ağıllarına belə gətirməzlər. Bu insanlar üçün əsas meyar, qürurdur. Qürur onlar üçün sanki bir şəxsiyyət ifadəsidir.

Qürurları üzündən heç kimə həqiqi mənada sevgi və hörmət göstərə bilməzlər, çünki bunu da qürur mövzusu olaraq görərlər. Başqalarından sevgi, hörmət gözləyərlər, amma özləri bunu etsələr alçalacaqlarını düşünərlər.

Din əxlaqını yaşamayan insanların həyatlarının əsasında “mən” ifadəsi durur. Həmişə digər insanları idarə etmək istəyərlər, hər şeyin ən doğrusunu düşündüklərini zənn edərlər, hər fürsətdə digər insanları əzməyə, alçaltmağa çalışırlar. Ən əhəmiyyətlisi də bu cür insanlar istisna təşkil etməzlər, əksinə din əxlaqının yaşanmadığı bir cəmiyyətdə olduqca geniş yayılmışdırlar.

Quranda qürur mövzusunda çox həssas bir ölçü verilmişdir:

**Yer üzündə təkəbbürlə gəzmə. Çünki sən nə yeri yara bilər, nə də yüksələrək dağlara çata bilərsən. (İsra surəsi, 37)**

Başqa bir ayədə də, Allah belə öyüd-nəsihət verir.

**İnsanlardan təkəbbürlə üz çevirmə, yer üzündə özünü darta-darta gəzib dolanma. Həqiqətən, Allah heç bir özündən razını, özünü öyəni sevmir. (Loğman surəsi, 18)**

Din əxlaqını yaşamayan bəzi insanlar, “mən təvazökar bir insanam, bu kateqoriyaya daxil deyiləm” deyərək özlərini aldada bilər. Ancaq Quranda bildirilən

həyatın hər anına, adamın bütün davranışlarında əks olunan bir təvazökarlıqdır. Özü və sahib olduqları da daxil olmaqla, hər şeyin sahibinin və onları yaradanın Allah olduğunu, hər şeyin Allahın məlumatı və diləməsi daxilində baş verdiyini dərk etmiş insanların göstərdiyi təvazökarlıqdır. Bu insanlar da ancaq möminlərdir. Din əxlaqından xəbərsiz bir insan, möminlərin əxlaq və dünyagörüşündən çox uzaq bir xarakterə sahib olduğundan həqiqi mənada təvazökar olması qeyri-mümkündür. Quranda bildirildiyi şəkildə yaşanmadığı müddətcə göstərilən təvazökarlıq, bir göstəriş, riyakarlıq və ya acizlik psixologiyasından kənara çıxmayacaq.

Hər kəsin qürurlu olduğu bir cəmiyyətin nə dərəcə dözülməz və əzab dolu bir mühit olduğu aydındır. Lovğalıq etməkdə, eqoizmdə, zalımlıqda əlindəki imkan və fürsətlər daxilində heç bir hədd-hüdud bilməyən insanların meydana gətirdiyi bir cəmiyyətlə, hər kəsin bir-birinə qarşı təvazökar və sadə davrandığı bir cəmiyyət arasındakı uçurum din əxlaqının lazım olduğu kimi yaşanmamasından qaynaqlanır.

## Quran əxlaqı insanlardakı şəfqətsizliyi və mərhəmətsizliyi aradan qaldırır

Şəfqətli və mərhəmətli olmaq Allahın bir sifəti olduğu kimi, Onun qullarından da istədiyi bir əxlaq xüsusiyyətidir. Quranın bir çox ayəsində möminlərə şəfqətli və mərhəmətli olmaları məsləhət görülür.

Adamın Allahı razı salmaq, Rəbbimizin seçib bəyəndiyi dini yaşamaq kimi bir məqsədi olmadıqda gözəl əxlaqlı olmaq üçün də heç bir səy göstərməyəcək. Buna görə də bu kitabda başdan bəri izah edilən hər cür pis əxlaq xüsusiyyətini göstərməkdən də çəkinməyəcəkdir. Dinsiz cəmiyyətdə şəfqətsizlik hər sahədə və hər kəsə qarşı ortaya çıxar. Belə bir insan digər insanlara olduğu kimi, ən yaxınlarına, anasına, atasına, nənəsinə, babasına, qardaşlarına, qohumlarına belə şəfqətsiz davrana bilər. Onların səhvlərinə ya da insani qüsurlarına əsəbiləşib, danlayıb incidici davrana bilər. Şəfqət gözüylə baxmağı bilmədiyi üçün edilən hər rəftar bu insanı qəzəbləndirəcək.

Bu cür bir insan kasıb və ya miskin insanlara da heç bir mərhəmət göstərməz. Çünki bir anlıq ya da gündəlik mənfəətləri hər şeydən əhəmiyyətlidir. Belə bir anda başqalarını düşünməsindən söhbət gedə bilməz. Əlbəttə ki, bu insanların da özlərinə görə şəfqət anlayışları vardır, amma bu anlayışları səhv bir anlayışdır. Məsələn, yoldakı dilənçiyə yazıqları gələr, bunu böyük bir mərhəmət əlaməti kimi düşünərlər, amma əslində daha çox vicdanlı davranılması lazım olan, hətta şəxsən özlərinin fədakarlıq

etmələrini tələb edən bir vəziyyətdə öz mənfəətlərinin zərər görməməsi üçün biganə yanaşarlar. Məsələn, gözlərinin qabağında ciddi bir yol qəzası baş versə dayanıb, kömək etmək istəməzlər. Bunun üçün öz aləmlərində bir çox səbəbləri vardır. Bütün günləri hədər gedəcək, xəstəxanaya getmək üçün pul xərcləmələri və vaxt itirmələri lazım olacaq. Həmçinin tanımadıqları bir adam üçün belə səy göstərmək, onu daşımaq, fədakarlıq etmək çox mənasızdır. Çünki bunun əvəzində bir qazancları olmayacaq.

Məhz din əxlaqının yaşanmadığı bir cəmiyyətdə belə nümunələrə tez-tez rast gəlmək mümkündür. Bu vicdansız rəftarların yox olması isə ancaq Quran əxlaqının əskiksiz olaraq yaşanmasıyla mümkündür. İnsanların bir-birlərinə qarşılıqlı olaraq şəfqət və mərhəmət hissləri bəsləməsi, gözəl rəftarlar göstərməsi mövzusunda şövq içində olmaları ancaq din əxlaqının bəxş edə biləcəyi bir gözəllikdir. Amma bunu da qeyd etmək lazımdır ki, cəmiyyət içində istisna olaraq bəzi kəslərin belə üstün bir əxlaqı yaşaması kifayət etməz. Ya da insanların bəzi hadisələr qarşısında gözəl rəftarlar göstərib, bəzilərində isə Qurana uyğun olmayacaq şəkildə davranmaları, bəzi pis əməllərdən prinsip etibarilə çəkinib, bəzilərini heç düşünmədən etmələriylə də istənilən mühit meydana gəlməz. Həqiqətən dinc bir cəmiyyət həyatının varlığı, fərdlərin kütləvi halda Allahın əmr etdiyi kimi Quran əxlaqını yaşamaları və qarşılıqlı fədakarlıq göstərə bilən bir əxlaqa sahib olmalarıyla mümkündür.

### Din əxlaqı hər kəsin çıxış yolu tapan insan olmasını təmin edər

Quranda izah edilənlərə tabe olmaq insanlara hadisələrə çıxış yolu gətirə bilən, hər mövzuda ağıllı hərəkət edən bir xarakter qazandırar. Buna görə də din əxlaqını yaşayan bir insanın mövzu hər nə olursa olsun, həlli nə dərəcə qeyri-mümkün görünürsə görünsün mütləq bir həlli olar. Buna görə də din əxlaqının yaşandığı bir cəmiyyətdə heç vaxt həll edilməsi qeyri-mümkün olan bir maneə, həlli mümkün olmayan bir vəziyyətə rast gəlinməz.

Quran əxlaqı yaşanmadıqda, insan ağlından lazım olduğu kimi istifadə etmədiyindən, bir mömin üçün çox asan həll edilə biləcək mövzular başqaları üçün böyük problem meydana gətirər. Din əxlaqını yaşamayan insanların həyatlarının hər mərhələsi belə problemlərlə, dərdlərlə doludur. Problemlər həll axtarılmaqdan çox dözməyə vərdiş edilmiş və gündəlik həyatın normal bir parçası halına gəlmişdir. Çıxış yolu tapa bilməmək dindən uzaq insanların hər vəziyyətlərində öz əksini tapmışdır. Həmişə ümidsiz, şikayətçi bir xarakterləri vardır. Amma problemlərə çıxış yolu tapmaq

ağıllarına gəlməz. Gəlsə də çox məhdud düşündükləri üçün ümumiyyətlə ağıllı bir çıxış yolu tapa bilməzlər.

Həmçinin çıxış yolu tapa bilməmək din əxlaqından uzaq cəmiyyətlərdə sanki qanuni bir bəhanə olaraq qəbul edilir. İnsan məsuliyyətsizliyini, könülsüzlüyünü, biganəliyini və ağılsızlığını çıxış yolu tapa bilməməsinin arxasına gizlənərək gizlətməyə çalışar. Xüsusilə iş yerlərində hər kəs öz gördüyü işi çox mürəkkəb və çıxış yolu olmayan bir işmiş kimi göstərməyə çalışar. Beləcə, çox çətin bir iş görüldüyü təəssüratı verilər. Səhvlər, biganəliklər və müvəffəqiyyətsizliklər də bu şəkildə qanuniləşdirilməyə çalışılar.

Quran əxlaqından uzaq cəmiyyətlərdə mövzuların lazım olduğu kimi həll edilə bilməməsinin ən əhəmiyyətli səbəbi, hər kəsin öz fərdi problemlərinin belə öhdəsindən gələ bilməməsidir. Din əxlaqı yaşanmadığı təqdirdə nəfsinə itaət etməyə başlayan insan yalnız onun əmrlərini yerinə yetirməyə çalışacağı üçün, başqalarına və ya cəmiyyətə faydalı olma kimi bir qayğısı onsuz da olmayacaq. Hər vəziyyətdə və mühitdə nəfsinin mənfəətlərini güdməyə, bütün insanların mənfəətləri üçün isə ən az çətinlik çəkməyə, minimum dərəcədə zəhmət çəkməyə, malından xərcləməyə və məsuliyyət daşımağa istiqamətli düşünəcək.

Ortaq bir çıxış yolu axtarılan ən sadə bir mövzu belə, çox asanlıqla həll edilə biləcəyi halda həll edilə bilməz. Hər kəs özünü ön plana çıxarmaq, öz fikirlərini qəbul etdirmək, öz ideallarını təmin etmək, son sözü deyən olmaq kimi narahatlıq və gözləntilərlə hərəkət etdiyi üçün əsl mövzu heç cür həll edilə bilməz. Din əxlaqını yaşamayanların problemlərə çıxış yolu tapa bilməmələrinin əsasında duran aralarındakı ayrılıq və mübahisədən bir ayədə belə bəhs edilir:

**...Onların öz aralarındakı düşmənçilik isə çox kəskindir. Sən onların həmrəy olduğunu güman edirsən, halbuki onların qəlbləri dağınıqdır. Bu ona görədir ki, onlar ağlı kəsməyən adamlardır. (Həşr surəsi, 14)**

Televizordakı müxtəlif açıq havada keçirilən iclas proqramlarında bunun nümunələrini görmək mümkündür. Bir mövzu haqqında saatlarla, hətta bəzən səhərə qədər müzakirələr aparılar. Hər kəs höcətləşən bir ruh halına sahib olduğu üçün heç kim bir-birinin fikirlərini asanlıqla qəbul etməz. Heç kim başqa bir adamın fikrinin doğru olduğu qənaətinə gəlsə belə bunu qəbul etməyi qüruruna sığışdıra bilməydindən ötrü onun fikrinə qarşı çıxmağa, hətta o fikri əhəmiyyətsiz hesab etməyə çalışar. Çünki

vacib olan doğru olanın tapılması deyil, doğru olanı özünün deməsi, son nöqtəni özünün qoymasıdır. Mübahisəçilər öz bilik və təcrübələrini ön plana çıxaracaq bir çox ikinci dərəcəli söhbətlər etməyə başlayarlar. Çünki əsl məqsəd belə bir fürsət əldə etmişkən mümkün olduğu qədər özünü göstərə bilməkdir. Mübahisəçilər həmişə əsas mövzudan uzaqlaşarlar və saatlarla apardıqları mübahisədən sonra da heç bir irəliləyiş əldə edə bilmədiklərini, heç bir çıxış yolu tapa bilmədiklərini görərlər. Əksinə daha da başqa həlli mümkün olmayan problemlər, ixtilaflar, fikir ayrılıqları yaranmış olar. Onsuz da hələ ən başda məqsədləri çıxış yolu tapmaq deyil. Əhəmiyyətli olanın mübahisə etmək, danışmaq, hər kəsin fikrini deməsi olduğu kimi boş fəlsəfələrə yiyələnər və özlərinə təsəlli verərlər. Mübahisə edilən mövzulara isə hələ də heç bir çıxış yolu tapılmamış olmasında, əsl məqsədindən uzaqlaşmış olmasında bir qəribəlik görməz, hətta bunu çox normal qarşılayarlar.

Möminlər isə etdikləri hər şeyə Allaha hesab verəcəklərini bildikləri üçün hər vəziyyətdə ən ağıllı, ən vicdanlı və ən düşüncəli rəftarları göstərər, ən münasib qərarları verər, ən doğru həlli taparlar. Quranın özlərinə qazandırdığı üstün əxlaq, yüksək məsuliyyət duyğusu və incə düşünmə qabiliyyəti istiqamətində hərəkət etdikləri üçün problemləri çox tez həll edər, heç bir məqamda ilişib qalmazlar. İşləri aralarında məsləhətləşərək, bir-birlərinin ağıllarından istifadə edərək həll edərlər. (Şura surəsi, 38) Hər mövzuda Allahın ən çox razı qalacağı ən yaxşı seçimi edərlər. Öz nəfslərinin xoşuna gəlməsə, şəxsi mənfəətlərinə zidd olsa belə, haqdan, ədalətdən, ən doğrusunu etməkdən imtina etməzlər.

Yalnız Allaha ibadət etdikləri və hər şeyin əvəzini yalnız Allahdan gözlədikləri üçün, gördükləri işlərdə insanların razılığını və rəğbətini qazanmaq, ön plana çıxmaq, etibar qazanmaq, təqdir görmək, diqqət çəkmək, göstəriş etmək kimi sadə rəftarlara tənəzzül etməzlər. Buna görə də gördükləri işlərdə, verdikləri qərarlarda həmişə Allahın dəstəyini, köməyini və bərəkətini görərlər.

Allahdan qorxduqları üçün haqla nahaqqı ayırd edib (Ənfal surəsi, 29) ən doğru qərarı və həlli taparlar. Yenə Allahdan qorxduqları üçün Allah onlara **"...çıxış yolu" (Talaq surəsi, 2)** göstərər və **"işini asanlaşdırar". (Talaq surəsi, 4)**

### Din əxlaqını lazım olduğu kimi yaşayan insanlar təvəkküllü olarlar

Allaha təslim olmaq istəməyən, din əxlaqını yaşamayan, bundan ötrü də ruh hallarında həmişə üsyankarlıq, pessimizm və ümidsizlik hakim olan insanlar başlarına

gələn hər cür hadisəni təsadüflərin nəticəsi olaraq qiymətləndirərlər. Bütün həyatları boyu da bu dünyagörüşünün gətirdiyi etibarsızlıq, narahatlıq və inamsızlığın gərginliyini yaşayarlar. Möminlərdə olduğu kimi, hər vəziyyətdə Allaha etibar etməyin və bütün hadisələrin Allahın müəyyənləşdirdiyi bir taleyə əsasən baş verdiyini bilməyin üstünlüyünü yaşaya bilməzlər. Xeyir, ya da şər olsun, hər şeyin Allahın diləməsiylə, insanların imtahan olunması üçün yaradıldığını və hər cür hadisədə Allahın bildirdiyi şəkildə davrandıqlarında təqdirdə hüzura qovuşacaqlarını bilməzlər. Özləri üçün dinsizliyi seçmiş olmağın əzabını beləliklə, kiçik-böyük hər hadisədə yaşayarlar.

Bu insanlar yaşadıqları hər hadisəyə həddindən artıq əhəmiyyət verər, gündəlik və sadə hadisələri böyüdüb, dünyanın ən əhəmiyyətli məsələsiymiş kimi düşünərlər. Buna görə də işlər öz planladıqları ya da istədikləri kimi getmədikdə isə dərhal yaxşı gözlə qiymətləndirməzlər. Dərhal pessimizmə qapılıb, ümidsizliyə düşərlər, bunu başlarına gələn bir fəlakət kimi görər və heç cür çıxış yolu tapa bilməzlər. Başlarına pis kimi görünən ani bir hadisə gəldikdə xeyli kədərlənər, ağlayar, üsyan edərlər. Allaha təslim olmadıqları üçün hər şeyin Onun nəzarətində olduğunu da dərk edə bilməzlər.

Gündəlik hadisələrin gedişinə görə dəyişkən bir ruh halı yaşayarlar. Bu yaşayış içində onların kədərlənmələrinə, narahat olmalarına, depressiyaya düşmələrinə səbəb olacaq xeyli təfərrüat vardır. Bütün günləri və hətta ömürləri bu tip kədər və şikayətlənmələrlə keçər. Bu təvəkkülsüzlüklərini anlıq hadisələrlə yanaşı, həyatları boyu qarşılaşdıqları hər vəziyyətdə görmək mümkündür.

Məsələn, bir ev qadını üçün evi, ailəsi və evdə görməsi lazım olan işləri dünyanın ən mühüm mövzularıdır. Əgər bu mövzularda axsaqlıq kimi görünən, həll edə bilmədiyi bir vəziyyət yaranarsa, bunun Allahın nəzarəti altında baş verdiyini və özü üçün mütləq xeyirli olduğunu heç vaxt düşünə bilməz. Başına gələn ən kiçik hadisədə şikayətlənməyə, deyinməyə başlayıb, sıxıntılı bir ruh halına sahib olar. Halbuki, bu dərəcə sıxıldığı şey ən çoxu mətbəxdə unudub yandırdığı bir yemək və ya tozsorandakı bir problemdən başqa bir şey deyil. Ancaq Allaha təslim olmadığı və din əxlaqını da yaşamadığı üçün ən sadə problemlər belə ona böyük bir əzab vəsiləsi olur.

Eyni zehniyyət, bu ev qadının böyük bir holdinqdə menecer olan və işləriylə əlaqədar bəzi problemləri olan əri üçün də məqbuldur. Ona görə də arvadının evdə məşğul olduğu işlərin, dərd çəkdiyi çətinliklərin heç bir əhəmiyyəti yoxdur, hamısı kiçik şeylərdir. Ancaq öz işləri həm çox əhəmiyyətli, həm də vacib mövzulardır. Bu mövzularda yaranan problemlərə yaxşı gözlə baxıb, hər şeyin Allahın nəzarəti altında olduğunu düşünmədiyi üçün də psixoloji cəhətdən böyük sıxıntılara düşər. Eyni

vəziyyət din əxlaqını yaşamayan uşaqları üçün də məqbuldur. Onlar da bütün dünyanın getdikləri məktəbdən ibarət olduğunu düşündükləri üçün 10-15 illik məktəb həyatları boyu heç cür rahat ola bilməzlər. Bir imtahanları yaxşı keçdisə digərinin pis keçməsi bədbəxt olmaları üçün kifayətdir. Həmçinin dostlarıyla olan əlaqələri, onlar arasında axtarılan, bəyənilən bir adam olub-olmamaları kimi mövzular da sıxıntıya düşmələrinə səbəb ola biləcək hadisələrdir. Analarından, atalarından və ətraflarından pessimizmi, ümidsizliyi, çıxış yolunun olmamasını və həmişə şikayət etməyi öyrənmişlər. Artıq bu ruh halı onlara hakim olmuşdur. Halbuki, bu ruh halının yeganə səbəbi din əxlaqını yaşamamaları, Allahı tanımamaları və Ona etibar etməmələridir.

Din əxlaqını yaşamayan cəmiyyətlərdən misal çəkdiyimiz bu insanların hər biri necə ki, dünyanın ən əhəmiyyətli problemlərinə sahib olduqlarını düşünüb, çıxış yolları axtarır, amma həmişə ümidsizlik və pessimizm içində yaşayırlarsa, bu cəmiyyətin daha yuxarı vəzifələrində və məqamlarında olan insanlar da qarşılaşdıqları vəziyyətlərdə eyni pessimist ruh halını yaşayırlar.

Halbuki, hər şey Quranda göstərilən çıxış yolları istiqamətində qiymətləndirilsə və ən pis görünən hadisədə belə Allahdan gələn bir xeyir olduğu yaddan çıxarılmasa, insanları ümidsizliyə sövq edən bir mühit meydana gəlməz. Quran əxlaqı Allahın bildirdiyi şəkildə yaşansa insanların bütün bədbinlikləri, acizlikləri yox olar. Kiçik-böyük hər mövzuya, başlarına gələn hər hadisəyə yaxşı gözlə baxar, bunlardan özlərinə xeyir və nəsihətlər çıxararlar. Həm insanların şəxsi həyatlarına, həm də cəmiyyət həyatına hüzur hakim olar.

Din əxlaqı lazım olduğu kimi yaşandıqda isə heç kim hadisələri təsadüf gözüylə qiymətləndirməz. Hər kəs hər hadisəni Allahın müəyyənləşdirdiyi tale çərçivəsində qiymətləndirib, onlarda gizlənmiş yaradılış hikmətlərini, Allahın bu hadisələr vasitəsiylə insanlara verdiyi ibrəti başa düşməyə çalışar. Buna görə də din əxlaqı yaşandıqda heç kim kaş ki deməz; “Kaş ki, dünən getsəydim, onda başıma bunlar gəlməzdi... Əgər bu məktəbə getməsəydim, onda Amerikaya gedə bilərdim... Kaş ki, yarım saat əvvəl gəlsəydiniz, onda o bəyi görərdiniz... Kaş ki, bu yoldan getməsəydik, çünki yol çox uzunmuş... Kaş ki, səninlə evlənməsəydim, onda cavanlığım hədər getməzdi... Kaş ki, bu paltarı geyməsəydim, onda bütün gecə rüsvay olmazdım... Kaş ki, çölə çıxmasaydım, onda xəstələnməzdim... Kaş ki, gecə yola çıxmasaydı, onda başına bu qəza gəlməzdi... Kaş ki, başqa həkimə getsəydi, onda daha tez sağala bilərdi... Kaş ki, o təyyarədə olmasaydı, onda ölməzdi...“ kimi cümlələr işlətməz. Dünya həyatları boyu Allahı unudaraq, dinə əhəmiyyət verməyərək yaşayan insanlar həyatlarını həmişə “kaş

ki”lərlə keçirdikləri üçün axirətdə də onları, kaş ki, deyəcəkləri başqa mövzular gözləyir. Amma, əlbəttə ki, işlətdikləri bu kaş ki ifadələri onlara heç bir fayda verməyəcək:

**Odun üzərində dayandırıldıqları vaxt onların: “Kaş ki, bizi dünyaya qaytaraydılar! Onda biz Rəbbimizin ayələrini yalan saymayıb möminlərdən olardıq” – dediklərini görəydin! (Ənam surəsi, 27)**

# DİNSİZLİYİN İNSAN ÜZƏRİNDƏKİ TƏXRİBATLARI

Bir cəmiyyətdəki fərdlərin din əxlaqını yaşamamaları nəticəsində ruhi və fiziki cəhətdən çox güclü sarsıntılar meydana gəlməsi qaçınılmazdır. Bu hissədə dinsizliyin insanda əmələ gətirdiyi maddi və mənəvi sarsıntılara toxunacağıq.

Din əxlaqını yaşamayan insanların Allaha təvəkkül edib təslim olmamaları həyatlarını həmişə kədər, sıxıntı və stress içində keçirmələrinə səbəb olar. Buna görə də bir çox psixoloji xarakterli xəstəliyə tutularlar, bədənləri çox sürətlə qocalar, qısa müddətdə yaşlanıb çökərlər. Ruhi cəhətdən yaşadıqları sıxıntının təsiri bədənlərinin hər yerində özünü göstərər.

Ən sağlam, görkəmli, gənc və gözəl bir insan belə bu təsirlərdən ötrü qısa bir müddət sonra tanınmayacaq hala gələ bilər. Gənc yaşlarda, həmyaşıdları olan möminlərdə müşahidə olunmayan fiziki pozğunluqlar onlarda əmələ gəlməyə başlayar, gözləri donuq və cansız olar, saçları çox tökülər, tutqun və seyrək olar, kişilərdə keçəllik daha sıx müşahidə olunar. Psixoloji vəziyyətlərinin bir nəticəsi olaraq dəriləri qalınlaşar və sərtləşər, qısa müddətdə öz elastikliyini itirər. Dərilərinin rəngi çirkli bir sarı və ya tutqun bir rəng alar ki, belə ki, bu da onlar üçün alçaldıcı bir görünüşdür. Şübhəsiz ki, bunda Qurandakı təmizlik anlayışının yaşanmamasının təsiri də böyükdür. Bunlar Quran əxlaqının yaşanmadığı və yol göstərici olaraq mənimsənilmədiyi cəmiyyətlərdə çox adamda görülən xüsusiyyətlərdir, hər kəsdə o qədər geniş yayılmışdır ki, artıq normal qarşılanan hala gəlmişdir. Buna görə də dinsiz bir mühiti seçmələrinin qarşılığını hələ dünyada olarkən görərlər, amma, əlbəttə ki, bunun bir də axirətdəki qarşılığı vardır.

Möminlər isə psixoloji cəhətdən sağlam olduqları, heç vaxt kədərlənmədikləri, stress və ümidsizliyə düşmədikləri üçün bədənləri də sağlam və gümrah qalar. Allaha təvəkkül etmələrinin, etibar etmələrinin, hər şeyə yaxşı gözlə baxmalarının, Allahın özlərinə verdiyi gözəl vəd və müjdələrinin sevincini həmişə qəlblərində daşımalarının müsbət təsiri bütün fiziki xüsusiyyətlərində də öz əksini tapmışdır. Əlbəttə ki, bu vəziyyət, dini tam mənasıyla qavrayan və vicdanından tam istifadə edərək, Quran əxlaqını haqqıyla yaşayan kəslər üçün məqbuldur.

Əlbəttə ki, onlar da xəstəliklərə tutular və normal olaraq yaşlanarlar, ancaq bu digər insanlar kimi psixoloji cəhətdən bir sarsıntı şəklində baş verməz. Xəstəlik, yaşlanma və ölüm, şübhəsiz ki, bütün insanlar üçün məqbuldur. Lakin bütün bunların sürətli, güclü və dağıdıcı olması din əxlaqından uzaq bir həyat və düşüncə tərzinin

qazandırdığı mənfi psixologiyayla birbaşa əlaqəlidir. Bütün həyatını Allaha sığınaraq, Ona etibar edərək, hər hadisədə bir xeyir axtararaq, dinc və xoşbəxt keçirən bir insan kədər və çətinliklərdən uzaq olacağı üçün bədəninin görəcəyi zərərlər də normal olaraq daha az olacaq.

Din əxlaqını yaşamayan bir cəmiyyət, mənəvi baxımdan dinin təqdim etdiyi rahatlığı və hüzuru heç cür əldə edə bilməməyə, həm psixoloji, həm də fiziki cəhətdən bəzi çətinliklərlə qarşılaşmağa məhkumdur. Cəmiyyət bunun nümunələriylə doludur.

Müasir dövrdə əsrin xəstəlikləri olaraq adlandırılan iki şey vardır: Stress və depressiya. Bu iki xəstəlik adama yalnız psixoloji cəhətdən zərər verməklə kifayətlənməyib, bədənində də fiziki cəhətdən müxtəlif təsirlərlə özünü göstərir.

Stress və depressiyaya bağlı olaraq meydana gələn narahatlıqların əsas olanları, bəzi ruhi xəstəliklər, narkotik maddə asılılıqları, yuxusuzluq, dəri, mədə, təzyiq xəstəlikləri, soyuqdəymə, miqren, sümüklərlə əlaqədar bəzi xəstəliklər, böyrək çatışmazlığı, tənəffüs pozğunluqları, allergiyalar, infarkt, beyində böyümə meydana gəlməsi kimi problemlərdir. Əlbəttə ki, bütün bu xəstəliklərin meydana gəlmə səbəbi, həmişə stress və ya depressiya olmaya bilər. Lakin elmi olaraq da isbat edildiyi kimi bunların əmələ gəlməsi səbəbi çox vaxt psixoloji qaynaqlıdır.

Quran əxlaqının hakim olduğu bir həyat isə özüylə birlikdə təvəkkülü, tale inancını gətirdiyi üçün adam rahat olar, hər şeydə yalnız Allahı vəkil tutar, hadisələr qarşısında ən yaxşı şeyi, Allahın ən çox bəyəndiyi və razı olduğu davranışı göstərər. Bunun nəticəsində artıq nə olursa olsun, əlindən gələnin ən gözəlini etmiş olduğu üçün vicdanı rahatdır. Ən pis nəticəylə belə qarşılaşsa bunun Allahdan gələn bir imatahan olduğunu və Quranda təsvir edilən şəkildə reaksiya verməsinin, qiymətləndirməsinin lazım olduğunu bilir. Qətiyyən kədərlənməz, ümidsizliyə və stressə qapılmaz. Çünki həqiqi məqsədi axirətdir və əhəmiyyətli olan da sonsuz axirət mükafatını qazanmaq üçün lazım olduğu kimi hərəkət etməsidir. Allaha olan güclü inancından ötrü, heç bir hadisədən, heç bir mənfi haldan təsirlənib zəifləməz, daim rahat və gümrah olar. Buna görə də bu ruhi və psixoloji sağlamlığı, fiziki sağlamlığına da öz müsbət təsirini göstərər.

Məhz Quran əxlaqını yaşamaqla yaşamamaq arasındakı böyük fərqlərdən biri budur. İnanmayanlar dünyada yaxşı yaşaya bilmək, çox sevdikləri, dəyər verdikləri bədənlərini bu qısa dünya həyatında çox yaxşı qoruyaraq, ondan dünya ehtirasları üçün istifadə etmək istəyərlər. Bu yolla xeyir qazanacaqlarını düşünərlər. Amma aldanırlar. Quran əxlaqını yaşamamaqla, nəinki xeyir qazanmaq, hətta çox böyük ziyana düşərlər.

Axirətdəki böyük əzabdan əvvəl dünyada da bu şəkildə əzab çəkərlər. Onların din əxlaqını yaşamaqdan bacardıqca uzaq tutduqları bədənləri, heç gözləmədikləri, təsəvvürlərinə gətirmədikləri bir vaxtda bu şəkildə pozulmalara məruz qalar və çox vaxt bunları düzəltmək də mümkün olmaz.

Allah insanı din əxlaqını yaşamaq üçün yaratmışdır. Bu bədən Quran əxlaqının yaşandığı bir sistemə görə tənzimlənmiş, buna uyğun xüsusiyyətlərlə təchiz edilmişdir. Və bu bədəndən yaradılışına zidd şəkildə istifadə etdikdə maddi və mənəvi olaraq pozular, məhvə məhkum olar. Belə ki, insan ruhuyla bədəni əslində bir-biriylə çox yaxından əlaqəlidir. İkisini də Allah yaratmışdır və ikisinin də yaradılışlarına uyğun şəkildə istifadə edilmələri vacibdir.

Daha əvvəlki hissələrdə insan ruhunun, yaradılışına uyğun olmayaraq hərəkət etdikdə necə böyük fəlakətlərə məruz qaldığını, Allahın istədiyi gözəl əxlaq sistemini yaşamamasından ötrü hələ dünyada olarkən, necə böyük əziyyət çəkdiyini gördük. Eynilə bu insanlar bədən cəhətdən də güclü zərərlər çəkərlər. Bədənlə ruhun yaxın əlaqəsi aydın bir həqiqətdir. Cəmiyyətdə də bunun nümunələrinə tez-tez rast gəlinir. Çox şən, gümrah, dünyaya yaxşı gözlə baxa bilən, başlarına gələn hadisələrdə yaxşı bir cəhət tuta bilən, üsyana, pessimizmə qapılmayan insanların ümumiyyətlə, bədən cəhətdən də sağlam və gümrah olduqları, gec yaşlandıqları məlumdur. Buna görə də insanlara qəzetlərdə, jurnallarda hər fürsətdə gənc və sağlam qalmaları üçün xoşbəxt və gümrah bir həyat yaşamaları, gülərüzlü olmaları, optimist olmaları, tez qəzəblənməmələri istiqamətində çağırışlar edilər. Halbuki, diqqət yetirilsə bunlar onsuz da din əxlaqının yaşanmasıyla mümkün olan, dində tələb olunan xüsusiyyətlərdir. Quran əxlaqı tam olaraq mənimsənilmədən və yaşanmadan insanların bu ruh halına tam olaraq sahib olmaları qeyri-mümkündür.

### Din əxlaqı yaşanmadıqda stress qaçınılmazdır

İnsanlar arasında çox geniş yayılmış və "əsrin xəstəliyi" olaraq adlandırılan "stress" psixoloji mənşəli bir narahatlıqdır. Qorxu, etibarsızlıq, ümidsizlik, həddindən artıq həyəcan, işdən çıxarılma qorxusu, sağlamlığını və ya yaxınlarından birini itirmə narahatlığı kimi hisslərin bədəndə meydana gətirdiyi ümumi bir gərginlik vəziyyətidir.

İnsanlar stressə girdikləri vaxt, bədənləri buna reaksiya verər və həyəcan siqnalına keçər. Bədəndə müxtəlif biokimyəvi reaksiyalar başlayar. Bədən qandakı adrenalin səviyyəsini yüksəldər, enerji istifadəsi və bədən reaksiyaları maksimum səviyyəyə çıxar, şəkər, xolesterol və yağ turşuları qana buraxılar, həmçinin qan təzyiqi artar və ürək döyüntüsü sürətlənər.

Xüsusilə xroniki stress çox böyük zərərlərə səbəb ola bilər, bədən funksiyalarını dəyişdirər. Stress üzündən bədəndəki adrenalin və kortizon miqdarı anormal bir şəkildə yüksələr. Qlükoza beyinə yönləndirildikdə xolesterol miqdarı yüksələr, bu da bədən üçün təhlükə mənasını verər. Xroniki stress, ürək xəstəlikləri, hipertoniya, xora, depressiya, tənəffüs xəstəlikləri, ekzema və sədəf kimi dəri xəstəlikləri və digər bir çox sağlamlıq problemləriylə əlaqəlidir.

"Stress və stressin yaratdığı gərginlik və ağrı arasında əhəmiyyətli bir əlaqə vardır. Stressin səbəb olduğu gərginlik damarların daralmasına, başın müəyyən yerlərinə gedən qan dövranının pozulmasına və o yerə gedən qanın bir xeyli azalmasına gətirib çıxarar. Digər tərəfdən bir toxumanın qansız qalması bilvasitə ağrıya səbəb olar. Çünki, ehtimal ki, bir tərəfdən gərginləşmiş toxumanın daha çox oksigenə ehtiyac duyması, digər tərəfdən toxumanın onsuz da qeyri-kafi qanla qidalanması xüsusi ağrı reseptorlarını xəbərdar edər. Bu vaxt adrenalin və noradrenalin kimi stress vaxtı sinir sisteminə təsir edən maddələr də ifraz olunar. Bunlar da birbaşa və ya bilvasitə olaraq əzələlərin gərginliyini artırar və sürətləndirər. Beləcə ağrı gərginliyə, gərginlik narahatlıq hissi keçirməyə, narahatlıq hissi də ağrının şiddətlənməsinə gətirib çıxarar." (Acar Baltaş, Zuhal Baltaş, Stres ve Başa Çıkma Yolları, səh. 162)

Ancaq stressin gətirib çıxardığı ən ciddi xəstəliklərdən biri infarktdır. Araşdırmalar, aqressiv, təlaşlı, rəqabətçi insanlarındakı infarkt hallarının, bu davranışları az göstərən insanlardan daha çox olduğunu göstərir.

"Hipotalamusun başlatdığı simpatik sinir sisteminin həddindən artıq xəbərdar edilməsi, həmçinin həddindən artıq insulin ifraz olunmasına və buna görə də bu insulinin qanda toplanmasına səbəb olar. Məhz bu vəziyyət sağlamlıq baxımından həyati əhəmiyyət daşıyır. Çünki, xroniki damar xəstəliyinə gətirib çıxaran şərtlərin heç biri, qandakı artıq miqdardakı insulin qədər qəti və dağıdıcı bir rol oynamaz." (Acar Baltaş, Zuhal Baltaş, Stres ve Başa Çıkma Yolları, səh.159, Remzi Kitabevi, 15. basım)

Bu vəziyyət insan bədəninin normal tarazlığının xaricində fövqəladə bir vəziyyətdir. Bu fövqəladə vəziyyətin davamlılıq göstərməsi bədənin normal tarazlığını

və sağlamlığını pozar, çox müxtəlif narahatlıqlara gətirib çıxarar. Mütəxəssislər stressin insan bədənindəki mənfi təsirlərini aşağıdakı əsas maddələr halında toplayırlar:

Narahatlıq və təşviş: İşlərin nəzarətdən çıxdığı hissinə qapılmaq.

Tərləmə: Davamlı artan tərləmə, tez-tez vanna otağından istifadə etmək istəyi.

Səs dəyişməsi: Kəkələmə, titrəyərək danışma.

Hiperaktivlik: Ani enerji partlayışları, zəif diabet nəzarəti.

Yatmaqda çətinlik çəkmək: Kabus görmək.

Dəri xəstəlikləri: Sızanaq, civzə, hərarət, sədəf xəstəliyi və ekzema.

Mədə-bağırsaq simptomları: Mədə pozğunluğu, mədə bulanması, xora.

Əzələ təzyiqləri: Cırıldayan və ya kilidlənən dişlər, çənədə ağrı, kürək, boyun və çiyinlərdə ağrı.

Aşağı dərəcəli infeksiyalar: Soyuqdəymə və s.

Miqren

Güclü ürək döyüntüsü, sinə ağrısı, yüksək təzyiq.

Böyrək çatışmazlığı, su saxlama.

Tənəffüs pozğunluqları, təngnəfəslik.

Allergiyalar

Oynaq ağrıları

Ağız və boğaz quruluğu

Ürək tutması

İmmunitet sisteminin zəifləməsi

Beyin bölgəsində kiçilmə

Özünü günahkar hiss etmək, özünə etibarsızlıq

Düşüncə qarışıqlığı, doğru şərhlər edə bilməmək, yaxşı düşünə bilməmək, yaddaş zəifliyi

Həddindən artıq pessimistlik, hər şeyin pisləşəcəyinə inanmaq

Tərpənmədən bir yerdə durmaqda çətinlik çəkmək, mütləq temp tutmaq

Fikrini bir yerə cəmləşdirə bilməmək və ya cəmləşdirmədə çətinlik çəkmək

Əsəbilik, küsəyənlik

Məntiqsizlik

Özünü köməksiz, ümidsiz hiss etmək

Artan və ya azalan iştaha

Din əxlaqından uzaq və onun nemətlərindən xəbərsiz yaşayan insanlar, həmişə "stress" dediyimiz bu əzaba dözməyə məhkumdurlar. Düşüncələrini, həyata və

hadisələrə qarşı olan baxışlarını dəyişdirmədikləri müddətcə də bundan xilas olmaları qeyri-mümkündür. Bu həqiqət, stresslə mübarizə mövzusunda mütəxəssislərin verdikləri tövsiyələrdən də aydın olur. Bu mövzuda tək bir nümunə vermək belə kifayətdir: Məsələn, Allahın Quran əxlaqında insanlara əmr etdiyi mövzulardan biri "qəzəbini boğmaqdır". Mütəxəssislər də stressə gətirib çıxaran əhəmiyyətli bir faktor olaraq gördükləri qəzəb haqqında bunları deyirlər:

Qarşınızdakı insan nə qədər təhrikedici olursa olsun sakitliyinizi itirməyin. Nə qədər haqlı kimi görünürsə görünsün (özünüzü müdafiə etmə zəruriliyi istisna olmaqla) güc tətbiq etməyin. *(Stres ve Başa Çıkma Yolları, səh. 289)*

Göründüyü kimi, gümrah və sakit bir xarakterə, rahat, etibarlı və narahatlıqlardan uzaq bir psixologiyaya sahib olunduğu təqdirdə bu tip xəstəliklər baş verməyəcək. Bu elmi bir həqiqətdir. Gümrah və rahat bir psixologiyanın ancaq Quranın yaşanması ilə mümkün olduğu da aydındır.

### Stressdən qaynaqlanan immunitet sistemi xəstəlikləri

Streslə, immunitet sistemi arasında yaxın bir əlaqə vardır. Fizioloji stress, immunitet sistemində ciddi bir təsir əmələ gətirər və immunitet sistemini zəiflətməyə çalışar. Stress altında olan beyin, bədəndə xolesterol hormonu ifrazını artırır və immunitet sistemini zəiflədir. Digər bir sözlə beyin, immunitet sistemi və hormonlar bir-birləriylə əlaqə saxlayırlar. Bu mövzuda mütəxəssislər belə deyir:

Psixoloji və ya fiziki stress mövzusundakı tədqiqatlar uzun müddət davam edən güclü bir stresslə qarşılaşıldığı vaxt hormonal tarazlığa bağlı olaraq immunitet cavabında bir azalma olduğunu ortaya qoymuşdur. Xərçəng də daxil olmaqla bir çox xəstəliyin yaranması və gücünün yaşanılan stresslərlə əlaqəli olduğu məlumdur. *(Stres ve Başa Çıkma Yolları, s.169)*

Elə buna görə də sağlam bir beyin, rahat və gümrah bir ruh halı bədənin ümumi sisteminin də güclənməsini təmin edər. Bu da xəstəlik əmələ gətirəcək səbəblərin ortaya çıxmasının qarşısını alar. Allaha iman edən, Quran əxlaqının qazandırdığı dünyagörüşünü və ruh halını yaşayan bir insanın, ruh sağlığı da, immunitet sistemi də güclü olar. Belə bir adam üçün hər şeyə, hər hadisəyə müsbət yaxınlaşmaq bir ibadətdir. Təvəkküllü və ümid dolu bir ruh halı Quranda möminlərə verilən öyüd-nəsihətdir, bir davranışdır. Qurana uyğun dünyagörüşü möminlərə axirət yurdunu qazanmalarına gətirib çıxardığı kimi onların dünyada da xoşbəxt, sağlam, şən və gözəl

bir həyat yaşamalarını təmin edər. Bu, Allaha yönələnlərə və dininə bağlananlara vəd etdiyi sonsuz nemətin dünyadakı bir hissəsidir. Əlbəttə ki, bu, imanlı bir insanın xəstəliyə tutulmayacağı ya da çətinliklərlə üzləşməyəcəyi mənasını verməz. Ancaq möminlər stress, mənəvi pozğunluq kimi bir vəziyyəti heç vaxt yaşamadıqları üçün digər insanlarla müqayisədə xəstəliklərə tutulma riskləri də daha aşağı olacaq.

Əhəmiyyətli bir nöqtəni də bildirmək lazımdır: Əlbəttə ki, insanlar din əxlaqını xəstəliklərə tutulmamaq üçün yaşamazlar. Amma insanların qarşılaşdıqları hadisələrdə Allaha təvəkkül etmələri, Onun əmr etdiyi din əxlaqını yaşamalarının bir nəticəsi olaraq ruhən və bədəncə sağlam bir hal ortaya çıxar. Yəni, möminlərin sağlam insanlar olmaları, güclü bir imana, mənəvi cəhətdən güclü insanlar olmalarıyla əlaqədar olaraq yaranan bir vəziyyətdir.

Nəticə etibarilə, bu gün XXI əsr insanı daha çox ziyana uğramadan fitrətinə (yaradılışına) qayıtması və din əxlaqını yaşaması lazımdır. Əks təqdirdə həm dünyada, həm də axirətdə ziyana uğrayan məhz özü olacaq. Dünyada yaşadığı psixoloji və mənəvi çətinliklərlə yanaşı bədən sağlamlığını da itirən belə bir insan Quran əxlaqını yaşamamasından ötrü sonsuz həyatını çox böyük çətinliklərlə keçirmək məcburiyyətində qalacaq. Möminlər isə onlarla müqayisədə Allaha olan sədaqətləri və din əxlaqına olan bağlılıqlarından ötrü həmişə qazanclı olaraq nemətlər və xoşbəxtlik içində yaşayacaqlar.

# İCTİMAİ PROBLEMLƏR DİN ƏXLAQININ YAŞANMASIYLA HƏLL OLUNAR

Daha əvvəlki hissələrdə din əxlaqı yaşanmadığı təqdirdə insanların necə bir ruh halına və xarakter xüsusiyyətlərinə sahib olduqlarını və bunun nəticəsində ortaya çıxan insan modellərini təfərrüatlı olaraq gördük. Bu hissədə isə din əxlaqını yaşamağa başlayan bir cəmiyyətdə əsrlərdir hakim olan sosial yaraların necə bir-bir ortadan qalxdıqlarını görəcəyik.

**Hər cür əxlaqi degenerasiya bitər**

Din əxlaqının yaşanmadığı cəmiyyətlərin ən diqqətə çarpan xüsusiyyəti cəmiyyətdə əxlaqi degenerasiyanın hakim olması və bunun hər keçən gün durmadan artmasıdır. Bu cəmiyyətlərdə Quran hökmləri, Allah rizası və ya Allah qorxusu kimi dəyərlər yaşanmadıqdan ötrü, bu degenerasiyanın qarşısını alacaq heç bir məhdudiyyət yoxdur. Hər nə qədər cəmiyyətlərdə adət-ənənələrin, insanlar və ya rəhbərlər tərəfindən tətbiq olunan ictimai qaydalar müxtəlif qabaqlayıcı təsirləri göstərsə də, bu qaydalar insanlar tərəfindən çıxarılmış olduğundan və təməllərində Allah qorxusunun olmamasından ötrü insanların vicdansız, mərhəmətsiz və qeyri-insani davranmalarının qarşısını ala bilmir.

Məsələn, əxlaqsızlıq edən bir insanın daha da əxlaqsız olmaması üçün heç bir səbəb yoxdur. Bir iş yeri sahibini düşünün. Əgər bu adam Allaha inanmır və Ondan qorxub çəkinmirsə onsuz da vicdansızlığa qərar vermiş və ən kiçik fürsətdə bunu tətbiq etməyə hazır vəziyyətə gəlmiş bir adamdır. Çünki bir insanın özünü yaradan varlığa itaət etməməsi, Onun verdiyi nemətləri görə bilməməsi və Onun əmrlərinə, qadağalarına qarşı çıxması onsuz da vicdansızlıqların ən böyüyüdür. Belə bir insanın iş yerində işlətdiyi kəslərə qarşı pis rəftar göstərməsi, əsəbiləşib təhqir etməsi, onları ən az pulla ən çox müddətdə və ən çox əməklə işlətməsi öz vicdanına görə olduqca normal bir davranış olacaq. Birlikdə iş gördüyü kəsləri və ya şirkətləri əlinə imkan keçdikdə dolandırmaması, öz şirkətini böyüdüb gücləndirmək, daha çox pul qazanmaq üçün qanunsuz işlərə əl atmaması üçün özünü vicdani cəhətdən məsuliyyətli edəcəyi bir səbəb isə olmayacaq.

Əvvəldə də toxunduğumuz kimi ilahi qanunlar əsas götürüldükdə əxlaqi dəyərlər hər kəsə görə dəyişəcək. Birinə görə çox böyük əxlaqsızlıq olan bir mövzu digərinə görə normal bir hal kimi görünə bilər. Buna görə də din əxlaqının yaşanmadığı cəmiyyətlərdə əxlaqi dəyərlər adamdan adama, yaşdan yaşa, bölgədən bölgəyə,

şəhərdən, ölkədən və cəmiyyətdən cəmiyyətə də dəyişir. Tək bir dəyər mühakiməsi olmadığından ötrü cəmiyyətdə tez-tez əxlaqi ölçülərdə mübahisələr, qarşıdurmalar yaşanır. Hər yeni nəsil əvvəlki nəslə görə əxlaqi dəyərlər baxımından daha da korlanmışdır.

Ancaq burada əhəmiyyətli olan məqam əxlaqi degenerasiyada daima sürətlə artan bir inkişaf olmasıdır. Cəmiyyətlər, Allah inancları əskik olduğundan ötrü hər il daha da korlanır, bir il əvvəl cəmiyyətdən çox pis kimi görünən bir hərəkət və ya anlayış, bir il sonra cəmiyyətin bütün fərdləri tərəfindən normal qarşılanmağa başlanır. Lakin, bu, əlbəttə ki, o cəmiyyətə böyük ziyan vurur, dinsizliyin gətirdiyi pis əxlaq hər keçən gün daha da güclənir. Maraqlı olan budur ki, əxlaqsızlıq müasirlikmiş kimi göstərilməklə cəmiyyətə bu istiqamətdə təlqin edilməsidir. “Müasir cəmiyyətin XXI əsr insanı azad, rahat və sərbəst olmalıdır” şəklində bir anlayış, dinsiz ideoloqlar tərəfindən cəmiyyətlərə yerləşdirilir.

Əxlaqsızlığın yaşı hər gün daha da azalarkən, edilən əxlaqsızlıq növləri də çoxalır. ABŞ və Avropada uşaq qatillərinin sayında əhəmiyyətli bir artım mövcuddur. Uzaq Şərq ölkələrində də uşaqlar kiçik yaşlardan etibarən özlərini insan alverinin ortasında tapır, hər cür pozğun əlaqəyə vasitə olurlar. 80-ci illərdə cinsi pozğunluqlar heç kimin ağzına belə ala bilmədiyi utanılacaq ifadələr olduğu halda, indiki vaxtda bu cür əlaqələr normal qarşılana bilir, bu əxlaqsızlıqları edənlərə qarşı rəğbət bəslənilir, bunlara qarşı çıxanlar isə müasir olmamaqla (mürtəce olmaqla) ittiham edilir. Dinsiz cəmiyyətlərdəki insanların bu səyləri ayədə belə təsvir edilir:

**Möminlər barəsində iyrənc şayiələrin yayılmasını istəyənlər üçün dünyada və axirətdə acılı-ağrılı bir əzab vardır. Allah bilir, siz isə bilmirsiniz. (Nur surəsi, 19)**

Bunun əvəzinə din əxlaqı yaşansa əxlaqi degenerasiyanın baş verməsi qeyri-mümkün olar. Hər şeydən əvvəl insanlar Allahdan çox qorxduqları üçün onsuz da əxlaqsızlıq etməyə cəhd etməzlər. Bunun üçün isə Quranın hökmlərinə tabe olmaları kifayətdir. Məsələn, aşağıdakı ayədə Allahın istədiyi əxlaqi dəyərlər çox aydın olaraq bildirilir:

**Həqiqətən, Allah ədalətli olmağı, yaxşılıq etməyi və qohumlara haqqını verməyi əmr edir, iyrənc işlər görməyi, pis əməllər törətməyi və azğınlıq etməyi isə qadağan edir. O sizə öyüd-nəsihət verir ki, bəlkə düşünüb ibrət alasınız. (Nəhl surəsi, 90)**

Yuxarıdakı və bənzər ayələrdəki hökmləri bilən möminlərin bu hökmlərdən kənara çıxması qeyri-mümkündür. Buna görə də inanmış insanlardan ibarət olan bir cəmiyyətdə əxlaqsızlığın olması və yaşanması qeyri-mümkündür.

Bundan başqa istisna hallarda insanlardan qaynaqlanan bir xəta olsa, buna da digər möminlər göz yummayacaqları üçün yenə əxlaqsızlıq yaşanmayacaqdır. Üstəlik, cahil cəmiyyətində olduğu kimi insanların əxlaqsız hərəkətlərə sövq edilməsindən və yayılmasından söhbət belə gedə bilməz. Çünki möminlərin ən əhəmiyyətli xüsusiyyətlərindən biri də ayələrdə tez-tez ifadə edildiyi kimi bir-birlərinə yaxşı əməlləri əmr edib, pis əməlləri qadağan etmələridir:

**Mömin kişilərlə mömin qadınlar bir-birinin dostlarıdır. Onlar insanlara yaxşı işlər görməyi buyurur, pis əməllərə qadağa qoyur, namaz qılır, zəkat verir, Allaha və Onun Elçisinə itaət edirlər. Allah onlara rəhm edəcəkdir. Həqiqətən, Allah Qüdrətlidir, Müdrikdir. (Tövbə surəsi, 71)**

Bu halda Quran əxlaqının yaşandığı bir cəmiyyət əxlaqi cəhətdən olduqca seçilən olar. Çünkü möminlər xeyirxah işlər görməyə tələsirlər (Ali İmran surəsi, 114) və yaxşı iş görürlər (Fussilət surəsi, 33) sözə qulaq asıb onun ən yaxşısına tabe olurlar. (Zumər surəsi, 18) Allah Quranda dini yaşayan insanlardan meydana gələn bir cəmiyyətin bu xüsusiyyətlərindən belə bəhs edər:

**Siz insanlar arasında üzə çıxarılmış ən xeyirli ümmətsiniz. Siz yaxşı işlər görməyi əmr edir, pis əməlləri qadağan edir və Allaha iman gətirirsiniz... (Ali İmran surəsi, 110)**

Şübhəsiz ki, belə bir cəmiyyətin əxlaqi cəhətdən dini yaşamayan cəmiyyətlərə görə nə qədər üstün və heyrətamiz olduğu aydındır.

### Din əxlaqının yaşanmasıyla ailə daxili problemlər də aradan qalxar

Cəmiyyətlərin yaxşı bir sosial struktura sahib ola bilməsi, yaxşı bir ailə strukturuyla mümkündür. Ailə korlandığı təqdirdə cəmiyyətin korlanması da qaçınılmazdır. Bundan ötrüdür ki, dinsizliyi qanuniləşdirmiş ideologiyalar - kommunizm, sosializm və s.- əvvəlcə ailəni hədəf alarlar. Nikah, ananın dəyəri, gizlilik,

sədaqət, namus, iffət kimi dəyərləri yox etməyi qarşılarına məqsəd qoyarlar. Dinsiz cəmiyyətlərə istiqamət verən filosoflar və rəhbərlər bundan ötrü də bu dəyərləri əhəmiyyətsiz və dəyərsiz göstərəcək təlqinlər verirlər. Məsələn, əvvəllər nikahsız ailələr cəmiyyət tərəfindən rədd edildiyi halda, indiki vaxtda çox normal qarşılanan hal olmuşdur. Yenə nikahsız ailələrin yaşı elə azalıb ki, orta məktəb yaşındakı uşaqların arasında belə bu vəziyyətin çox yayıldığı məlumdur.

Cəmiyyət daxilində nikaha olan dünyagörüşü səhvdir. Gənc qızlar nikahı həyatlarını zəmanət altına alacaq bir sığorta kimi görərlər. Vəziyyət belə olduqda tək meyar maddiyyat olar. Bəzən buna vəzifə, xarici görünüş, ətraf mühit kimi xüsusiyyətlər də əlavə olunar. Ancaq ən əsas meyar puldur. Buna görə də cahil cəmiyyətindəki nikahların böyük hissəsində kişilərdə axtarılan xüsusiyyət mal və puldur. Pul, vəzifə, xarici görünüş kimi hər an, hər insanın asanlıqla itirə biləcəyi şeylər əsasında qurulan bir nikahın nə qədər sağlam ola biləcəyini başa düşmək üçün boşanma statistikalarına baxmaq kifayətdir. Çünki məlum olduğu kimi boşanmalarda ildən ilə bir artım müşahidə edilir.

Boşanmaya gətirib çıxaran səbəblərdən biri də kişilərin həyat yoldaşlarında axtardıqları xüsusiyyətlərdir. Məlum olduğu kimi ümumiyyətlə, kişilərin evlənərkən axtardıqları xüsusiyyətlərin başında gözəllik gəlir. Buna bir də qadının yaxşı bir təhsil alması və bacarıqlı olması da əlavə oluna bilər. Əlbəttə ki, iki tərəfin də axtardığı bu xüsusiyyətlərə sahib olmaq pis bir şey deyil, ancaq nikah kimi sağlam olmalı bir birlik yalnız bunlar əsasında qurulsa, bu xüsusiyyətlər itirildiyi vaxt bu nikahın pozulmasını seyr etməkdən başqa bir alternativ də qalmaz.

Halbuki, evlilikdə sədaqət, vəfa, sevgi, hörmət kimi anlayışlar çox əhəmiyyətlidir. Ancaq, insanları bir-birinə bağlayan din əxlaqının sağlam dəyərləri olmadan bu xüsusiyyətlər təmin edilə bilməz. Buna görə də dini dəyərlər olmadan belə bir nikahın pozulması çox asan olar.

Bu cür yanlış məntiqlər əsasında qurulan nikahlarda möhkəm bir özül olmamasından ötrü sevgi və hörmət qısa müddətdə yox olur və ər-arvad bir-birlərini tanımaz hala gəlirlər. Bu vəziyyət özüylə birlikdə gün keçdikcə artan döyüşlər, anlaşılmazlıqlar, ittihamlar da gətirər. Bir müddət sonra bu vəziyyət qəbul edilər və cəmiyyətdəki nikahların klassik pis dövrü başlanar. Doğan uşaqlar da bu mühitdə böyüdükcə psixologiyaları pozulur, ruh halı qeyri-sabit olan nəsillər meydana gəlməyə başlayır. Şübhəsiz ki, dinsiz cəmiyyətlərdə insanlar, ailələrində gördüklərinə müvafiq olaraq sevgi və hörmətdən uzaq bir xaraktерə sahib olarlar.

Din əxlaqını bir yol göstərici kimi qəbul etməyən cəmiyyətlərdə, ailə tərkibindəki pozğunqluqlar çox geniş olaraq görülər. Xüsusilə pulun ailə üzvləri arasındakı əlaqələrdə çox əhəmiyyətli bir rolu vardır. Bol pul verən bir kişi həyat yoldaşı tərəfindən həmişə çox sevilər və qayğı görər, eynilə pullu bir ata uşaq üçün əhəmiyyətli bir ünsürdür. Ancaq bu sevgi və qayğının nə qədər könüllü olduğunu ehtimal etmək çətin deyil. Ailə başçısının işlərinin pozulduqda və verdiyi pul azaldıqda isə ümumiyyətlə, bu sevgi və qayğı bitər, birdən-birə narazılıqlar başlayar. Pul üzündən tez-tez mübahisələr, davalar baş verər. Hər hansı bir iflas baş verdikdə yaxud da işlər pozulduqda isə adamın həyat yoldaşı tərəfindən tərk edilməmə zəmanəti yoxdur. Çox vaxt da bu cür vəziyyətlərdə dərhal boşanmalar müşahidə olunar. Məhz bu vəziyyət Quran əxlaqını yaşamamağın nəticələrindən biridir.

Cahil cəmiyyətin evliliyə olan bu dünyagörüşünə qarşı möminlərin evliliyə olan dünyagörüşləri çox fərqlidir. Onlar evliliyin sonsuza qədər sürməsi niyyətiylə evlənərlər, çünki öldükdən sonra özlərini sonsuz bir həyatın gözlədiyini bilirlər. Yoldaşlarını seçərkən ən əhəmiyyətli meyarları təqvalı olması, digər bir sözlə Allahın istədiyi Quran əxlaqını yaşamasıdır. Çünki digər bütün xüsusiyyətlərin keçici olduğunu bilirlər. Evlilik həyatı boyu hər iki tərəf də yeganə meyar olaraq Quranı əsas aldıqları üçün çox uyğun bir bərabərlik olar, əlaqələrində sevgi və hörmət hakim olar. Bir tərəf səhv etdikdə dərhal digər adam Quran əxlaqına dəvət edər və problem həll edilər. Çünki mömin olan bir adamın bu dəvətə əhəmiyyət verməməsi qeyri-mümkündür. Buna görə də Allahdan qorxan və iman sahibi insanların qurduqları evliliklər çox möhkəm olar.

Ailə dedikdə, yalnız ər-arvad arasındakı əlaqəni düşünmək də səhv olar. Din əxlaqının yaşandığı bir mühitdə uşaqlar ata-analarıyla və digər ailə böyükləriylə çox ehtiramlı və hörmət dolu rəftar edərlər. Sevgidə, hörmətdə qüsur olmaz. Dövrümüzdəki ailələrdə olduğu kimi evlərdə qışqır-bağır, hörmətsiz üslub və danışıqlar olmaz. Həmişə bir hüzur və sevinc hakim olar. Ailə mühitləri insanların qaça-qaça getmək istədikləri yerlər halına gələr. Uşaqlar ata-analarını himayədarları olaraq görər və sevərlər. Ailələr uşaqlarını Allahın bir əmanəti olaraq görər və qoruyarlar. Ailə dedikdə, ağıla mehribanlıq, sevgi, etibar, həmrəylik gəlir. Amma təkrar ifadə etməkdə fayda vardır ki, bu mükəmməl mühitə ancaq və ancaq din əxlaqının tam, əskiksiz və səmimi olaraq yaşanması, Allah qorxusu və sevgisinə sahib olmaqla nail oluna bilər.

### Cəmiyyətin fərdləri arasında sevgi və hörmət əlaqəsi meydana gələr

Dinsizliyin insanlar üzərindəki mənəvi təsirlərini izah edərkən bu insanların sevgini və hörməti tanımamaları məsələsi üzərində dayanmışdıq. Bu cür insanlardan ibarət olan bir cəmiyyət də, əlbəttə ki, böyük, kiçik, yaşlı, gənc, kəndli, şəhərli, bir-birinə sevgi-məhəbbət göstərməyən cəmiyyətdir. Belə bir mühitdə adam özünü həmişə tək və sevgisiz hiss edər. Şəfqət, mərhəmət olmadığı kimi hər kəs yalnız özünü düşünər. İnsanların bir-birlərinə bəslədikləri, zənn etdikləri sevgi və ya hörmət, heç vaxt Quranda nəzərdə tutulan mənada həqiqi hörmət və ya sevgi olmaz. Bunun ən böyük səbəbi isə həyatdakı bütün dəyərlərin mənfəət əlaqələri əsasında qurulmasıdır.

Heç kim başqasına könüllü surətdə hörmət etməz. Müdirinə qarşı hörmət göstərməsə işdən atılacağını bilən bir adamın, müəlliminə hörmət göstərməsə sinifdə qala biləcəyini düşünən bir şagirdin, yoldaşını qəzəbləndirsə cib xərcliyi ala bilməyəcəyini başa düşən bir qadının hörmət anlayışlarının yalnız mənfəətə əsaslanması aydındır.

Halbuki, əsasında din əxlaqı və onun gətirdiyi gözəl əxlaq olan bir həyat tərzində heç vaxt bu cür bir vəziyyət meydana gəlməz. Allahı razı salmaq üçün səy göstərən, Allahdan qorxan bir möminə hər kəs normal olaraq sevgi və hörmət bəsləyər. Bu adamın hörmət görmək üçün mal-dövlət, xarici görünüş kimi amillərə ehtiyacı yoxdur. Sevgi və hörmət görməsi üçün yalnız mömin olması, yəni Allahdan qorxub çəkinməsi və Onu razı salmaq üçün yaşaması kifayətdir.

Dinsiz cəmiyyətlərdə insanların necə bir ruh halına və əxlaq quruluşuna sahib olduqlarını daha əvvəlki hissələrdə izah etmişdik. İndi qarşınızda bu insanlardan meydana gəlmiş bir cəmiyyət düşünün, sizcə bu cəmiyyət sevgi və hörmətin hakim olduğu bir cəmiyyətdirmi? Əlbəttə ki, deyil. Özünü yoxdan var edən və ona sonsuz nemətlər verən Rəbbimizi təqdir edə bilməyən, Onu lazım olduğu kimi sevə bilməyən bir varlıq, əlbəttə ki, Onun qullarını da sevə bilməz. Bunun yeganə həlli isə din əxlaqının yaşandığı və Allah sevgisinin hakim olduğu bir cəmiyyətdir.

### Qumar bəlası aradan qalxar

Din əxlaqı yaşanmadıqda əmələ gələn pis mühitdə ən diqqət çəkən istiqamətlərdən biri də insanların, içki və qumara əsaslanan həyat tərzləridir. Din əxlaqını yaşamadıqları üçün təvəkkülün, səbrin, ümid etməyin nə olduğunu bilməyən bu insanlar hər hansı bir çətinliklə qarşılaşdıqları təqdirdə etdikləri ilk iş içkiyə və qumara müraciət etməkdir.

Hər hansı bir işləri yolunda getmədikdə, canları sıxıldığında, qəzəbləndiklərində, kədərləndiklərində hətta sevindiklərində belə dərhal içkiyə sarılıb öz aləmlərində “sıxıntılarını aradan qaldırarlar”. Halbuki, etdikləri, başda özləri olmaqla ətraflarındakı bütün insanlara zərər verməkdən başqa bir şey deyil. İçdikləri içkinin dozası artdıqca şüurları daha da itər və artıq müəyyən bir səviyyədən sonra etdikləri hər şey həddindən artıq sərxoş olmalarından ötrü normal bir halmış kimi qarşılanar. Belə bir vəziyyətdə adamın ətrafındakı insanları təhqir etməsi, cəmiyyət içində heç edilməyəcək yersiz bir hərəkəti gülərək etməsi və ya gündəlik həyatda iş-güc sahibi bir insan olduğu halda içki masasında hönkür-hönkür ağlaması, cahiliyyə ifadəsiylə “dağıtması” cəmiyyət tərəfindən də normal qarşılanan acizliklərdir.

İnsanların içkiylə özlərini itirmələri, bunun nəticəsində ətraflarındakı insanlara verdikləri hər cür zərər, həyat boyu qazandıqları hər şeylərini qumarda xərcləyib itirmələri, döyüşlər, cinayətlər, intiharlar dinsizliyin nə qədər böyük bir zülm gətirdiyinin ən aydın dəlilləridir. Bu həqiqət, ayənin ifadəsindən də aydın olur:

**Ey iman gətirənlər! Şübhəsiz ki, sərxoşedici içki də, qumar da, tapınmaq məqsədilə dik qoyulmuş daşlar da, fal oxları da şeytan əməlindən olan murdar şeylərdir. Bunlardan çəkinin ki, bəlkə nicat tapasınız. Həqiqətən, şeytan sərxoşedici içki və qumar vasitəsilə sizin aranıza ədavət və kin salmaq, sizi Allahı yad etməkdən və namazdan ayırmaq istəyər. Siz buna son qoyacaqsınızmı? (Maidə surəsi, 90-91)**

Quran əxlaqı qumarı qadağan etdiyi üçün möminlər heç vaxt qumar oynamağa cəhd etməzlər. Bunu Allah qorxularından ötrü etməzlər. Hər nə olursa olsun, nə qədər çətin vəziyyətdə də qalsalar, nə qədər cəlbedici təkliflərlə də qarşılaşsalar, nə qədər təzyiq də görsələr, nə qədər təşviq də edilsələr bu mövzuda güzəştə getmələrindən söhbət belə gedə bilməz. Din əxlaqında bunlara qarşı gətirə biləcək bəhanələr, ağlabatan səbəblər yoxdur. Heç kim bəhanə gətirmək kimi bir əxlaqsızlıq etməz. Çünki bir şey haramdırsa bunda güzəşt edilməsi, yüngülləşdirilməsi, tətbiq olunmaması ola bilməz.

Din əxlaqı yaşanmadığı təqdirdə isə insanların dəyər mühakimələrinə və ölçülərinə etibar etmək olmaz. Çünki yerə, zamana, adama, mühitə görə dəyərlər də, kəslər də dəyişərlər. Bunlarla əlaqədar olaraq çox fərqli izahlar gətirə bilərlər. Məsələn, qumar və ona bənzər pisliklər bəzi mühitlərdə pis olaraq qəbul edilərkən, bunu pis qəbul edən insanlar tərəfindən bəzi mühitlərdə oynanması və ya edilməsi normal qarşılanır.

Otellərdə, əyləncə yerlərində oynanmasında bir problem görülməz. Prinsip etibarilə oynamayan biri belə bu tərz bir yerə getdikdə prinsipini pozar və oynayar.

Bir şey pisdirsə və ya əxlaqsızlıq kimi qəbul edilirsə, buna heç bir yerdə və heç bir şəkildə yanaşılmamalıdır. Yerə, zamana və insanlara görə fərqləndirmə inkişaf etməmiş bir şəxsiyyətin göstəricisidir. Din əxlaqından xəbərsiz bir kimsənin də güclü bir şəxsiyyət və iradəyə sahib olması qeyri-mümkündür.

**Narkotik problemi aradan qalxar**

“Birləşmiş Millətlər Təşkilatı tərəfindən hazırlanan 1997-ci il Narkotik Hesabatında dünyada 200 milyon adamın narkotikdən istifadə etdiyi ifadə edildi...” *(27 Haziran 1997, Yeni Yüzyıl Gazetesi)*

Demək olar ki, hər gün eşidilən xəbərlərdə və ya oxunan qəzetlərdə narkotiklə əlaqədar bir xəbər olması müasir dövrdə artıq adi qarşılanan hadisələrdən biridir. Halbuki, bir qədər düşündükdə yer üzündəki canlılar arasında ən şüurlu varlıq olan insanın bir neçə milliqramlıq bir maddədən onsuz yaşaya bilməyəcək, o olmadığı təqdirdə özünü itirərək, şoka girəcək dərəcədə asılı olması çox anormal bir vəziyyətdir. Üstəlik, bu insanların sayının az hesab edilməyəcək qədər olduğu da nəzərə alındıqda vəziyyət xeyli təəccüblü hala gəlir.

“Bir dəfə sınamaqla heç bir şey olmaz” məntiqiylə başlayıb qısa vaxt ərzində narkotik mübtəlası halına gələn insanların hamısı şüur altında bir üsyan ruhu daşıyırlar. Çünki ümumiyyətlə, narkotikə başlamağın öz aləmlərində ağlabatan səbəbləri vardır. Şəxsi iradəsizliklərini və zəifliklərini görməzlikdən gəlib ətraflarındakı insanları günahkar hesab edərlər. Ailə mühitində yaşanan narahatlıqlar, məktəbdəki və ya işdəki müvəffəqiyyətsizliklər, ətraflarındakı insanlarla yola getməmək, maddi imkansızlıqlar, hadisələrin istədikləri kimi inkişaf etməməsi və ya hər hansı bir səbəbdən ötrü canlarının sıxılması bu kəslərin üsyana yönəlmələri üçün kifayət edir. Artıq bundan sonra qarşılarına çıxan hər şeyi pis, mənfi olaraq qiymətləndirməyə başlayırlar. Getdikcə kədərli və qaranlıq bir ruh halına girərlər.

Həyatda özlərini hər şeyə qarşı çox gücsüz hiss edərlər, həqiqətən də Allahı dost tutmadıqları üçün heç bir dayaqları yoxdur. Yeganə həllin hər şeyi unutmaq, şüuru tamamilə bağlayıb özündən keçmək olduğunu düşündükləri üçün hər keçən gün narkotikin dozasını bir az daha artırar, öz əlləriylə ölümə sürətlə yaxınlaşarlar. Bütün bunlarla birlikdə, ölümdən sonra əsl həyatın başlayacağına inanmadıqları və yox olacaqlarını düşündükləri üçün öz aləmlərində kef çəkməklə yaşayıb əylənmək

istədikləri dünya həyatının bu dərəcə kabusa dönməsi və hər keçən gün həm bədəncə, həm də ruhən çökmələri onları daha da çıxılmaz vəziyyətə salar.

Məhz içində olduqları bu qorxunc ruh halı, çöküşləri, kinləri, qəzəbləri, üsyanları, Allah razı salmaq əvəzinə nəfslərini razı salmağa çalışmaları, əslində vicdanlı davranmamalarının dünyada onlara verilən qarşılığıdır.

Halbuki, Allah insanlara ağıl, iradə, vicdan vermiş və Öz rizasına uyğun olaraq hərəkət edildiyi təqdirdə həm dünyada, həm də axirətdə gözəlliklər vəd etmişdir. Ancaq bunun əksini yaşamağı seçən şəxslərə də dünyada da, axirətdə çətinlik üz verəcəkdir. İşin həqiqəti, Allaha yaxınlaşmaq üçün yol axtaran insan həm Allahı razı salaraq sonsuz cənnət yurduna girməyə ümid edə bilər, həm də dünyada rahat və dinc bir həyat yaşaya bilər.

Yerlərin, göylərin və bu ikisi arasındakı hər şeyin Rəbbi olan Allaha səmimi bir yaxınlıq içində olmaq, əlbəttə ki, o adam üçün mümkün ola biləcək ən böyük dəstəkdir. Məhz buna görə də möminlər dünyanın ən güclü və ən dözümlü şəxsləridir. Həmçinin, iradələri və şüurları olduqca açıq insanlardır. Bu cür bir acizliyə düşməyəcəkləri kimi, özlərinə də əsla belə bir acizliyi yaraşdırmazlar. Onları belə güclü və iradəli edən şey isə Allaha olan imanları və Onun göndərdiyi haqq dinə olan bağlılıqlarıdır.

**Fahişəlik aradan qalxar**

**Zinaya yaxınlaşmayın. Çünki bu, iyrənc bir əməl və murdar bir yoldur! (İsra surəsi, 32)**

Allahın Quranda haram buyurduğu hərəkətlərdən biri olan zina, bunu edən insanı, tövbə etmədiyi təqdirdə həm dünyada, həm də axirətdə çox alçaq mövqeyə salacaq böyük bir günahdır.

Zinanın ya da fahişəliyin cəmiyyətə və zina edən insanlara maddi-mənəvi bir çox zərərləri vardır. Möminlər üçün, Allahın bu hərəkətləri qadağan etməsi, bunlardan uzaq durmaq və nifrət etmək üçün kifayətdir. Unudulmamalıdır ki, Allah insanları qanuni olan evliliyə təşviq edir.

Həmçinin, fahişəliyin cəmiyyətə və insanlara verdiyi zərərləri görmək də möminlərin imanlarını artıran bir ünsürdür. Quran ayələrində qəti bir şəkildə qadağan edilən və qınanan fahişəliyi, heç bir hədd-hüdud bilmədən tətbiq edənlərin içinə düşdükləri vəziyyət möminlər üçün bir ibrət vəsiləsidir.

Bu gün fahişəlik üzündən xeyli insan qürurunu itirmiş, özünə olan hörmətini və etibarını itirmiş, alçaq bir həyatı mənimsəmişdir. Fahişəlik üzündən çox sayda ailələr dağılmışdır. İnsanlara ümumi bir bədbəxtlik, narahatlıq və axtardığını tapa bilməmək psixologiyası hakim olmuşdur. Halbuki, Allahın göstərdiyi yola tabe olub, təmiz olanı seçsələr, digər bir sözlə halal olan bir şeyi seçsələr insanlar həm psixoloji baxımdan rahat olarlar, həm özlərinə etibar edərlər, həm qarşılıqlı sevgi və hörmət yaşayarlar, həm də möhkəm ailələr, möhkəm cəmiyyətlər meydana gələr.

Cəmiyyətlərin korlanmasında fahişəliyin rolu danılmazdır. Çünki fahişəlik, cəmiyyətin ən fundamental dirəyi olan ailə quruluşunu hədəf alır. Nəticədə özlərinə və ətraflarındakı insanlara hörmət qoymayan fərdlərdən ibarət bir cəmiyyət ortaya çıxar. Fahişəliyin yalnız pul qarşılığında edildiyini düşünmək səhvdir. Kiçik ya da böyük, uzunmüddətli və ya qısamüddətli hər hansı bir mənfəət qarşılığında edildiyi təqdirdə də yenə eyni mənaya gəlir. Ümumiyyətlə, insanlar, "pul qarşılığında birlikdə olmadıqlarını" deyərək özlərini rahatlaşdırmağa çalışarlar, amma, əslində bu bir yalandır. Çünki Allahın qoyduğu hüdudlar aşıldıqdan sonra hamısı eyni mənanı verər. Allah Quranda qeyri-qanuni hər cür cinsi əlaqənin haram olduğunu bildirmişdir. Buna görə də fahişəliyi məhdud nümunələr çərçivəsində düşünmək də səhv olar.

Digər cəhətdən, fahişəlik edənlərin çoxu əslində bunun haram olduğunu bildikləri üçün şüur altlarında böyük bir vicdan əzabı və narahatlıq hissi duyarlar. İnkar etsələr də daxildə özlərinə olan etibarlarını itirmələri bunun bir göstəricisidir.

Fahişəliyin cəmiyyətə gətirdiyi zərərlərdən biri də fahişəlik üçün yaradılan məkanlardır. Artan degenerasiyaya düz mütənasib olaraq fahişəlik məkanları da artır, bu da cəmiyyətin əxlaqi çöküşünü sürətləndirir. Uşaq sayılan yaşdakı insanlar bu yerləri doldurur, ailə münasibətləri ziyan görür, buna görə də sədaqətsizlik və vəfasızlıq durmadan artır. Halbuki, Allah insanları təmiz, halal, etibarlı, sədaqətli, sevgi və hörmətin hakim olduğu bir modelə çağırır və bunu nemət olaraq göstərir.

Bununla yanaşı, dünya tarixi boyu xeyli sayda insan dolanışığını fahişəlik etməklə təmin etməyə üstünlük vermiş, beləcə alçaldılmağı seçmişdir. Bu gün də fahişəlik bütün dünyada asan yolla pul qazanma sektoru olaraq göstərilir. Beləcə, pul qazanma və lüks həyat ehtirasıyla çox sayda adam şərəfsizliyi seçir. Allah Quranda insanları bu təhlükəyə qarşı belə xəbərdar edir:

**Şeytan sizi yoxsulluqla qorxudur və yaramaz işlər görməyi əmr edir. Allah isə sizə Öz tərəfindən bağışlanma və mərhəmət olunacağını vəd edir. Allah hər şeyi Əhatə edəndir, Biləndir. (Bəqərə surəsi, 268)**

Halbuki, insan əgər özünə Allahı vəkil edib, mömin namusuyla yaşamağa niyyət edərsə, Allah ona heç ağlına gətirmədiyi yerlərdən ruzi verər, qarşısına bir çox imkan çıxardıb, onu öz rəhmətiylə varlandırar. Çünki, belə şərəfli və saleh bir müsəlman Allahın diləməsiylə həm dünyada, həm də axirətdə nemətlər içində yaşayacaq. Qaldı ki, Allah imtahan üçün məhdud imkanlar da verə bilər. Belə bir vəziyyətdə adam dünyanın faniliyini buna qarşı axirət yurdunun əbədiliyini düşünüb, səbir etsə Allah Qatında alacağı qarşılıq böyük olacaq.

Lakin təkrar xatırlatmaqda fayda var: Bir insan dünyada mümkün ola biləcək hər cür səhvi edə bilər, Quranda haram buyrulan günahları işləmiş ola bilər, həyatının böyük bir hissəsini fahişəlik edərək qəflət içində keçirmiş də ola bilər, ancaq doğru yola çağırıldığı təqdirdə Allaha qəti bir tövbə edib bağışlanma diləsə, inşaAllah Allahı tövbələri qəbul edən olaraq görəcək. Yalnız bu şeyə də diqqət edilməlidir, Allahdan qəbul etməsi ümid edilən tövbə, ölüm anı gəlib də edəcək başqa bir şey qalmadığı üçün səmimiyyətsizcə edilən tövbə deyil. Çünki Allah bunu Quranda açıq-aşkar bir şəkildə bildirmişdir:

**Allah ancaq o kəslərin tövbələrini qəbul edir ki, onlar avamlıqları üzündən pis iş gördükdən sonra tezliklə tövbə edirlər. Allah onların tövbələrini qəbul edər. Həqiqətən, Allah Biləndir, Müdrikdir. Günah işlər görməkdə davam edənlərdən birinə ölüm gəldiyi zaman: "Mən indi tövbə etdim!" - deyənlərin də, kafir kimi ölənlərin də tövbəsi qəbul deyildir. Biz onlar üçün ağrılı-acılı bir əzab hazırlamışıq. (Nisa surəsi, 17-18)**

## Heç kim asanlıqla gəlir əldə etmək yollarına üstünlük verməz

Əvvəlki hissələrdə din əxlaqından uzaq insanların ölümdən sonrakı həyata həqiqi mənada inanmadıqlarını, bundan ötrü də -keçici olan- dünyaya həddindən artıq dəyər verib, eqoist ehtiraslarının arxasınca getdiklərini, bu mövzuda heç bir sərhəd tanımadıqlarını izah etdik. Bu insanların nəfslərinin pis arzuları və istəkləri üçün edə bilməyəcəkləri şey yoxdur. Heysiyyətlərindən, şərəflərindən, namuslarından rahatlıqla güzəştə gedə bilərlər. Əhəmiyyətli olan hər istədiklərinə qovuşa bilmələri, hər şeyi əldə

edə bilmələridir. Öz səhv məntiqlərinə görə, sonunda onsuz da torpağa qarışıb yox olacaqlarını düşündükləri üçün bu fani dünyanın haqqını verməlidirlər. Dünyada da hər şeyin açarı pul olaraq görüldüyü üçün tək sahib olunmalı şey puldur. Öz aləmlərində əllərinə pul keçirsələr, istədikləri hər şeyi əldə edəcəklər. Məhz bu məqamda bütün əxlaqi zəifliklərі ortaya çıxar. Asanlıqla pul qazana bilmək üçün hər şeyi edə bilərlər.

Saxtakarlıq, xəyanət, fırıldaqçılıq, oğurluq, əskik ölçmək, əskik çəkmək, yalançı şahidlik etmək kimi hər cür ədəbsizliyin yolu açıqdır. Bu həqiqəti görmək üçün qəzetlərin 3-cü səhifə xəbərlərini xatırlamaq kifayət edəcək. Pul üzündən işlənən cinayətlər, əxlaqsızlıqlar, arvadını, qızını, qonşusunu pul qazanmaq məqsədiylə fahişəliyə təşviq edən insanlar, öz hesabına pul keçirənlər, fırıldaqçılar vərdiş edilmiş xəbərlərdəndir.

Buna qarşı möminlər Allahın, Rəzzaq sifətiylə insanlara ruzi verəcəyini bilirlər. Əlbəttə ki, Allah rizasına uyğun olaraq onlar da işləyərlər, lakin heç bir şəkildə dünyaya ehtirasla bağlanmazlar və qeyri-qanuni yollara yönəlməzlər. Dünyaya bağlanmamalarının qarşılığını da bolluq və bərəkətlə alarlar. Əsl həyatın axirət yurdu olduğunu bildikləri üçün, saleh mömin olduqları təqdirdə cənnətlə mükafatlandırılacaqlarını və sonsuz nemətə qovuşacaqlarını da bilərlər.

### Din əxlaqı yaşandıqda sosial həyat necə olar?

Din əxlaqı özüylə bərabər Allah sevgisini də gətirəcəyi üçün bu, bütün insanlara çox müsbət və gözəl təsir edər. Hər kəs Allahın rizasını qazanmaq üçün gözəl əxlaq göstərər, bir-birini Allah rizası üçün sevər və ehtiram göstərər. Cəmiyyətdə şəfqət, mərhəmət, tolerantlıq hakim olar. İnsanlar Allahın əmrinə müvafiq olaraq xeyirli işlər görməyə tələsərlər.

Digər tərəfdən Allah qorxusu sayəsində hər kəs əxlaqsızlıqlardan və pisliklərdən uzaq durar. Əsrlərdir qarşısı alına bilməyən hər cür mənfi hal bir anda aradan qalxar. Dinin məhəbbəti və ruhu hər yerə hakim olar. Əlbəttə ki, burada nəzərdə tutulan Quranda bildirilən həqiqi dindir və bu din əxlaqının səmimi olaraq yaşanmasıdır.

Bir cəmiyyətin varlığında ailənin rolu çox böyükdür. Din əxlaqının tam mənasıyla yaşandığı bir mühitdə daha əvvəlki mövzularda ifadə edildiyi kimi ailə əlaqələri çox möhkəmlənər, həqiqi sevgi, hörmət yaşanar. Ailə olmazsa, dövlətin də, millətin də mənası qalmaz. Bunlar bir-birləriylə çox əlaqəli anlayışlardır. Ailə dağıldıqda millət anlayışı da yox olar, dövlət də zərər görər. Bu vəziyyət domino daşları kimi beləcə

davam edər. Necə ki, din əxlaqının yaşanmadığı cəmiyyətlərdə insanların üsyançı şəxsiyyətlərə büründükdə, anarxist aksiyalar keçirdikləri, dövlətə qarşı cəbhə aldıqları məlum olan bir həqiqətdir. Xüsusilə də milli və mənəvi dəyərlərin qorunması lazım gəldiyi hallarda, Allah qorxusu olmayan insanların biganə davranacaqları qəti bir həqiqətdir. Milli və mənəvi mənfəətlərlə öz mənfəətləri arasında bir müqayisə aparmaları yeri gəldikdə din əxlaqından uzaq insanların asanlıqla öz nəfslərini istəyinə uyğun gələni seçəcəkləri aydın bir həqiqətdir. Bu, yeri gəldikdə vətənə və millətə xidmət etməkdən, onun uğrunda mübarizə aparmaqdan çəkinməyə, hətta separatçı fəaliyyətlər göstərməyə qədər geniş bir çərçivədə düşünülə bilər. Halbuki, din əxlaqını yaşayan insanlar üçün dövlət və millət anlayışları çox böyük dəyərə malikdir. Yeri gəldikdə adam dövləti üçün canını təhlükəyə atar, dövlətinin, millətinin mənfəətlərini şəxsi mənfəətlərindən üstün tutar. Milli və mənəvi dəyərlərini canla başla qoruyar.

Din əxlaqının yaşandığı bir mühitdə şagirdlər də dövlətə, millətə qarşı hörmət və sevgi dolu olarlar. Nəinki, bu müqəddəs təşkilatlara qarşı mübarizə aparmaq, tam əksinə dəstək olub, kömək edərlər. İndiki dövrdə olduğu kimi əsgərə, polisə hücum etməzlər, tam əksinə dövləti qoruyan, müdafiə edən bu səlahiyyətli şəxslərə qarşı olduqca hörmət göstərər və onlara kömək edərlər. Cəmiyyət daxilində dövlətə, orduya və polisə qarşı tam bir etibar və sahiblənmə hissi yaranar. Tələbə hadisələri, qardaş davaları, sağ-sol qarşıdurmaları kimi problemlər aradan qalxar. Çünki heç kimin razılığa gələ bilmədiyi, mübahisə etdiyi, döyüşdüyü bir xüsus qalmaz. Hər kəs Allahın kitabına iman edər, onda bildirilən gözəl əxlaq anlayışını mənimsəyər, nəticədə də heç kim bir-biriylə anlaşmazlığa düşməz. Problemlərin həllində hər kəs özünü qarşısındakının yerinə qoyar, mərhəmət edər, tolerantlıqla yanaşar. Beləcə hər problem qısa müddətdə gözəlliklə həll olar.

Dövlət belə bir mühitdə çox asan idarə olunar. Ölkə çox etibarlı və çiçəklənən bir hala gələr. Məsul işçilər də insanlara qarşı çox ədalətli, mərhəmətli olarlar, hər cür ədalətsizlik aradan qalxar. Buna görə də özləri də çox hörmət görərlər. Belə dövlətlər də çox güclü və sarsılmaz bir təmələ sahib olarlar.

Din əxlaqı yaşanmadığı təqdirdə isə ata oğula, oğul ataya düşmən olar, qardaş qardaşla mübahisə edər, işçi müdirə, müdir işçiyə düşmən olar. Anarxiya üzündən fabriklər, iş yerləri fəaliyyət göstərməz, ziyan görər. Sosial anarxiya baş verər, kasıb təbəqələr varlılara hücum edər, varlılar da kasıbları əllərindən gəldiyi qədər istismar etməyə çalışar. Müxtəlif peşə qrupları digərlərinə hücum edər. Cəmiyyətdə xaos, anlaşılmazlıq, anarxiya mühiti hakim olar. Bütün bunların səbəbi insanların Allahdan

qorxmamalarıdır. Allah qorxusu olmayan insanlar rahatlıqla haqsızlıq, ədalətsizlik edə bilir, cinayət işləyə bilir, bənzəri görülməmiş zülm və qəddarlıqlar etməkdən çəkinmirlər. Üstəlik, vicdan əzabı belə çəkməyən, etdikləri vəhşilikdən peşman olmadıqlarını deyə bilirlər. Halbuki, qarşılığında axirətdə sonsuz cəhənnəm əzabı olduğuna inanan bir adam əsla bu cür hərəkətlər edə bilməz. Quran əxlaqı yaşandığı təqdirdə bu saydığımız mənfi halların heç biri qalmaz. Hər şey sakitliklə, gözəlliklə, ədalətlə həll edilər. Məhkəmə hadisələri olmaz, polis şöbələri, məhkəmə binaları demək olar heç bir iş görməz.

İnsanların rahat və dinc olmasıyla birlikdə cəmiyyətə hər sahədə bərəkət gələr. Elmi fəaliyyətlər artar, yeni ixtiralar olar, texnologiya, mədəniyyət və rifah səviyyəsi çox yüksələr. Çünki insanların ağlının üstündəki təzyiq yox olduqda rahatlayar, azad və rahat düşünmə qabiliyyətləri inkişaf edər. Gözəl əxlaqın yaşanmasıyla birlikdə insanların mallarına, pullarına, gördükləri işlərə, ticarətə, əkinçiliyə, sənayeyə bərəkət gələr. Demək olar ki, hər sahədə inkişaf müşahidə olunar. Bədii fəaliyyətlərdə də böyük addımlar atılar. Gündəlik sıxıntı, problem və narahatlıqlardan təxəyyülləri, düşüncə hüdudları zəifləmiş insanlar, din əxlaqının yaşanmasıyla birlikdə bu çətinliklərdən xilas olarlar. Buna görə də incəsənət qabiliyyətləri inkişaf edər, təxəyyülləri zənginləşər. Allahın Öz ruhundan üfürdüyünün və özünə sonsuza qədər qalması üçün ehtişamla, sənətlə, min bir növ nemətlərlə dolu cənnətini vəd etdiyini dərk edən bir insan çox normal bir haldır ki, sənətdən və estetikadan ən yaxşı dərəcədə zövq ala biləcək bir ruha sahib olacaq. Ruhunda bundan böyük bir zövq alacaq və daha çox zövq almaq üçün səy göstərəcək. Həmçinin ətrafındakı insanlara duyduğu sevgi və hörmət də bu kəslərə gözəlliklər təqdim etmə əzmini artıracaq, bu mövzuda böyük bir şövq verəcək. Buna görə də din əxlaqının həqiqi mənada yaşandığı və Qurana tam mənasıyla tabe olunduğu bir mühitdə hər cür bədii cərəyan sürətlə inkişaf edər.

Amma din əxlaqını yaşamayan insanların ruhlarını zənginləşdirib, gözəlləşdirmə kimi bir məqsədləri də yoxdur. Ətraflarına gözəllik təqdim etmə mövzusunda isə əsla şövqlənməzlər. Çünki ətraflarındakı insanları mənşəyi meymunlara gedib çıxan və sonunda yox olub gedəcək varlıqlar kimi qiymətləndirərlər. Onların tək məqsədləri eqoist istəklərini, heyvani motivlərini təmin edə bilməkdir. Bunların arxasınca getmək də insanın ruhunu inkişaf etdirməz, tam əksinə korlaşdırar. Bu cür insanların sənətə heç bir töhfə verə bilməyəcəkləri kimi gözəl sənətdən zövq almaları, sənəti təqdir etmələri də qeyri-mümkündür. Sənətdən zövq almayan, estetik anlayışları olmayan insanlardan ibarət olan bir cəmiyyətdə sənətçilər da şövq və əzmlərini itirərlər. Ancaq

pul və mənfəət qarşılığında etdikləri üçün də həqiqi mənada bir sənət əsəri ortaya qoya bilməzlər.

**Nəticədə, din əxlaqı xalis və səmimi olaraq Quranda təsvir edildiyi şəkildə yaşandığı təqdirdə dünya cənnətə bənzər mühitə çevrilir. İnsanların əsrlərdir həsrətini çəkdikləri, çatmaq üçün cəhd etdikləri, lakin çox uzaq gördükləri ictimai səadət bir anda reallaşar.**

# NƏTİCƏ:
# HƏLL YOLU QURAN ƏXLAQIDIR

Kitabın əvvəlindən bəri, din əxlaqından uzaq yaşayan insanların düşüncə və davranış formaları və bu insanların meydana gətirdiyi ictimai quruluşun əsas xüsusiyyətlərinə müxtəlif cəhətlərdən toxunduq. Bu insanların qatlandıqları çıxış yolu olmayan problemlərlə və çətinliklərlə dolu həyat tərzinin həm bədənlərinə, həm də ruhlarına verdiyi zərərləri araşdırdıq. Onların bu vəziyyətlərinə qarşı səmimi möminlərin hüzur və əmin-amanlıq içindəki həyatlarından da nümunələr verdik. Məhz dindar insanların bu hüzur və etibarları, kitabın bir çox yerində də bəhs etdiyimiz kimi Quranın hər şeyə çarə olmasından qaynaqlanır. Quran hər problemə, hər çıxılmaz vəziyyətdə ən mükəmməl və ən ağıllı çıxış yollarını təqdim edir:

Ədalətsizlik, ixtilaf, bərabərsizlik, mübahisə, döyüş, haqsızlıq, israf, təəssüb, zülm, şiddət, iqtisadi əlaqələr, ər-arvad münasibətləri, ticarət əlaqələri, insanlar arası ictimai əlaqələr, qohumlar arası əlaqələr və bunlar kimi saysız-hesabsız ictimai problem və mövzu haqqında Quran əxlaqının yaşanması insanların həyatlarını asan, rahat və xoşbəxt edəcək ən əsas, ən ədalətli, ən mükəmməl və ən əsaslı həlləri gətirər.

Bunlardan başqa Quran hər mövzuda və hər şəraitdə göstərilməsi lazım olan ideal rəftar və əxlaq quruluşunu da insanlara izah edər. Quranda təsvir edilən bu üstün əxlaq modelini yaşayan insanlardan ibarət olan bir cəmiyyət də, əlbəttə ki, əsrlərdir arzu olunan ideal quruluşuna qovuşacaq.

Quranın hər mövzuda insanlara şərh gətirdiyi bir ayədə belə ifadə edilir:

**...Bu Quran uydurulmuş bir kəlam deyildir. Ancaq özündən əvvəlkiləri təsdiqləyən və hər şeyi müfəssəl izah edəndir; iman gətirən bir camaat üçün hidayət və mərhəmətdir. (Yusif surəsi, 111)**

İnsanlar haqq dinin rəhbərliyi olmadan nə şəxsi, nə də ictimai problemlərinə heç vaxt əsaslı və qaneedici həlləri öz başlarına tapa bilməzlər. Necə ki, tarix boyu din əxlaqından uzaq yaşayan cəmiyyətlərin bu vaxta qədər həll edə bilmədən daşıdıqları saysız-hesabsız problem bu həqiqətin aydın bir dəlilidir. İnsanlar din əxlaqından üz çevirdiyi təqdirdə bunun qarşılığını özünün və içində yaşadığı cəmiyyətin, əsla öhdəsindən gələ bilməyəcəyi çətinlik və problemləriylə ödəmək məcburiyyətində

qalacaq. Bu, dinsizliyin dünyadakı qarşılığıdır. Axirətdəki qarşılığı isə daha ağrılı və daimi olacaq.

İnsanı ən yaxşı tanıyan onu yaradan Allahdır. Allah insana hər dövrdə haqq din sayəsində ehtiyacı olan hər cür məlumatı və şərhi də göndərmişdir. Haqq dini tətbiq etdiyi təqdirdə insanın ən gözəl həyat tərzini əldə edəcəyini də bildirmişdir:

**Mömin olaraq yaxşı iş görən kişi və qadınlara, əlbəttə, gözəl həyat bəxş edəcək və etdikləri ən yaxşı əməllərə görə onları mütləq mükafatlandıracağıq. (Nəhl surəsi, 97)**

Buna baxmayaraq insan kiçik hesablar, dünyəvi mənfəətlər, eqoist zəifliklərdən ötrü haqq dindən üz çevirdiyi təqdirdə ən böyük zərəri yenə özü görəcək. Çünki insan Qurandan üz çevirsə, özü üçün lazım olan ən həyati məlumatlardan məhrum olar. Halbuki, nə özünün, nə də özü kimi gəlib-getmiş insanların yığdıqları var-dövlət bu dünyada qarşısına çıxacaq tələblərin və problemlərin öhdəsindən gəlməsinə kifayət etməyəcək. Bütün həyatı çətinlik, narahatlıq, stress, şübhə, tərslik və çıxılmaz vəziyyətlərlə keçəcək. O da bir müddət sonra bu vəziyyəti qəbul edəcək, din əxlaqını yaşamamağının cəzası olan əzablarla dolu həyatını, həyatın bir həqiqəti zənn edərək böyük bir aldanış içində yaşayacaqdır.

Həll isə aydındır, hər şeyin Yaradıcısı olan Allaha yönəlmək, Onun bizlər üçün seçib bəyəndiyi dinini yaşayaraq həqiqi xoşbəxtliyə nail olmaqdır. Allah dünyadakı xilas yolunun dinə yönəlmək olduğunu xəbər vermiş və səmimi qullarına din əxlaqını yaşadıqları təqdirdə dünyada qorxuyla qarşılaşmayacaqlarıyla əlaqədar böyük bir müjdə vermişdir:

**Allah sizlərdən iman gətirib yaxşı işlər görənlərə vəd etmişdir ki, özlərindən əvvəlkiləri varislər etdiyi kimi onları da yer üzünün varisləri edəcək, möminlər üçün onların Özünün bəyəndiyi dinini möhkəmləndirəcək və onların qorxusunu sonra arxayınçılıqla əvəz edəcəkdir. Onlar Mənə ibadət edir və heç nəyi Mənə şərik qoşmurlar. Bundan sonra küfr edənlər – məhz onlar fasiqlərdir. (Nur surəsi, 55)**

Pislik, haqsızlıq, kədər, pessimizm, çətinlik, təklik, qorxu, stress, etibarsızlıq, vicdansızlıq, narahatlıq, qəzəb, qısqanclıq, kin, narkotik asılılığı, əxlaqsızlıq, qumar, fahişəlik, aclıq, kasıblıq, korrupsiya, oğurluq, döyüş, düşmənçilik, cinayət, müharibə, qarşıdurma, zülm...

Bütün bunlar demək olar ki, hər gün qəzet və televiziya verilişlərində gördüyünüz, gündəlik həyatda qarşılaşdığınız hətta şəxsən yaşadığınız problemlərdəndir.

İnsanların və cəmiyyətlərin xilas olmağa çalışdığı, hər sahədə mübarizə apardıqları bu cür mənfi hallar, qarşıdurmalar və gizli ictimai strukturlar, dünyada əsrlərdən bəri hakimdir

Bəs insanlar bu mənfi hallarla indiyə qədər mübarizə aparmışdırlarmı ya da aparmaq üçün bir səy göstərmişdirlərmi? Əlbəttə ki, dünyanın demək olar ki, hər dövründə insanlar bu qeyd olunan mənfi hallarla üz-üzə gəlmiş, bunlarla mübarizə aparmışlar, ancaq çarəni həmişə səhv üsullarda axtardıqları üçün heç cür həll tapa bilməmişlər.

Şübhəsiz ki, bu mənfi halların tək həll yolu “həqiqi din əxlaqı”nın yaşanmasıdır. Din əxlaqı yaşanmadığı müddətcə insanlar bu mənfi hallara məhkumdur. Çünki bu, “dinsizliyin kabusu”dur.

Bu kitabda Allahın insanlara endirdiyi Quranda təsvir edilən “gözəl əxlaq” modeli yaşandığı təqdirdə “dinsizliyin kabusu”nun, yəni pisliklərin, pessimizmin, ictimai narahatlıqların qarşısının necə alınacağını, mənfi halların necə ortadan qalxacağı, ideal mühitə necə nail olunacağı, insanların maddi-mənəvi nə kimi qazanclar əldə edəcəkləri və bütün bu mənfi hallardan xilas ola bilmək üçün Quran əxlaqının tək alternativ həll olduğu izah edilir.